ცესკო
საქართველოს საარჩევნო ადმინისტრაცია

საარჩევნო სისტემების განვითარების, რეფორმებისა და
სწავლების ცენტრი



# MƏNTƏQƏ SEÇKİ KOMİSSİYASI ÜZVLƏRİ ÜÇÜN VƏSAİT-TƏLİMAT

## MUNİSİPALİTET ORQANLARININ 2025-Cİ İL 4 OKTYABR SEÇKİLƏRİ

### SƏSVERMƏ ELEKTRON VASİTƏLƏRİN TƏTBİQİ İLƏ HƏYATA KEÇİRİLƏN SEÇKİ MƏNTƏQƏLƏRİ ÜÇÜN NƏZƏRDƏ TUTULUB

არჩევნები
2025

2025

Mərkəzi Seçki Komissiyasının 2025-ci il 29 aprel tarixli N 31/2025 qərarı ilə təsdiq edilmişdir.

Köməkçi vəsait Publik Hüquqi Şəxs - Seçki Sistemlərinin İnkişafı, İslahatlar və Tədris Mərkəzi tərəfindən 2025-ci il 4 oktyabr tarixində keçiriləcək munisipalitet orqanlarının növbəti seçkiləri üçün hazırlanmışdır. Vəsait, səsvermənin elektron vasitələrlə aparıldığı seçki məntəqələri üçün nəzərdə tutulmuşdur.

Vəsait "Gürcüstan Seçki Məcəlləsi" Gürcüstan Orqan Qanunu və "Səsvermənin elektron vasitələrlə keçirilməsinin qayda və şərtlərinin müəyyən edilməsi haqqında" Mərkəzi Seçki Komissiyasının 2023-cü il 6 fevral tarixli №7/2023 qərarı əsasında hazırlanmışdır.

Məntəqə seçki komissiyasının səlahiyyətləri və fəaliyyət qaydaları ilə bağlı hüquqi tənzimləmələrlə tam tanış olmaq üçün "Gürcüstan Seçki Məcəlləsi" Gürcüstan Orqan Qanunu və MSK-nın müvafiq hüquqi aktları ilə tanış olmağınız tövsiyə olunur.

PHŞ Seçki Sistemlərinin İnkişafı, İslahatlar və Təlim Mərkəzi inklüziv seçki mühitinə dəstəyin verilməsi məqsədilə, PHŞ Gürcüstan Beynəlxalq Müqavilələrin Tərcümə Bürosu vasitəsilə, Mərkəzi Seçki Komissiyasının 2025-ci il 29 aprel tarixli №31/2025 qərarı ilə təsdiqlənmiş məntəqə seçki komissiyasının üzvləri üçün nəzərdə tutulmuş vəsaitin Azərbaycan dilinə tərcüməsini təmin etmişdir.

Mərkəzi Seçki Komissiyasının qərarı ilə təsdiqlənmiş vəsaitin mətni ilə onun tərcümə edilmiş variantı arasında hər hansı uyğunsuzluq yarandıqda, üstünlük gürcü dilində tərtib edilmiş varianta verilir.

2025-ci il 4 oktyabr tarixində
Gürcüstan vətəndaşları munisipalitetin nümayəndə orqanına – Sakrebuloya və özünüidarəetmə şəhərinin / özünüidarəetmə icmasının merinə səs verəcəklər.

Məntəqə seçki komissiyası, demokratik seçkilərin əhəmiyyətini dərk edərək, qanunilik, siyasi bitərəflik və peşəkarlıq prinsiplərinə əsaslanır, fəaliyyətini yüksək etik davranış standartlarına uyğun həyata keçirir və aşağıdakı mühitin yaradılmasına çalışır, hansında da:

- Seçicinin iradəsinin sərbəst ifadəsi və seçimin məxfiliyi qorunur
- Bərabər və əlçatan seçki xidmətləri təmin edilir
- Müşahidəçilərin və seçki subyektlərinin nümayəndələrinin qanuni hüquqlarının həyata keçirilməsi təmin olunur

Yeni yaradılmış məntəqə seçki komissiyasının fəaliyyəti və onun üzvlərinin səlahiyyət müddəti seçki gününə 30 gün qalmış (4 sentyabrdan) başlayır və müvafiq dairə seçki komissiyası tərəfindən səsvermənin yekun protokolları tərtib edildiyi andan etibarən başa çatır.

Məntəqə seçki komissiyasının üzvü onu təyin edən/seçən subyektin nümayəndəsi deyil. Məntəqə seçki komissiyasının üzvünə seçkiqabağı təşviqat aparmaq və təşviqatda iştirak etmək, seçki komissiyası üzvünə təsir göstərmək və ya qərarların qəbuluna təsir etmək məqsədilə onun fəaliyyətinə müdaxilə etmək qadağandır və qanunla cəzalandırılır.

# Tematik mündəricat


**I fəsil. Məntəqə seçki komissiyasinin səsvermə gününədək fəaliyyəti** 3

01. Məntəqə seçki komissiyası səsvermə gününədək dövrdə seçicilərə hansı xidmətləri göstərir 4

02. Məntəqə seçki komissiyası səsvermə gününə necə hazırlaşır 9

**II fəsil. məntəqə seçki komissiyasinin səsvermə günü fəaliyyəti** 15

03. Səsvermə günü məntəqə seçki komissiyası səsvermə prosesinə necə hazırlaşır 16

04. Məntəqə seçki komissiyası səsvermə prosesində seçicilərə necə xidmət göstərir 29

05. Məntəqə seçki komissiyası tərəfindən səsvermənin nəticələrinin yekunlaşdırılma prosesi necə aparılır 51

06. Məntəqə seçki komissiyası səsvermə günü daxil olan müraciət və şikayətlərə necə reaksiya göstərir 74

**N1** **Əlavə** – Elektron cihazların quraşdırılması barədə məlumat sənədi 77

**N2** **Əlavə** – Xüsusi seçici siyahısına daxil edilmiş seçicilərin uçot forması nümunəsi 80

**N3** **Əlavə** – Elektron vasitələrdən istifadə olunmadan səsvermə prosesinin davam etdirilməsi 81

**N4** **Əlavə** – Məntəqə seçki komissiyası tərəfindən həyata keçiriləcək əsas tədbirlərin təqvimi 94

# I fəsil.

## Məntəqə seçki komissiyasinin səsvermə gününədək fəaliyyəti

# 01
# Məntəqə seçki komissiyası səsvermə gününədək dövrdə seçicilərə hansı xidmətləri göstərir

Seçicilərin səsvermədə iştirakını təmin etmək məqsədilə, məntəqə seçki komissiyası fəaliyyətə başladığı andan etibarən seçicilərə müvafiq xidmətlər təqdim edir.

Seçicilərin vahid siyahısındakı məlumatların yoxlanılması xidmətinin həyata keçirilməsi məqsədilə məntəqə seçki komissiyası təmin edir:

- Seçicilərin vahid siyahısının ictimailəşdirilməsini
- Seçici kartlarının paylanmasını

## Seçicilərin vahid siyahısının ictimailəşdirilməsi

Məntəqə seçki komissiyasına seçki gününə 30 gün qalmış – 4 sentyabr tarixindən etibarən, Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiqlənmiş seçicilərin vahid siyahısının ictimai məlumat üçün nəzərdə tutulmuş versiyası (divar siyahısı – seçicilərin fotoşəkilləri və şəxsi nömrələri olmadan) təqdim olunur. Məntəqə seçki komissiyası dərhal bu siyahını və onunla bağlı şikayət vermə qaydasını komissiya binasında görünən bir yerdə asır, bununla da seçicilərin, müşahidəçi təşkilatların və seçki qeydiyyatı olan partiyaların/seçicilərin təşəbbüs qruplarının (seçki subyektlərinin) nümayəndələrinin məlumat əldə etməsini təmin edir.

Məntəqə seçki komissiyasına, seçki gününə ən geci 2 gün qalmış – 2 oktyabr tarixində, dəqiqləşdirilmiş və son versiya olan ictimai məlumat üçün nəzərdə tutulmuş seçici siyahısı təqdim olunur.
Əvvəlki versiya çıxarılır və komissiya həmin yerdə dəqiqləşdirilmiş versiyanı asır.

## Seçici kartlarının paylanması

Seçicilərin siyahısındakı məlumatların yoxlanılmasını asanlaşdırmaq məqsədilə, səsvermə gününə ən tez 30 gün (4 sentyabr) və ən gec 20 gün (14 sentyabr) qalmış, məntəqə seçki komissiyası seçicilərə ünvanlarda məlumat kartları paylayır. Bu kartlarda seçicilərin vahid siyahısında göstərilən fərdi məlumatları və siyahıda yanlışlıq aşkarlandığı halda düzəliş tələb etmək qaydası qeyd olunur.

Seçici kartında həmçinin adaptiv seçki məntəqəsinin xüsusi siyahısına daxil edilmə və səyyar seçki qutusu ilə səsvermə xidmətindən istifadə qaydaları barədə məlumat da verilir.

Məntəqə seçki komissiyası, seçicilərin yekun siyahısı əsasında, məlumatlandırmanın növbəti mərhələsində səsvermə gününə ən gec 3 gün qalmış (1 oktyabr) seçicilərə kartlar paylayır. Bu kartlarda aşağıdakı məlumatlar yer alır: səsvermənin tarixi və vaxtı, səsvermənin keçiriləcəyi binanın ünvanı, mərtəbə və otaq nömrələri, seçki məntəqəsinin nömrəsi, seçicinin vahid siyahıdakı nömrəsi və digər şəxsi məlumatları. Seçici kartının alınmaması seçicinin səsvermədə iştirak hüququnu məhdudlaşdırmaq üçün əsas deyil.

Seçici kartları məntəqə seçki komissiyasının sədri tərəfindən tərtib olunmuş cədvələ uyğun olaraq, kartların paylanmasına cavabdeh qrup/qruplar tərəfindən, məntəqə seçki komissiyasının və ya xüsusi qrupun üzvlərinin iştirakı ilə paylanır.

Seçicilərin vahid siyahısında dəyişikliklərin aparılması xidmətinin asanlaşdırılması məqsədilə məntəqə seçki komissiyası təmin edir:

- Ərizələrin qəbulunu və onların reaksiya üçün dairə seçki komissiyasına göndərilməsini
- Siyahıda dəyişiklik edilməsi barədə qəbul edilmiş qərarın ictimailəşdirilməsini

Seçici, müşahidəçi təşkilat, seçki qeydiyyatı olan partiya və seçki qeydiyyatı olan seçicilərin təşəbbüs qruplarının üzvləri, seçicilərin vahid siyahısında səhvləri aşkar etdikləri halda, seçki gününə ən gec 18-ci gün (16 sentyabr) qalmış müvafiq dəyişikliklərin edilməsi tələbi ilə dairə seçki komissiyasına birbaşa olaraq və ya məntəqə seçki komissiyasının xidmətindən istifadə edərək müraciət etmək hüququna malikdirlər.

Məntəqə seçki komissiyası daxil olan ərizələri (əgər varsa, əlavə sənədlərlə) dərhal dairə seçki komissiyasına göndərir.

Dairə seçki komissiyasının seçicilərin vahid siyahısında dəyişiklik edilməsi barədə qərarı məntəqə seçki komissiyasına göndərilir, komissiya isə qərarı ictimaiyyətə açıqlanması məqsədilə komissiya binasında görünən bir yerdə asır.

Səyyar (daşınan) seçki qutusu ilə səsvermə xidmətinin həyata keçirilməsi üçün məntəqə seçki komissiyası təmin edir:

- Ərizələr əsasında seçicilərin səyyar seçki qutusu siyahısına daxil edilməsini
- Səyyar seçki qutusu siyahısına daxil edilmə barədə qəbul edilmiş qərarın ictimailəşdirilməsini

Sağlamlıq vəziyyətinə görə səsvermə məntəqəsinə getməkdə çətinlik çəkən və ya seçki məntəqəsinin ərazisində olub, amma çətinliklə çatılan yerdə olan seçicilər, səyyar seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək hüququna malikdirlər.

Səyyar seçki qutusu ilə səsvermə xidmətindən istifadə etmək üçün seçici, seçki gününə ən geci 11 gün (23 sentyabr) qalmış, saat 18:00-ə qədər məntəqə seçki komissiyasına yazılı şəkildə və ya telefonla şifahi şəkildə müraciət etməlidir.

Yazılı müraciətin qeydiyyata alınması üçün müraciətdə seçicinin adı, soyadı, şəxsi nömrəsi və seçici tərəfindən səyyar seçki qutusunun gətirilməsini tələb etdiyi ünvan göstərilməlidir. Məntəqə seçki komissiyasının katibi, lazım gələrsə, müraciət edənə məlumatları dəqiqləşdirmək üçün əlavə suallar verə bilər.

Telefonla edilən şifahi müraciətin qeydiyyata alınması üçün məntəqə seçki komissiyasının katibi, qeydiyyat jurnalında seçicinin adı, soyadı, şəxsi nömrəsi, telefonla müraciətin dəqiq vaxtı, telefon nömrəsi və seçicinin səyyar seçki qutusunun gətirilməsini tələb etdiyi ünvan haqqında məlumatları qeyd etməlidir.

Əgər seçici səyyar seçki qutusunun gətirilməsini tələb edirsə və tələb etdiyi ünvan seçici qeydiyyatının olduğu seçki məntəqəsinin ərazisinə daxil deyilsə, seçiciyə izah edilir ki, qanunvericiliyə əsasən, o, tələb etdiyi seçki məntəqəsinin səyyar seçki qutusu siyahısına daxil edilməyəcək.

Məntəqə seçki komissiyasının katibi seçicinin yazılı/telefonla edilən şifahi müraciətini qeydiyyat jurnalına yazır və müraciətin alınmasını imza ilə təsdiqləyir.

Qeydiyyata alınmış müraciətlər əsasında, seçicilərin səyyar seçki qutusu siyahısına daxil edilməsi məqsədilə, məntəqə seçki komissiyası lazım olduğu halda, dairə seçki komissiyası ilə əlaqə saxlayır və seçicinin seçki məntəqəsinin vahid siyahısında qeydiyyata alınması faktını yoxlayır.

Yoxlama nəticələrinə əsaslanaraq, məntəqə seçki komissiyasının katibi, məntəqə seçki komissiyasının binasında ictimaiyyətə açıqlanması məqsədilə aşağıdakı məlumatları yerləşdirir:

- Seçicilərin səyyar seçki qutusu siyahısına daxil edilməsi barədə məlumatı (şəxsi nömrələrsiz, vahid siyahıda seçicinin sıra nömrəsinin göstərilməsi ilə);
- Səyyar seçki qutusu siyahısına daxil edilməkdən imtina edilən seçicilər barədə məlumatı.

Məntəqə seçki komissiyasının üzvləri, seçki subyektlərinin nümayəndələri və müşahidəçilər, səyyar seçki qutusu siyahısına daxil ediləcək seçicilərin tələblərinin əsaslandırılmasını yoxlamaq hüququna malikdirlər və seçki gününə ən geci 10 gün qalmış (24 sentyabr) məntəqə seçki komissiyasının qarşısında bu seçicilərin siyahıya daxil edilməsinin məqsədəuyğunluq məsələsini qaldıra bilərlər.

Sağlamlıq vəziyyətinə görə, məntəqə seçki komissiyasının daxil etdiyi seçicilərin sayı səyyar seçki qutusu siyahısında, seçki məntəqəsindəki vahid siyahıda olan seçicilərin 3 faizini keçməməlidir. Bu say tamamlandıqdan sonra, məntəqə seçki komissiyasının sədri daxil olan müraciətləri dairə seçki komissiyasına göndərməli və dairə komissiyası seçicilərin səyyar seçki qutusu siyahısına daxil edilməsinin məqsədəuyğunluğunu qərara almalıdır. Məntəqə seçki komissiyası alınan nəticələr haqqında məlumatı ictimailəşdirməlidir.

Dairə seçki komissiyası səyyar seçki qutusu siyahısının sonuncu, dəqiqləşdirilmiş çap versiyasını (divar siyahısı) məntəqə seçki komissiyasına təqdim edir. Bu siyahıda yer alır:

- ✔ Məntəqə seçki komissiyasının səyyar seçki qutusu siyahısına daxil etdiyi seçicilər;
- ✔ Səyyar seçki qutusu siyahısına daxil edilməsinin məqsədəuyğunluğunu müzakirə edərək, dairə seçki komissiyasının qərar verdiyi seçicilər;
- ✔ Dairə seçki komissiyasının təsdiqlədiyi seçicilərin xüsusi siyahısından səyyar seçki qutusu siyahısına köçürülənlər.

Məntəqə seçki komissiyası səyyar seçki qutusu siyahısının son, dəqiqləşdirilmiş variantını komissiyanın binasında görünən yerdə yapışdırır. Eyni zamanda, komissiyanın katibi və komissiyanın sədri imzaları ilə (sənədin sonunda imza üçün ayrılmış hissədə) seçicilərin vahid siyahısında/xüsusi siyahısında seçicinin məlumatlarının qarşısında olan "səyyar qutu" qeydini təsdiq edirlər.

Əlil arabasından istifadə edən seçicilərin seçki prosesində iştirakını təmin etmək üçün məntəqə seçki komissiyası aşağıdakı xidmətləri təmin edir:

- Uyğunlaşdırılmış seçki məntəqələrinə daxil edilməsi tələbi ilə müraciət edən seçicilərin ərizələrinin qəbul edilməsi və reaksiya üçün dairə seçki komissiyasına göndərilməsini;
- Xüsusi siyahıya daxil edilməsi ilə bağlı qəbul edilmiş qərarın ictimailəşdirilməsini.

Əlil arabasından istifadə edən seçicilər, uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi siyahısına daxil olmaq üçün, birbaşa və ya yerli seçki komissiyasının xidmətindən istifadə edərək, dairə seçki komissiyasına müraciət etmək hüququna malikdirlər. Uyğunlaşdırılmış seçki məntəqəsi seçicinin qeydiyyatda olduğu majoritar seçki dairəsinin sərhədləri daxilində olmalıdır.

Seçici, seçki günündən ən azı 11 gün əvvəl (23 sentyabr) saat 18:00-a qədər yerli seçki komissiyasına yazılı və ya telefonla şifahi müraciət formasında müraciət etməlidir.

Yazılı ərizənin qeydiyyata alınması üçün ərizədə seçicinin adı, soyadı, şəxsi nömrəsi və seçicinin seçmək istədiyi uyğunlaşdırılmış məntəqənin nömrəsi qeyd olunmalıdır. Lazım olduqda, yerli seçki komissiyasının katibi müraciət edən şəxsin məlumatlarını dəqiqləşdirəcək.

Telefonla verilən şifahi müraciətin qeydiyyata alınması üçün yerli seçki komissiyasının katibi qeydiyyat jurnalında seçicinin adı, soyadı, şəxsi nömrəsi, telefon zənginin dəqiq vaxtı, telefon nömrəsi və seçicinin iştirak etmək istədiyi uyğunlaşdırılmış məntəqənin nömrəsini qeyd etməlidir.

Məntəqə seçki komissiyasının katibi seçicinin yazılı/telefonla verilmiş şifahi müraciətini qeydiyyat jurnalına yazır və qəbulunu imza ilə təsdiq edir.

Məntəqə seçki komissiyasının katibi seçki məntəqəsinin xüsusi siyahısına daxil olmaq üçün müraciət edən seçicilər haqqında məlumatı ictimailəşdirmək üçün dərhal komissiyanın binasına yapışdırır. Həmçinin, komissiya daxil olan müraciətləri (əlavə sənədlərlə – belə birinin olduğu halda) dərhal dairə seçki komissiyasına göndərir.

Dairə seçki komissiyası seçicinin uyğunlaşdırılmış seçki məntəqəsinin xüsusi siyahısına daxil edilməsi ilə bağlı qərarını məntəqə seçki komissiyasına səsvermə günündən əvvəl ən gec 10-cu gün (24 sentyabr) bildirməlidir. Komissiyanın binasında dərc edilmiş seçicilərin dəqiqləşdirilmiş vahid siyahısının son variantında müvafiq seçicinin məlumatları ilə bağlı "faktiki vəziyyət" sütununda "əlil arabasından istifadə edən" qeydi yer alacaq. Komissiyanın katibi və komissiyanın sədri bu qeydi sənədin sonunda imzalayaraq təsdiq edirlər.

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Məntəqə seçki komissiyası seçicilərin vahid siyahısında məlumatların yoxlanması xidmətinin həyata keçirilməsini necə təmin edir?
2. Məntəqə seçki komissiyası seçicini səyyar seçki qutusu siyahısına necə daxil edir? Hansı prosedura əməl edilir?
3. Səyyar seçki qutusu ilə səsvermə tələbi ilə təqdim olunan yazılı ərizə hansı məlumatları əhatə etməlidir və komissiyanın katibi seçicinin telefonla şifahi müraciətini aldıqda hansı məlumatları qeyd etməlidir?
4. Əgər səyyar seçki qutusu ilə səsvermə barədə seçicilərin müraciətləri seçici siyahısında olan seçicilərin 3 faizini keçərsə, bu halda məntəqə seçki komissiyası nə etməlidir?
5. Məntəqə seçki komissiyası əlil arabasından istifadə edən seçicinin səsverməyə qatılma xidmətinin həyata keçirilməsini necə təmin edir?

# 02
# Məntəqə seçki komissiyası səsvermə gününə necə hazırlaşır

## Məntəqə seçki komissiyasının üzvləri arasında funksiyaların bölgüsü

Məntəqə seçki komissiyasının sədri, seçicilərin səsvermə prosesində iştirakını təmin etmək və həmçinin səyyar seçki qutusu ilə səsvermə xidmətini həyata keçirmək məqsədilə, səsvermə günündən ən geci 7 gün əvvəl (27 sentyabr), komissiya üzvləri arasında aşağıdakı funksiyaları bölüşdürür:

- Səyyar seçki qutusunu daşıyan şəxs;
- Seçicilərin qeydiyyatçısı;
- Seçici axınının tənzimləyicisi.

Komissiyanın rəhbər şəxsləri (komissiya sədri, sədr müavini, komissiyanın katibi) komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi prosesində iştirak etmirlər.

Səyyar seçki qutusu ilə səsvermənin həyata keçirilməsi məqsədilə, məntəqə seçki komissiyasının sədri komissiya üzvləri arasında funksiyaları mərhələli şəkildə bölüşdürür. İlk növbədə, partiyalar tərəfindən təyin olunmuş üzvlər arasından səyyar seçki qutusunu daşıyacaq komissiya üzvləri müəyyənləşdirilir. Növbəti mərhələdə, dairə seçki komissiyası tərəfindən seçilmiş üzvlər arasından seçicilərin qeydiyyatçısı funksiyasını yerinə yetirəcək komissiya üzvləri müəyyən olunur (qeydiyyatçıların sayı komissiyaya təqdim olunmuş seçicilərin verifikasiya aparatlarının sayına uyğun olmalıdır). Sonuncu mərhələdə isə, funksiyası müəyyən edilməmiş üzvlər arasından seçicilərin axınının tənzimləyicisi funksiyasını yerinə yetirəcək üzv seçilir.

Səyyar seçki qutusunu daşıyacaq komissiya üzvlərinin müəyyən olunması prosesi:

- Seçki məntəqəsində bir səyyar seçki qutusundan istifadə olunacağı halda, komissiya sədri püşkatma yolu ilə iki komissiya üzvünü müəyyənləşdirir.
- Seçki məntəqəsində birdən çox səyyar seçki qutusundan istifadə olunacağı halda, komissiya sədri əvvəlcə №1 səyyar seçki qutusunu daşıyacaq 2 komissiya üzvünü, daha sonra isə №2 və №3 (əgər varsa) səyyar seçki qutularını daşıyacaq hər biri üzrə bir komissiya üzvünü püşkatma ilə müəyyənləşdirir. Bu üzvlər xüsusi qrupun digər 2-2 üzvü ilə birlikdə seçicilərə xidmət göstərəcəklər.

Seçki məntəqəsində qeydiyyata alınmış seçicilərin sayı 800-dən çox olduqda və həmin məntəqənin sərhədləri bələdiyyənin nümayəndə orqanı – (Sakrebulo) bələdiyyə şurası və muxtar şəhərin/muxtar icmanın başçısı (meri) üçün 2021-ci il 2 oktyabr seçkiləri üçün yaradılmış iki və ya daha çox seçki məntəqəsinin sərhədlərini əhatə edirsə, bu halda bir neçə səyyar seçki qutusundan istifadə olunması mümkündür.

Seçicilərin qeydiyyatçısı funksiyasını yerinə yetirəcək komissiya üzvlərinin müəyyən olunması prosesi:

- Əgər dairə seçki komissiyası tərəfindən təyin olunan məntəqə seçki komissiyası üzvlərinin sayı qeydiyyatçı kimi təyin olunmalı komissiya üzvlərinin sayından çoxdursa, o zaman qeydiyyatçılar komissiya sədri tərəfindən püşkatma yolu ilə müəyyən edilir.

- Əgər dairə seçki komissiyası tərəfindən təyin olunan məntəqə seçki komissiyası üzvlərinin sayı qeydiyyatçı kimi müəyyən olunmalı komissiya üzvlərinin sayına bərabər və ya ondan azdırsa, komissiya sədri qeydiyyatçı funksiyasını püşkatma olmadan avtomatik olaraq dairə seçki komissiyası tərəfindən təyin olunmuş məntəqə seçki komissiyası üzvlərinə verir.

Axının tənzimləyicisi funksiyasını yerinə yetirəcək komissiya üzvünün müəyyən olunması prosesi:

- Əgər funksiyasız qalan bir neçə komissiya üzvü varsa, komissiya sədri onların arasında axının tənzimləyicisi funksiyasını püşkatma yolu ilə müəyyən edir.
- Əgər funksiyasız qalan yalnız bir komissiya üzvü varsa, komissiya sədri həmin komissiya üzvünə bu funksiyanı püşkatma olmadan avtomatik olaraq verir.

> Komissiyanın üzvü, əgər o, səyyar seçki qutusu daşıyıcısı funksiyasını yerinə yetirməkdən imtina edərsə, seçici axınının tənzimləyicisi funksiyasının təyini üçün keçirilən püşkatmada iştirak etmək hüququnu itirir.

Komissiya üzvləri arasında müvafiq funksiyaların püşkatma yolu ilə bölüşdürülməsi proseduru:

- Komissiya sədri püşkatmada iştirak edən komissiya üzvlərinin sayını nəzərə alaraq, eyni ölçülü vərəqlər hazırlayır. Hər vərəqdə, eyni yazı aləti ilə, püşkatmada iştirak edən hər bir komissiya üzvünün adı və soyadı yazılır.
- Komissiya sədri bütün püşkatma vərəqlərini öz imzası ilə təsdiq edir, yazını oxumaq mümkün olmayacaq şəkildə qatlayır və masanın üzərinə qoyur;
- Komissiya sədri püşkatma vərəqlərini bir-bir götürərək müvafiq funksiyanı yerinə yetirəcək komissiya üzvünü/üzvlərini müəyyən edir.

> Püşkatma məntəqə seçki komissiyasının üzvlərinin iştirakı ilə keçirilir, lakin onların iştirak etməməsi püşkatmanın keçirilməsi və püşkatmada iştirak üçün maneə yaradan hal sayılmır.

Püşkatma başa çatdıqdan sonra məntəqə seçki komissiyasının katibi funksiyaların bölüşdürülməsi nəticələrini əks etdirən akt tərtib edir. Akta məntəqə seçki komissiyasının sədri və katibi imza atırlar. Aktda əks olunan məlumatları komissiyanın katibi səsvermə günü qeydlər kitabına daxil edir.

## Səsvermə binasının təşkili

Məntəqə seçki komissiyası, səsvermə günü seçicilərə səsvermə xidmətini göstərmək məqsədilə, dairə seçki komissiyasından alınmış seçki sənədləri, inventar və müvafiq sayda elektron avadanlıq əsasında səsvermə binasını təşkil edir. Bu hazırlıq səsvermə günündən gec olmayaraq bir gün əvvəl (3 oktyabr tarixində) həyata keçirilir.

Səsvermə binasında:

- ☐ Gizli səsvermə kabinələri elə təşkil edilməlidir ki, seçki bülletenini doldurarkən seçicinin gizliliyi təmin edilsin. Kabinənin açıq tərəfi/girişi bina divarına doğru yönəldilməlidir. Kabinədə seçki bülleteni doldurmaq üçün xüsusi marker yerləşdirilməlidir.
  Əlil arabasından istifadə edən seçicilər üçün uyğunlaşdırılmış məntəqədə gizli səsvermə üçün uyğunlaşdırılmış kabinə də qurulur.






- ☐ Seçici qeydiyyatçıları üçün ayrılmış masalarda seçicilərin verifikasiyası üçün cihazlar yerləşdirilməli və cihazların bir-biri ilə internet bağlantısı olmadan əlaqələndirilməsi (sinxronizasiya) üçün daxili şəbəkə qurulmalıdır.
- ☐ Seçici qeydiyyatçıları üçün ayrılmış masalarda həmçinin, verifikasiya cihazlarından çıxarılmış seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş qeyri-şəffaf qutular da olmalıdır.
- ☐ Əsas seçki qutuları (onlara səsvermə sayımı üçün xüsusi elektron cihazların quraşdırılması/möhürlənməmiş) əyani bir yerdə yerləşdirilməlidir ki, seçici onlara maneəsiz şəkildə yaxınlaşa bilsin.
  Əsas seçki qutularına yaxın yerdə, seçici səsvermə prosesini tamamladıqdan sonra xüsusi çərçivə-zərfi qoyacağı yer ayrılmalıdır.

Seçki məntəqəsində seçicilərin verifikasiyası və səslərin hesablanması aparatlarının texniki quraşdırılması (aparatlar işə salınmadan) yuxarı seçki komissiyasının nümayəndəsi - elektron cihazlar üzrə texniki mütəxəssis tərəfindən təmin edilir. Bu prosesə nəzarəti məntəqə seçki komissiyasının sədri həyata keçirir (elektron cihazların quraşdırılması haqqında məlumat üçün bu təlimata 1 nömrəli əlavəyə baxın).

*Səsvermə binasının təşkili nümunəsi*

*Səsvermə binasının təşkili üzrə nümunə - texnoloji*




Səsvermə binasında görünən yerdə asılmalıdır:

- ☐ Seçicilərin vahid siyahısının ictimai informasiya üçün nəzərdə tutulmuş variantı;
- ☐ Seçicilərin xüsusi siyahısının ictimai informasiya üçün nəzərdə tutulmuş variantı (əgər varsa);
- ☐ Səyyar seçki qutusunun siyahısının ictimai informasiya üçün nəzərdə tutulmuş variantı (əgər varsa);
- ☐ Seçkilərdə iştirak edən partiyalar tərəfindən təqdim edilmiş partiya siyahıları;
- ☐ Seçkilərdə iştirak edən merliyə namizədlərin siyahısı;
- ☐ Yerli majoritar seçki dairəsində seçiləcək namizədlərin siyahısı;

- ☐ Seçki bülletenina daxil edilmiş və artıq seçkilərdə iştirak etməyən seçki subyektinə dair elan (əgər belə biri varsa, elan həm səsvermə binasında, həm də gizli səsvermə kabinələrində asılacaq);
- ☐ Mərkəzi Seçki Komissiyasının müəyyən etdiyi seçki bülleteninin doldurulma qaydası;
- ☐ “Gürcüstan Seçki Məcəlləsi” Orqan Qanunundan çıxarış, bunun əsasında seçki bülleteninin etibarsız olma səbəbləri müəyyən edilir;
- ☐ Məntəqə seçki komissiyasının səsvermə nəticələrinin nümunəvi protokolları (Proporsional sistem əsasında keçirilən Sakrebulo seçkilərinin səsvermə nəticələri üzrə nümunəvi protokol; Mer seçkilərinin səsvermə nəticələri üzrə nümunəvi protokol; Majoritar seçki sisteminin əsasında keçirilən Sakrebulo seçkilərinin səsvermə nəticələri üzrə nümunəvi protokol).

Məntəqə seçki komissiyasına, səsvermə günü müvafiq funksiyaların həyata keçirilməsi üçün dairə seçki komissiyasından veriləcək:

- ☐ Seçki bülleteni (50-50 ədəd);
- ☐ Xüsusi çərçivə-zərflər (əgər xüsusi seçicilər siyahısına daxil edilmiş seçici bütün növ seçkilərdə iştirak edə bilmirsə, bu halda, məntəqə seçki komissiyasına əlavə olaraq fərqli növdə xüsusi çərçivə-zərflər təqdim olunur);
- ☐ Metal klipslər (səyyar seçki qutusu ilə səsvermə prosesində istifadə olunur. Seçici seçki bülletenini xüsusi çərçivə-zərfin içinə yerləşdirdikdən sonra metal klips ilə bərkidilir. Bu formada zərf səyyar seçki qutusuna yerləşdirilir);
- ☐ Seçki bülletenini doldurmaq üçün xüsusi markerlər;
- ☐ Markalama mayeləri;
- ☐ Markalamanı yoxlamaq üçün xüsusi alət (ultrabənövşəyi fənər);
- ☐ Görmə problemi olan seçicilər üçün böyüdücü linza;
- ☐ Görmə qabiliyyəti olmayan seçicilər üçün xüsusi çərçivə-forma;
- ☐ Seçki bülleteninin yerləşdirilməsi üçün yarığın qapağı (qapaq səslərin sayılması üçün xüsusi elektron qurğuya bərkidilir).
- ☐ Seçicinin verifikasiyasını təsdiqləyən aktlar (əgər verifikasiya cihazından seçicinin təsdiqini göstərən qəbz çıxmazsa və ya texniki nöqsanla çıxarsa istifadə edilir);
- ☐ Əsas/səyyar seçki qutularının möhürləri;
- ☐ Seçicinin verifikasiyasını təsdiqləyən qəbzləri saxlamaq üçün nəzərdə tutulmuş şəffaf olmayan qutuların möhürləri.
- ☐ Səyyar seçki qutusunun yarığının möhürü;
- ☐ Aparatlarda yaddaş kartının yerləşdirilməsi üçün xüsusi bölmənin möhürləri;
- ☐ Seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş şəffaf olmayan qutuların yarığının möhürləri;
- ☐ Əsas seçki qutularının yarığının möhürləri (səslərin sayılması üçün xüsusi elektron aparat olmadan səsvermə prosesinin davam etdirilməsi halında istifadə olunur);
- ☐ Səsvermə gününün qeydlər kitabı;
- ☐ Məntəqə seçki komissiyasının xüsusi möhürlü paketi və mürəkkəb yastığı (Möhür istifadə olunur: səsvermə prosesi başa çatdıqdan sonra, səslərin sayılması üçün elektron aparatdan çıxarılan səsvermənin ilkin nəticələrinə dair çap edilmiş qəbzin təsdiqi üçün; səsvermə günü seçki məntəqəsinin bağlanmasından sonra səslərin sayılması prosedurunun aparılması üçün zəruri olan püşkatma vərəqlərinin təsdiqi üçün; məntəqə seçki komissiyasının səsvermənin nəticələrinə dair yekun protokollarının/düzəliş protokolunun və veriləcək surətlərin təsdiqi üçün; səsvermə gününün qeyd kitabçası və qeydiyyat jurnalının bağlanmasının təsdiqi üçün);

- ☐ Səyyar seçki qutularının komissiya üçün nəzərdə tutulmuş variant siyahısı (əgər varsa);
- ☐ Seçicilərin vahid siyahısı, seçicilərin xüsusi siyahısının (əgər varsa) komissiya üçün nəzərdə tutulmuş variantlarının möhürlü paketləri (verifikasiya cihazları olmadan səsvermə prosesinin aparıldığı halda istifadə olunur);
- ☐ Elektron vasitələrlə keçirilən səsvermənin auditinin təsdiq forması (səsvermə prosesində məntəqə seçki komissiyasının sədri tərəfindən hazırlanır);
- ☐ Seçicilərin xüsusi siyahısına daxil edilmiş seçicilərin sayının qeydiyyat forması (qeydiyyatçılar bu formaya bütün növ seçkilərdə iştirak edə bilməyən seçicilərin sayını qeyd edirlər);
- ☐ Məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolları (Proporsional sistemi əsasında keçirilən Sakrebulo seçkilərinin səsvermə nəticələri üzrə yekun protokol; Majoritar seçki sistemi əsasında keçirilən Sakrebulo seçkilərinin səsvermə nəticələri üzrə yekun protokol; Mer seçkilərinin səsvermə nəticələri üzrə yekun protokol);
- ☐ Səsvermə bitdikdən sonra, seçki sənədlərinin/inventarının bükülməsi üçün zərflər/polietilen torbalar;
- ☐ Surətçıxardan maşın (səsvermə nəticələrinin yekun protokolunun/düzəliş edilmiş protokolun və digər zəruri sənədlərin surətlərinin çəkilməsi üçün);
- ☐ Planşet (səsvermə günü Mərkəzi Seçki Komissiyası üçün müvafiq məlumatların elektron formada göndərilməsi üçün, o cümlədən səsvermə nəticələrinin ilkin məlumatları və yekun protokolunun fotoşəkilinin göndərilməsi üçün istifadə olunur).

Dairə seçki komissiyasından elektron aparatların, seçki sənədlərinin və inventarın alınması üçün cavabdeh şəxs məntəqə seçki komissiyasının sədridir. Təhvil-təslim prosesi aktla (iki nüsxədə) tərtib olunur və məntəqə seçki komissiyasının katibi qeydiyyat jurnalında aparır.

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Səsvermə günü məntəqə seçki komissiyasının üzvləri arasında funksiyalar hansı ardıcıllıqla və hansı qaydada bölüşdürülür?
2. Məntəqə seçki komissiyasının sədri seçicilərin qeydiyyatçısı funksiyasını hansı prosedura əsasən bölüşdürür, əgər dairə seçki komissiyası tərəfindən seçilmiş məntəqə seçki komissiyası üzvlərinin sayı:
   - ✔ seçicilərin qeydiyyatçısı kimi təyin olunmalı üzvlərin sayını aşırsa?
   - ✔ seçicilərin qeydiyyatçısı kimi təyin olunmalı üzvlərin sayını aşmırsa?
3. Məntəqə seçki komissiyasının sədri səyyar seçki qutusunu daşıyacaq komissiya üzvlərinin müəyyən olunması üçün püşkatmanı nə vaxt keçirir?
4. Seçki məntəqəsində bir neçə səyyar seçki qutusundan istifadə olunduğu halda, səyyar seçki qutularını aparacaq komissiya üzvlərini müəyyən etmək üçün məntəqə seçki komissiyasının sədri püşkatmanı hansı prosedura əsasən keçirir?
5. Səsvermə binası nə vaxt və necə təşkil edilir?
6. Seçki günü müvafiq funksiyaların yerinə yetirilməsi üçün dairə seçki komissiyası məntəqə seçki komissiyasına hansı seçki sənədlərini və inventarını təhvil verir?
7. Səsvermə binasında seçicilərin verifikasiyası və səslərin sayılması üçün xüsusi elektron aparatların texniki quraşdırılmasına (aparatlar aktivləşdirilmədən) kim cavabdehdir?

# II fəsil.

## Məntəqə seçki komissiyasinin səsvermə günü fəaliyyəti

# 03
## Səsvermə günü məntəqə seçki komissiyası səsvermə prosesinə necə hazırlaşır

Seçki məntəqəsi açılana qədər, təhvil-təslim aktı əsasında, seçki komissiyasının sədri mühafizə polisindən səsvermə otağında saxlanılan elektron cihazları, seçki sənədlərini və inventarı təhvil götürür. Seçki məntəqəsi açıldıqdan sonra, səsvermə prosesi başlamazdan əvvəl, seçki komissiyası müvafiq prosedurları ardıcıl şəkildə həyata keçirir:



06:45 saat
Seçki məntəqəsinin açılması
Qeydlər kitabçasının açılması

Səsvermə binasında olmaq hüququna malik şəxslərin qeydiyyatı

Qeydlər kitabında komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi nəticələrinin əks etdirilməsi



Kəmiyyət məlumatların elan edilməsi: seçki bülletenlərinin və xüsusi çərçivə-zərflərin sayı, siyahılarda seçicilərin sayı

Seçicilərin verifikasiya cihazlarında verifikasiya prosesinin başlanması

Seçki qutularının möhürlənməsi və səs sayan xüsusi cihazların quraşdırılması



Səs sayan xüsusi cihazlarda səsvermə prosesinin başlanması

Komissiya üzvlərinə funksiyalarına uyğun seçki sənədləri və inventarın təhvil verilməsi

08:00 saat Səsvermənin başlanması

## Seçki məntəqəsinin açılışı

Seçki məntəqəsi 06:45-də açılır. Seçki komissiyasının üzvləri seçki məntəqəsinə vaxtında gəlməlidirlər. Komissiya, ən azı 9 üzvün gəldiyi təqdirdə də, səsvermə üçün hazırlıq prosedurlarına başlamalıdır.

> Məntəqə seçki komissiyasının üzvlərinin sayı 9-dan az olduğu halda, məlumat dərhal dairə seçki komissiyasına verilir. Məntəqə seçki komissiyası yuxarı seçki komissiyasının qərarına uyğun olaraq fəaliyyət göstərir.

Seçki komissiyasının katibi qeydlər kitabçasını açır və ilk səhifəyə seçki məntəqəsinin açılışında seçki məntəqəsində olan bütün komissiya üzvlərinin ad və soyadlarını (onları seçən/təyin edən subyektləri göstərməklə) qeyd edir. Komissiya üzvləri qeydlər kitabçasında qeydiyyatı imzaları ilə təsdiq edirlər.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

**№ 112 საარჩევნო ოლქი** **№112.07** **საარჩევნო უბანი**

**საარჩევნო უბნის გახსნისას კენჭისყრის შენობაში ყოფნის უფლების მქონე პირები**

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის დასახელება | ხელმოწერა |
|---|---|---|---|---|
| 1 | ნინო ნინოშვილი | თავმჯდომარე | საოლქო საარჩევნო კომისია | ნ. ნინოშვილი |
| 2 | გიორგი გიორგაძე | მოადგილე | საოლქო საარჩევნო კომისია | გ. გიორგაძე |
| 3 | დავით დავითულიანი | მდივანი | საოლქო საარჩევნო კომისია | დ. დავითულიანი |
| 4 | ანა ანაშვილი | კომისიის წევრი | საოლქო საარჩევნო კომისია | ა. ანაშვილი |
| 5 | სალომე სოლომონიძე | კომისიის წევრი | პოლიტიკური პარტია 111 | ს. სოლომონიძე |
| 6 | თოინ თოინიშვილი | კომისიის წევრი | პოლიტიკური პარტია 112 | თ. თოინიშვილი |
| 7 | მელა მელაშვილი | კომისიის წევრი | პოლიტიკური პარტია 113 | მ. მელაშვილი |
| 8 | სვენ ფასტერდინგი | საერთ. დამკვირვებელი | საერთაშორისო ორგანიზაცია | s. fasterding |
| 9 | ცოტნე ლევდარიანი | მედია | ტელევიზია „ნათელი მზერა" | ც. ლევდარიანი |
| 10 | გიორგი ჭერიძე | ადგილ. დამკვირვებელი | ააიპ „მომავლის იმედი" | გ. ჭერიძე |
| 11 | ნუცა ყოროცაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 119 | ნ. ყოროცაძე |

Səsvermə günü ərzində komissiyanın bütün üzvləri xüsusi forma ilə təmin olunmalı və kimliyi, statusu bildirən döş nişanı taxmalıdırlar.

## Seçki məntəqəsində olmaq hüququna malik şəxslərin seçki məntəqəsinə buraxılması və onların hüquqi vəziyyəti

Seçki məntəqəsi açıldıqdan dərhal sonra, seçki komissiyasının üzvlərindən əlavə, seçki məntəqəsində aşağıdakı şəxslər yerləşə bilərlər:

- MSK və müvafiq ərazi seçki komissiyasının üzvləri/təmsilçiləri;
- Qeydiyyatdan keçmiş yerli müşahidəçi təşkilatların müşahidəçiləri (bir təşkilatın seçki məntəqəsində eyni anda bir nəfərdən artıq müşahidəçisi ola bilməz);
- Qeydiyyatdan keçmiş beynəlxalq təşkilatların müşahidəçiləri (bir təşkilatın seçki məntəqəsində eyni anda yalnız iki beynəlxalq müşahidəçisinin olmasına icazə verilir, həmçinin tərcüməçi də müşayiət edə bilər);
- Akkreditə olunmuş kütləvi informasiya vasitələrinin təmsilçiləri (hər bir təşkilata seçki məntəqəsində eyni anda yalnız iki təmsilçisinin olmasına icazə verilir);
- Seçki subyektlərinin təmsilçiləri (hər bir seçki subyektinə seçki məntəqəsində eyni anda yalnız bir təmsilçisinin olmasına icazə verilir).

Müşahidəçiyə, seçki subyektinin nümayəndəsinə və eləcə də media nümayəndəsinə seçki günü istənilən vaxt onu təqdim edən təşkilatın digər qeydiyyatdan keçmiş nümayəndəsi ilə əvəz olunmaq hüququ verilir.

Seçki binasında yerləşmə hüququ olan şəxslər seçki günü binada kimliyi və statusu bildirən döş nişanı ilə olmalıdırlar. Bu nişan yalnız şəxsiyyəti təsdiq edən sənədlə birlikdə etibarlıdır.

Müşahidəçi təşkilatların müşahidəçiləri və akkreditə olunmuş media nümayəndələri seçki binasına aşağıdakı hallarda buraxılırlar:

- Əgər nişandakı statusda “bütün səviyyəli seçki komissiyalarına giriş icazəsi” qeyd olunubsa;
- Əgər nişandakı statusda “müvafiq dairə seçki komissiyasına və dairə ərazisindəki bütün seçki məntəqələrinə giriş icazəsi” qeyd olunubsa.

Seçki subyektlərinin nümayəndələri isə yalnız onların nişanında “müvafiq məntəqə seçki komissiyasına giriş icazəsi” qeyd olunubsa, seçki binasına buraxılırlar.

Komissiyanın katibi nişanın qüvvədə olma müddətini və üzərində göstərilən statusu yoxlayır. Yoxlamanın nəticələrinə əsasən, katib seçki binasında olmağa icazəli şəxslərin ad və soyadlarını (onları təqdim edən təşkilatın/seçki subyektinin adı ilə birlikdə) qeydlər kitabının birinci səhifəsinə, lazım gəldikdə isə 2-ci və 10-cu səhifələrə daxil edir. Bu şəxslər qeydiyyatı imzaları ilə təsdiqləyirlər.

Səsvermə binasına buraxılış qaydalarına əməl olunmadıqda, komissiyanın katibi həmin şəxsə göstəriş verir ki, səsvermə binasını tərk etsin.

*Döş nişanlarının nümunələri*




Müşahidəçi və seçki subyektinin nümayəndəsi seçki günü Gürcüstanın Seçki Məcəlləsinin 41-ci maddəsi ilə təyin edilmiş səlahiyyətlərdən istifadə edir, o cümlədən, onlar seçki prosesinə mane olmadan aşağıdakı hüquqlara malikdirlər:

- Seçki günü istənilən vaxt seçki binasında olmaq, seçki məntəqəsinin ərazisində sərbəst hərəkət etmək və seçki prosesinin bütün mərhələlərini istənilən yerdən müşahidə etmək;
- Seçicidən əlində neçə seçki bülleteni və xüsusi çərçivəli zərf olduğunu göstərməyi tələb etmək;
- Səyyar seçki qutusu vasitəsilə səsvermə prosesini müşahidə etmək;

- Səsvermədən sonra səslərin sayılmasını elə şəraitdə müşahidə etmək ki, seçki bülletenlərini aydın görə bilsinlər;
- Məntəqə seçki komissiyası tərəfindən seçkilərin nəticələrinə dair yekun protokolun tərtib olunmasını müşahidə etmək.

Məntəqə seçki komissiyası, seçki binasında yerləşməyə hüququ olan şəxslərin öz səlahiyyətlərini maneəsiz həyata keçirmələri üçün müvafiq şərait yaratmalıdır.

Müşahidəçi, seçki subyektinin nümayəndəsi, eləcə də mətbuat və digər kütləvi informasiya vasitələrinin nümayəndəsi "Gürcüstan Seçki Məcəlləsi" Gürcüstanın Orqan Qanununda təyin edilmiş tələblərə əməl etməlidirlər. Onların hüquqları yoxdur:

- Məntəqə seçki komissiyasının fəaliyyətinə müdaxilə etmək;
- Seçicilərin iradəsinin sərbəst ifadəsinə təsir göstərmək;
- Hər hansı bir seçki subyektinin simvolikasını və nişanını daşımaq, seçiciyə hər hansı seçki subyektinin xeyrinə və ya əleyhinə təşviqat aparmaq;
- Seçki otağında seçicinin hərəkətinə fiziki maneə yaratmaq;
- Seçicidən şəxsiyyət vəsiqəsini göstərməyi tələb etmək və ya həmin sənədi ondan almaq;
- Seçicinin şəxsiyyət vəsiqəsində, seçicilərin verifikasiya aparatında göstərilən məlumatların, həmin aparatdan çap olunan verifikasiya qəbzinin və seçicinin bülleteni üzərində etdiyi seçimin foto/video çəkilişini etmək və ya başqa formada üzərində işləmək.

## Məntəqə seçki komissiyasının üzvləri arasında bölüşdürülmüş funksiyalarla bağlı məlumatların qeyd kitabında əks etdirilməsi

Seçicilərin səsvermə prosesində iştirakını təmin etmək məqsədilə, məntəqə seçki komissiyasının üzvləri səsvermə günü aşağıdakı funksiyaları yerinə yetirirlər:

- Seçicilərin axınının tənzimləyicisi;
- Seçicilərin qeydiyyatçısı;
- Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi;
- Səyyar seçki qutusunun daşıyıcısı.

Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi funksiyasını məntəqə seçki komissiyasının sədr müavini yerinə yetirir (bu funksiyanın yerinə yetirilməsi komissiyanın digər üzvünə də tapşırıla bilər).

Komissiyanın katibi səsvermə gününə qədər funksiyaların bölüşdürülməsi üçün keçirilmiş püşkatma nəticələrini əks etdirən aktdakı komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi nəticələrini qeyd kitabçasının 3-cü səhifəsinə daxil edir.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

კენჭისყრის დაწყებამდე საუბნო საარჩევნო კომისიისა და სპეცჯგუფის წევრთა შორის წილისყრით ფუნქციათა განაწილების შედეგები

| № | კომისიის/სპეცჯგუფის წევრის ფუნქცია | კომისიის/სპეცჯგუფის წევრის სახელი, გვარი | კომისიის/სპეცჯგუფის წევრის ხელმოწერა |
|---|---|---|---|
| 1. | I გადასატანი საარჩევნო ყუთის წამღები | დოდო დოლიძე | დ. დოლიძე |
| 2. | I გადასატანი საარჩევნო ყუთის წამღები | თამარ თათულაშვილი | თ. თათულაშვილი |
| 3. | II გადასატანი საარჩევნო ყუთის წამღები | ცაცო ცაცურაშვილი | ც. ცაცურაშვილი |
| 4. | II გადასატანი საარჩევნო ყუთის წამღები *(სპეცჯგუფი)* | ჯილდა ქაჭაიძე | ჯ. ქაჭაიძე |
| 5. | II გადასატანი საარჩევნო ყუთის წამღები *(სპეცჯგუფი)* | ვიოლა აჭაშიძე | ვ. აჭაშიძე |
| 6. | ამომრჩეველთა ნაკადის მომწესრიგებელი | ნიკოლოზ აჭაშიძე | ნ. აჭაშიძე |
| 7. | I რეგისტრატორი | ინა ინაშვილი | ი. ინაშვილი |
| 8. | II რეგისტრატორი | ლალი ლალიაშვილი | ლ. ლალიაშვილი |
| 9. | III რეგისტრატორი | დავით დავითაძე | დ. დავითაძე |
| 10. | IV რეგისტრატორი | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |

Komissiya üzvünə verilmiş funksiyanın digər üzvə müvəqqəti verilməsi yalnız məntəqə seçki komissiyasının sədrinin icazəsi ilə mümkündür. Katib funksiyanın verilməsini, vaxtını qeyd etməklə, qeyd kitabçasının 5-ci səhifəsində göstərir. Komissiya üzvü funksiyanın verilməsini imzası ilə təsdiq edir.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

საუბნო საარჩევნო კომისიის წევრთა შორის წილისყრით დადგენილ ფუნქციათა დროებით სხვა წევრზე გადაცემის შესახებ ინფორმაცია

| № | კომისიის წევრის სახელი, გვარი | კომისიის წევრის ფუნქცია | ფუნქციის დროებითი შემსრულებელი კომისიის წევრის სახელი, გვარი | ფუნქციის დროებით გადაცემის დრო (სთ. წთ.) | ფუნქციის დაბრუნე-ბის დრო (სთ. წთ.) | ხელმოწერა |
|---|---|---|---|---|---|---|
| 1 | ლალი ლალიაშვილი | რეგისტრატორი | ნანა ნანეიშვილი | 19:45 | 20:00 | ლ. ლალიაშვილი |

## Risklərin prevensiyası:

- ✔ Səsvermə günü seçicilərin qeydiyyatçısı olan komissiya üzvü gəlmədikdə, məntəqə seçki komissiyasının sədri bu funksiyanın icrasını digər komissiya üzvünə həvalə edir. Zərurət yarandıqda, sədr bu funksiyanı axının tənzimləyicisi funksiyası verilmiş komissiya üzvünə də həvalə edə bilər. Bu halda, məntəqə seçki komissiyasının sədri seçicilərin axınının tənzimləyicisi funksiyasını özü icra edir. Əgər qeydiyyatçı funksiyasını digər komissiya üzvünə həvalə etmək mümkün olmazsa, sədr qeydiyyatçıların sayını azaldır.
- ✔ Səsvermə günü səyyar seçki qutusunu daşıyan komissiya üzvü gəlmədikdə və ya ona həvalə olunmuş funksiyanı icra etməkdən imtina etdikdə, bu halda məntəqə seçki komissiyasının sədri səyyar seçki qutusunun daşıyıcısı funksiyasını digər komissiya üzvünə həvalə edir.
- ✔ Səsvermə günü seçicilərin axınının tənzimləyicisi olan komissiya üzvü gəlmədikdə, bu halda məntəqə seçki komissiyasının sədri bu funksiyanın icrasını digər komissiya üzvünə həvalə edir. Bu mümkün olmadıqda isə, sədr seçicilərin axınının tənzimləyicisi funksiyasını özü icra edir.

Seçki məntəqəsinə gecikmə ilə gələn komissiya üzvünə funksiyanın verilməsi məsələsini məntəqə seçki komissiyasının sədri müəyyən edir.

## Kəmiyyət məlumatlarının elan edilməsi

Məntəqə seçki komissiyasının üzvləri arasında funksiyaların bölgüsünün nəticələri qeydlər kitabçasına daxil edildikdən sonra, komissiyanın sədri komissiyanın xüsusi möhürü ilə möhürlənmiş paketi yoxlayır və açır. Komissiyanın katibi xüsusi möhürün nömrəsini qeydlər kitabçasının 9-cu səhifəsində göstərir. Komissiyanın sədri qəbul olunmuş seçki bülletenlərinin və xüsusi çərçivə-zərflərin sayını, həmçinin vahid siyahı üzrə seçicilərin sayını, xüsusi siyahı və səyyar seçki qutusu (əgər varsa) siyahısı üzrə seçicilərin sayını elan edir.

Komissiyanın katibi, xüsusi çərçivə-zərflərin sayı istisna olmaqla, bu məlumatları səsvermə nəticələrinin nümunəvi protokollarına və qeydlər kitabçasına daxil edir.

> Xüsusi siyahıda olan seçicilərin sayı səsvermə nəticələrinin nümunəvi protokollarına və qeydlər kitabçasına səsvermə başa çatdıqdan sonra daxil edilir.

## Seçicilərin verifikasiya aparatında verifikasiya prosesinin başlanması

Komissiya üzvləri və səsvermə binasında olmağa hüququ olan şəxslərin iştirakilə, məntəqə seçki komissiyasının sədri:

- ✔ Seçicilərin verifikasiya aparatına yüklənmiş proqramı aktivləşdirir;
- ✔ Fərdi koddan/paroldan istifadə edərək aparatlarda verifikasiya prosesini açır;
- ✔ Aktivləşdirilmiş aparatlar arasında əlaqənin (sinxronizasiyanın) olub-olmadığını yoxlayır.

> Aparatlarda verifikasiya prosesinin açılma mərhələlərin illüstrasiyası № 1 sxemdə təqdim olunub.

Aparatlarda verifikasiya prosesi açıldıqdan sonra:

- ✔ Aparatlardan avtomatik rejimdə ilkin hesabat/qəbz çap edilir; bu hesabatda qeyd olunan məlumatlara əsasən, aparatlar vasitəsilə heç bir seçicinin verifikasiyasının (yoxlanılmasının) aparılmadığı təsdiqlənir (komissiyanın sədri və komissiyanın katibi çap edilmiş qəbzi imzalayır, onu komissiyanın katibi saxlayır);
- ✔ Məntəqə seçki komissiyasının sədrinin göstərişi ilə, seçicilərin bir qeydiyyatçısı verifikasiya aparatından seçicilərin siyahısını çap edir (komissiyanın katibi siyahını səsvermə binasında, nümunəvi protokolla birlikdə, görünən yerdə asır).

> Aparatlardan seçicilərin siyahısının çap edilməsi prosesinin illüstrasiyası N2 sxemində təqdim edilmişdir.

Məntəqə seçki komissiyasının sədr müavini, prosesə paralel olaraq, elektron vasitələrlə aparılan səsvermənin auditini təsdiqləyən formada müvafiq qeydlər edir.

*Sxem N1. Aparatlarda verifikasiya prosesinin açılış mərhələlərinin illüstrasiyası*




{I}

Düyməni basmaqla komissiyanın sədri aparatlara yüklənmiş proqramı aktivləşdirir




{II}

Aparatlarda proqramın yüklənməsi başlayır, bu proses bir neçə saniyə davam edir.




{III}

Komissiyanın sədri verifikasiya prosesini açmaq məqsədilə aparatlara fərdi kod/parol daxil edir.
Aparatlar arasında sinxronizasiya ikonaların yaşıl rəngdə olması ilə təsdiqlənir. Rəqəmsal simvollar qoşulmuş avadanlıqların sayını göstərir.




{IV}

"Verifikasiyanın açılması" düyməsini basmaqla komissiyanın sədri aparatlarda verifikasiya prosesini açır. Açılışı təsdiqləmək üçün komissiyanın sədri yenidən fərdi kod/parol daxil edir.




{V}

Verifikasiya prosesi açılan kimi aparatlardan avtomatik rejimdə ilkin hesabat çap olunur.




{VI}

"Yaxşı" düyməsinə basmaqla komissiyanın sədri səsvermə prosesinin açılmasını təsdiqləyir.

*Sxem N2. Aparatdan seçicilərin siyahısının çap prosesinin illüstrasiyası*




{I}

Seçicilərin siyahısının çap edilməsi menyusuna keçmək üçün qeydiyyatçı “Menyuya qayıt” düyməsinə basır.




{II}

Menyuda qeydiyyatçı “Seçicilərin siyahısı” düyməsinə basır.




{III}

Qeydiyyatçı “Çap et” düyməsinə basır və nəticədə seçicilərin siyahısı çap olunur.

## Seçki qutularının möhürlənməsi və xüsusi aparatlarla səsvermə prosesinin açılması

Səsvermə binasında olmağa hüququ olan şəxslərin iştirakilə, məntəqə seçki komissiyasının sədri:

- ✔ Əsas/səyyar seçki qutularını yoxlayır və seçki qutularının boş olduğunu təsdiqlədikdən sonra əsas seçki qutularına səsvermə üçün xüsusi elektron aparatlar quraşdırır;
- ✔ Fərdi nömrəsi olan möhürlərlə əsas/səyyar seçki qutularını möhürləyir (Əsas seçki qutuları elə şəkildə möhürlənir ki, möhürə zərər yetirmədən onların üzərinə quraşdırılmış səslərin sayılması üçün xüsusi cihazların çıxarılması, seçki bülletenlərinin qutuya əl ilə yerləşdirilməsi və/və ya çıxarılması mümkün olmasın);
- ✔ Səslərin sayılması üçün xüsusi elektron aparata seçki bülletenlərinin yerləşdirilməsi üçün nəzərdə tutulmuş yarığın qapağını bərkidir (qapaq səslərin sayılması üçün xüsusi elektron aparata bərkidilir).

*Nümunə*



Seçki bülletenini yerləşdirmək üçün yarığın qapağı



Aparata quraşdırılmış bərkidici.



Aparata bərkidilmiş seçki bülletenini yerləşdirmək üçün yarığın qapağı.

- ✔ Möhürləmə tamamlandıqdan sonra, xüsusi açardan istifadə edərək səsvermə üçün xüsusi aparatlara yüklənmiş proqramı aktivləşdirir;
- ✔ fərdi koddan/paroldan istifadə edərək aparatlarda səsvermə prosesini açır.

  Aparatlarda səsvermə prosesi açıldıqdan sonra, aparatlardan avtomatik olaraq "Sıfır çıxarışı"/qəbz çap olunur və burada qeyd olunan məlumatlara əsasən təsdiqlənir ki, aparatla heç bir seçici səs verməyib (komissiyanın sədri və komissiyanın katibi çap edilmiş qəbzləri imzalayır, komissiyanın katibi onları saxlayır).

*Sxem N3. Səsvermə prosesinin xüsusi aparatlarda açılması və aparatlardan "Sıfır çıxarışları"nın çap edilməsi prosesinin təsviri*




{I}

Komissiya sədri xüsusi açarı cihazın korpusundakı yuvaya daxil etməklə cihazlara yüklənmiş proqramı aktivləşdirir.




{II}

Aparatlarda proqram yüklənməyə başlayır və bu proses bir neçə saniyə davam edir.




{III}

Komissiyanın sədri səsvermə prosesini açmaq məqsədilə aparatların ekranında "Sədr" düyməsini seçir.







{IV}

Komissiyanın sədri aparatlara fərdi kod/parol daxil edir.




{V}

Komissiyanın sədri aparatların ekranında “Səsverməni aç” seçimini edir və açılışı təsdiqləmək üçün yenidən fərdi kod/parol daxil edir.

**კენჭისყრის გახსნა**




{VI}

Səsvermə açılan kimi, aparatlardan avtomatik rejimdə “Sıfır çıxarışı” çap olunur.




{VII}

Səsverməyə başla” düyməsinə basmaqla komissiyanın sədri səsvermə prosesinin açılmasını təsdiqləyir.

**კენჭისყრის დაწყება**

Sıfır çıxarışı” çap olunduqdan sonra, məntəqə seçki komissiyasının sədri səslərin sayılması üçün nəzərdə tutulmuş aparatlara xüsusi ştrix-kodsuz və fərdi QR-kodsuz seçki bülleteninin formatında kağız yerləşdirir – məqsəd ondan ibarətdir ki, yoxlanılsın: səsvermə aparatları müəyyən edilməmiş nümunəli bülletenləri qəbul edirmi, yoxsa yox.

Komissiyanın katibi qeydlər kitabçasının 4-cü səhifəsində seçki qutularının fərdi möhür nömrələrini və möhürlənmənin dəqiq vaxtını qeyd edir. Həmin səhifədə komissiyanın sədri və katibi imzaları ilə təsdiqləyirlər ki, seçki qutuları boş vəziyyətdə möhürlənmişdir və səslərin sayılması üçün nəzərdə tutulmuş aparatlar vasitəsilə heç bir seçici hələ səs verməmişdir. Məntəqə seçki komissiyasının sədr müavini isə, bu prosesə paralel olaraq, auditin təsdiqlənməsi formasında müvafiq qeydlər aparır.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

| საარჩევნო ყუთების დალუქვის მონაცემები | | |
|---|---|---|
| საარჩევნო ყუთების დალუქვის დრო | 07 სთ. 30 წთ. | |
| I ძირითადი საარჩევნო ყუთის ლუქების ნომრები | 1234567 1234569<br>1234568 1234562 | 1234560 |
| II ძირითადი საარჩევნო ყუთის ლუქების ნომრები | 1244567 6234569<br>1434568 4234562 | 1254460 |
| I გადასატანი საარჩევნო ყუთის ლუქების ნომრები | 123456 153456 | |
| II გადასატანი საარჩევნო ყუთის ლუქების ნომრები | 123476 153476 | |
| *დალუქული ყუთები ცარიელია და დალუქვის მომენტისათვის ხმის მიცემის აპარატის საშუალებით არცერთ ამომრჩეველს არ მიუცია ხმა* | | |
| კომისიის თავმჯდომარე ________ ხელმოწერა | კომისიის მდივანი ________ ხელმოწერა | |

## Məntəqə seçki komissiyasının üzvləri üçün seçki sənədlərinin və seçki materialının ötürülməsi

Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinə səsvermə prosesində yerinə yetirəcəkləri funksiyalara uyğun olaraq seçki sənədlərini və materiallarını təqdim edir.

Seçici axınının tənzimləyicisi olan komissiya üzvünə markalanmanın yoxlanılması üçün ultrabənövşəyi işıqlandırıcı fənər verilir. Hər bir seçici qeydiyyatçısı olan komissiya üzvünə aşağıdakılar verilir:

- ☐ 50 ədəd seçki bülletenləri (qeydiyyatçı paketdəki bülletenlərin sayını yoxlayır və komissiya sədrilə birlikdə təhvil-təslim aktında imza ilə təsdiqləyir);
- ☐ Seçki bülleteninin doldurulması üçün xüsusi marker (Seçiciyə seçki bülleteninin doldurulması qaydalarının izahı prosesində nümunə üçün dairəni rəngləmək məqsədilə seçicinin seçki bülletenində apardığı rəngləmə prosesi);
- ☐ Səsvermə üçün nəzərdə tutulmuş üç növ xüsusi çərçivəli zərf:
  - ✔ Seçki bülleteninin hər üç sütununu örtən xüsusi çərçivəli zərf (munisipalitet meri, munisipalitet sakrebulosunun proporsional sistem və majoritar sistem üzrə keçirilən seçkilərdə iştirak edən seçicilər üçün nəzərdə tutulub);
  - ✔ Yalnız iki sütunu örtən xüsusi çərçivəli zərf (yalnız munisipalitet meri, munisipalitet sakrebulosunun proporsional sistem üzrə keçirilən seçkilərdə iştirak edən seçicilər üçün nəzərdə tutulub);
  - ✔ Yalnız bir sütunu örtən xüsusi çərçivəli zərf (yalnız munisipalitet sakrebulosunun proporsional sistem üzrə keçirilən seçkilərdə iştirak edən seçicilər üçün nəzərdə tutulub);
- ☐ Markalama mayesi;
- ☐ Qələm (seçicinin verifikasiya aparatından çap edilmiş təsdiqedici qəbzdə imza atması üçün);
- ☐ Seçicinin verifikasiyasını təsdiqləyən qəbzlərin yerləşdirilməsi üçün şəffaf olmayan qutu (qutu təhvil verilməzdən əvvəl komissiya sədri onu fərdi nömrəli möhürlə möhürləyir, komissiyanın katibi isə qeydlər kitabçasında möhürlərin fərdi nömrələrini və qutuların hansı qeydiyyatçılara (ad, soyad göstərilməklə) verildiyini qeyd edir. Qutunun qəbulunu müvafiq qeydiyyatçı imza ilə təsdiqləyir);
- ☐ Xüsusi seçici siyahısına daxil edilmiş seçicilərin sayının qeydiyyat forması (qeydiyyatçılar bu formaya yalnız bütün seçkilərdə iştirak edə bilməyən seçicilərin sayını daxil edirlər).

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

| ვერიფიკაციის აპარატიდან ამობეჭდილი ამომრჩევლების ვერიფიკაციის დამადასტურებელი ქვითრების მოსათავსებლად განკუთვნილი ყუთის/ყუთების დალუქვის მონაცემები/ყუთის მიღების დადასტურება | | | |
|---|---|---|---|
| კომისიის წევრის ფუნქცია | ლუქების ნომრები | სახელი და გვარი | ხელმოწერა |
| I რეგისტრატორი | 121212 121215 | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |
| II რეგისტრატორი | 121113 121116 | ზვიად ზვიადაძე | ზ. ზვიადაძე |
| III რეგისტრატორი | 111214 111217 | სალომე სოლომონიძე | ს. სოლომონიძე |
| IV რეგისტრატორი | 721215 221215 | თოინ თოინიშვილი | თ. თოინიშვილი |
| V რეგისტრატორი | | | |

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Seçki məntəqəsi saat neçədə açılır?
2. Seçki günü qeydlər kitabçasının aparılmasında kim məsuliyyət daşıyır?
3. Seçki məntəqəsində olma hüququna malik şəxsləri sadalayın və onlar məntəqəyə daxil olmaq üçün hansı tələblərə cavab verməlidirlər?
4. Səsvermə günü səsvermə binasında olma hüququna malik şəxslər hansı hüquqlardan istifadə edirlər və onların hansı hüquqları yoxdur?
5. Seçki qutusu və səsvermənin xüsusi elektron cihazının nəzarətçi funksiyasını kim yerinə yetirir?
6. Seçki qutularının möhürlənməsindən sonra, məntəqə seçki komissiyasının katibi hansı məlumatları qeydlər kitabçasına daxil edir?
7. Qeydiyyatçılara neçə növ xüsusi çərçivəli zərf verilir?
8. Seçicilərin verifikasiyası və səslərin sayılmasının xüsusi elektron cihazlarının aktivləşdirilməsində kim məsuliyyət daşıyır və hansı prosedura əməl etməklə həyata keçirilir:
   - ✔ Seçicilərin verifikasiya prosesinin verifikasiya aparatlarında açılması?
   - ✔ Səslərin sayılmasının xüsusi elektron aparatlarında səsvermə prosesinin açılması?
9. Seçicilərin verifikasiya aparatlarından çap edilən ilkin hesabat hansı məlumatları təsdiqləyir?
10. Səslərin sayılmasının xüsusi elektron cihazlarından çap edilən “sıfır hesabatı” hansı məlumatları təsdiqləyir?

# 04
# Məntəqə seçki komissiyası səsvermə prosesində seçicilərə necə xidmət göstərir

Bütün məntəqə seçki komissiyasının üzvləri məsuliyyət daşıyır ki, seçki günü hər bir seçici üçün keyfiyyətli xidmət göstərilməsini təmin etsin, bu isə nəzərdə tutur:

- Funksiyaların dəqiq icrasını
- Seçici ilə etik ünsiyyəti
- Seçici üçün səsvermə prosedurunun izahını
- Seçicinin səsvermə prosesində maneəsiz iştirakının təmin edilməsini
- Seçicinin səsvermə gizliliyinin qorunmasını

## Səsvermə prosesi

Səsvermə seçki günü (4 oktyabr) saat 08:00-dan 20:00-ə qədər keçirilir. Səsvermə proseduru müəyyən edilmiş ardıcıllığa uyğun olaraq həyata keçirilir.

**I. Seçki otağına daxil olan seçici, axın tənzimləyicisinin yanında markalamanın yoxlama prosedurunu keçir.**

Axını tənzimləyən komissiya üzvü:



- ✔ Seçki otağına daxil olan seçicilərin axınını tənzimləyir;
- ✔ Seçicidən şəxsiyyət vəsiqəsini təqdim etməsini tələb edir (Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu);
- ✔ Ultrabənövşəyi fənərlə seçicinin əlində markalamanın olub olmadığını yoxlayır.

Yoxlama nəticələrinə əsasən:

- ✔ Əgər markalamanı yoxlayan xüsusi vasitəsi seçicinin əlində artıq markalamanın olduğunu aşkar edərsə, ona seçkidə iştirak etməyə icazə verilmir. Axın tənzimləyicisi seçiciyə seçki otağına daxil olmasına icazə verilmədiyini izah edir və seçici haqqında məlumatı qeydlər kitabçasına daxil edilməsi üçün komissiyanın katibinə bildirir.
- ✔ Əgər seçici səsvermədə iştirak üçün müəyyən olunmuş tələblərə cavab verirsə, axının tənzimləyicisi seçiciyə göstəriş verir ki, masasının ətrafında iki nəfərdən artıq seçici olmayan qeydiyyatçı komissiya üzvünə yaxınlaşsın.

**II. Komissiyanın üzvü olan seçici qeydiyyatçısı verifikasiya aparatının istifadəsi ilə seçicinin qeydiyyatını aparır və sonra seçki bülletenin verilmə xidmətini göstərir.**

Qeydiyyatçı seçicinin qeydiyyatını aşağıdakı ardıcıllıqla həyata keçirir:

- ✔ Verifikasiya aparatında seçicinin məlumatlarını axtarır və aparatın yüklədiyi seçicilər siyahısındakı məlumatların düzgünlüyünü təsdiqləyir;

- ✔ Seçicini markalayır;
- ✔ Verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzi çap edir və seçiciyə imzalatdırır;
- ✔ İmzalanmış qəbzi önündəki masada olan möhürlənmiş şəffaf olmayan qutuya yerləşdirir.

**Seçicinin qeydiyyat prosedurunun təsviri.** Qeydiyyatçı seçicidən şəxsiyyəti təsdiq edən sənəd təqdim etməsini xahiş edir. Qeydiyyatçı şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətini yoxlayır. Əgər seçici qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edirsə, sənədin verildiyi tarixi yoxlayır.

> Əgər seçici vaxtı keçmiş şəxsiyyət vəsiqəsini təqdim edərsə və ya qüvvədən düşmüş Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini (2011-ci il 27 iyul tarixinə qədər verilmiş qeyri-elektron vəsiqə qüvvədən düşmüş sayılır) təqdim edərsə, ona səsvermədə iştirak etməyə icazə verilmir. Qeydiyyatçı seçiciyə səsvermədə iştirak etməməsinin səbəbini izah edir və bildirir ki, mövcud şəxsiyyət vəsiqəsini təqdim etdiyi halda, ona səsvermədə iştirak etmək hüququ veriləcək.

Sənədin etibarlılıq müddəti yoxlanıldıqdan sonra, qeydiyyatçı seçicinin təqdim etdiyi sənəddəki fotoşəkillə üzünün uyğunluğunu yoxlayır.

Qeydiyyatçı seçicinin təqdim etdiyi Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsinin (elektron) verifikasiyası üçün onu cihazın oxucusuna yerləşdirir. Əgər seçici Gürcüstan vətəndaşının pasportunu və ya qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edərsə, qeydiyyatçı cihazda seçicinin məlumatlarını əllə axtarır.



*Verifikasiya aparatının oxucusu ilə seçicinin məlumatlarının axtarışı illüstrasiyası*

*Verifikasiya aparatında seçicinin məlumatlarının əllə axtarış illüstrasiyası*



Verifikasiya aparatı şəxsiyyət vəsiqəsində olan qeydiyyat məlumatlarını aparata yüklənmiş seçicilərin siyahısındakı məlumatlarla müqayisə edir və uyğunluq olduqda, həmin seçicinin məlumatlarını ekranda göstərir.




*Qeydiyyat məlumatlarının uyğunluğu təsdiqləndiyi halda, siyahıya daxil edilmiş seçici barədə məlumatların verifikasiya aparatının ekranında əks olunmasının illüstrasiyası.*

Əgər verifikasiya aparatı tərəfindən seçicinin məlumatlarının uyğunluğunun yoxlanılması zamanı müəyyən olunarsa ki, təqdim olunmuş sənəddəki qeydiyyat məlumatları (fotoşəkildən başqa) aparata yüklənmiş seçicilər siyahısındakı məlumatlara uyğundur, lakin qeydiyyatçı seçicinin üzünü təqdim olunmuş sənəddəki fotoşəkillə uyğun hesab etməzsə, o, məntəqə seçki komissiyasının sədrinə müraciət edir. Sədr aşağıda göstərilmiş prosedurun yerinə yetirilməsindən sonra seçiciyə səsvermədə iştirak etmək hüququ verir.

Əgər komissiya sədri uyğunsuzluğu təsdiqləyərsə, komissiyanın katibi qeydlər kitabçasında müvafiq qeydi aparır. Qeyddə uyğunsuzluq faktı, seçicinin adı, soyadı və seçicilər siyahısındakı sıra nömrəsi göstərilir. Qeyd komissiya sədrinin və katibinin imzaları ilə təsdiq edilir.

Əgər komissiya sədri uyğunsuzluğu təsdiqləməzsə, qeydiyyatçı qeydlər kitabçasında öz xüsusi fikrini yazmaq hüququna malikdir.

Bu hallarda komissiyanın katibi qeydlər kitabçasına seçici tərəfindən təqdim olunmuş sənədin surətini əlavə edir və onu imzası ilə təsdiqləyir.



Verifikasiya aparatı tərəfindən seçicinin məlumatlarının uyğunluğu təsdiqləndiyi halda, qeydiyyatçı seçicinin sağ əlində baş barmaq və ya şəhadət barmağının dırnağını markalayır (əgər bu hərəkətin yerinə yetirilməsi mümkün deyilsə – sağ əlin digər barmaqlarından birini, bu da mümkün deyilsə, eyni qaydada sol əlin barmaqlarını markalayır).

Markalama prosedurundan imtina etdiyi halda, seçicinin səsvermədə iştirak etmək hüququ olmur və qeydiyyatçı ona səsvermə binasını tərk etməsini izah edir.

İşarələmə (markerləmə) prosedurundan imtina etdiyi halda, seçicinin səsvermədə iştirak etmək hüququ olmur və qeydiyyatçı ona səsvermə binasını tərk etməsini izah edir.

Seçicinin markalama proseduru həyata keçirildikdən sonra, xüsusi seçici siyahısına daxil edilmiş seçicilərin sayının uçotu formasında qeydiyyatçılar bütün növ seçkilərdə iştirak edə bilməyən seçicilərin sayını qeydə alırlar:

- ✔ Əgər seçici yalnız munisipalitet (bələdiyyə) meri və munisipalitet sakrebulosunun (məclisinin) proporsional üsulla keçirilən seçkilərində iştirak edirsə, seçicilərin verifikasiya aparatının ekranında müvafiq qeyd — "Prop/Mer" görünür;
- ✔ Əgər seçici yalnız munisipalitet sakrebulosunun proporsional üsulla keçirilən seçkilərində iştirak edirsə, verifikasiya aparatının ekranında "Prop" qeydi görünür.
  (Xüsusi seçici siyahısına daxil edilmiş seçicilərin sayının uçotu forması üçün nümunəyə bu təlimatın Əlavə N2 hissəsində baxın.)

Seçicinin markalama proseduru başa çatdıqdan dərhal sonra, qeydiyyatçı verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbzi çap edir və seçici də həmin qəbzi imzalayır. Qeydiyyatçı qəbzi qeydiyyat masasının üzərində yerləşdirilmiş şəffaf olmayan, möhürlənmiş qutuya yerləşdirir.



*Seçicinin verifikasiyasını təsdiq edən qəbzin çap edilməsi*



*Qəbzin seçici tərəfindən imzalanması*



*Qəbzin şəffaf olmayan, möhürlənmiş qutuya yerləşdirilməsi*

Əgər verifikasiya aparatından seçicinin verifikasiyasını təsdiq edən qəbz çap olunmazsa və ya texniki qüsurla çap olunarsa, seçici verifikasiyanı təsdiqləyən qəbz əvəzinə xüsusi aktı imzalayır. Həmin aktın formasını komissiyanın katibi doldurur. Qeydiyyatçı seçicinin imzaladığı aktı verifikasiya qəbzləri üçün nəzərdə tutulmuş qutuya yerləşdirir. Komissiyanın katibi qeydlər kitabçasına müvafiq seçicinin şəxsiyyətini təsdiq edən sənədin surətini əlavə edir.

Əgər verifikasiya aparatında seçici haqqında məlumat tapılmazsa, komissiyanın planşet vasitəsilə seçicinin qeydiyyatda olduğu seçki məntəqəsi barədə məlumatı axtarmaq imkanı vardır.

### Seçicinin qeydiyyatı prosesində risklərin qarşısının alınması

{I} Əgər verifikasiya aparatı, seçicinin səyyar seçki qutusu siyahısına daxil edildiyi halda, səs vermək üçün səsvermə binasına gəldiyini aşkar edərsə, müvafiq məlumat aparatın ekranında görünür və eyni zamanda aparat səsli siqnal verir. Belə seçiciyə seçki məntəqəsində səsvermədə iştirak etmək qadağandır. Qeydiyyatçı seçiciyə izah edir ki, tələblərə uyğun olaraq, seçici üçün səsvermə xidmətini səyyar seçki qutusu vasitəsilə təmin etmək nəzərdə tutulub.




*Səyyar seçki qutusu siyahısına daxil edilmiş seçici barədə məlumatın verifikasiya aparatının ekranında əks olunmasının illüstrasiyası*

{II} Əgər verifikasiya aparatı səs vermək üçün gəlmiş seçicinin başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş xüsusi siyahıya daxil olduğunu aşkar edərsə, müvafiq məlumat aparatın ekranında görünür və eyni zamanda aparat səsli siqnal verir. Belə seçiciyə həmin seçki məntəqəsində səsvermədə iştirak etmək qadağandır. Qeydiyyatçı seçiciyə izah edir ki, səsvermədə iştirak etmək üçün o, aid olduğu seçki məntəqəsinə getməlidir. Məntəqənin nömrəsi və ünvanı qeydiyyatçı tərəfindən verifikasiya aparatının ekranında əks olunmuş məlumata əsasən təqdim edilir.




*Başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş xüsusi siyahıya daxil edilmiş seçici barədə məlumatın verifikasiya aparatının ekranında əks olunmasının illüstrasiyası*

{III} Əgər verifikasiya aparatı səsvermə binasında səs vermək üçün gəlmiş seçicinin artıq həmin seçki məntəqəsində verifikasiyadan keçdiyini aşkar edərsə, müvafiq məlumat aparatın ekranında görünür və eyni zamanda aparat səsli siqnal verir. Seçiciyə təkrar səsvermədə iştirak etmək qadağandır, buna görə də qeydiyyatçı seçiciyə izah edir ki, səsvermə binasını tərk etməlidir.




*İkiqat verifikasiya cəhdinə dair məlumatın verifikasiya aparatının ekranında əks olunmasının illüstrasiyası*

**Seçiciyə seçki bülleteninin verilməsi proseduru**. Seçicinin qeydiyyat proseduru başa çatdıqdan sonra, qeydiyyatçı seçiciyə seçki bülletenini təqdim edir. Bülleten üç sütuna bölünmüşdür:

- ✔ Birinci sütunda — partiyaların adları müəyyən edilmiş ardıcıllıqla göstərilir;
- ✔ İkinci sütunda — merliyə namizədlərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir;
- ✔ Üçüncü sütunda — majoritar dairə üzrə namizədliyi irəli sürülmüş şəxslərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir.

Seçki bülletenilə yanaşı qeydiyyatçı seçiciyə müvafiq formalı xüsusi çərçivə-zərf təqdim edir:

- ✔ Əgər seçici munisipalitet merinin (bələdiyyə başçısı), munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional və majoritar üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona seçki bülleteninin hər üç sütununu örtən çərçivə-zərf verilir;
- ✔ Əgər seçici yalnız munisipalitet merinin (bələdiyyə başçısı) və munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona yalnız iki sütunu örtən çərçivə-zərf verilir;
- ✔ Əgər seçici yalnız munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona yalnız bir sütunu örtən çərçivə-zərf verilir.

Qeydiyyatçı seçiciyə seçki bülleteninin doldurulma və xüsusi çərçivə-zərfdən istifadə qaydasını izah edir.

*Seçici üçün izahat - əgər seçici hər üç növ seçkidə iştirak edirsə (munisipalitet meri, munisipalitet sakrebulosunun proporsional və majoritar üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin hər üç sütununda sizin üçün arzuolunan yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivəli zərfə yerləşdirin”.*

*Seçici üçün izahat – əgər seçici yalnız iki növ seçkidə iştirak edirsə (munisipalitet meri və munisipalitet sakrebulosunun proporsional üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin birinci və ikinci sütunlarında yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivəli zərfə yerləşdirin.*
*Xatırladırıq ki, çərçivəli zərf ilə örtülməmiş seçki bülleteninin üçüncü sütununda seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülleteni korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir”.*

*Seçici üçün izahat – əgər seçici yalnız bir növ seçkidə iştirak edirsə (sakrebulo munisipalitetinin proporsional üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin birinci sütununda yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivəli zərfə yerləşdirin.*
*Xatırladırıq ki, seçki bülleteninin çərçivəli zərf ilə örtülməmiş ikinci və üçüncü sütunlarında, seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülletenləri korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir.”*

Seçki bülleteninin doldurulması və xüsusi çərçivə-zərfin istifadə edilməsi qaydaları izah edildikdən sonra, qeydiyyatçı seçki bülletenini xüsusi çərçivə-zərfə elə yerləşdirir ki, müvafiq sütunda/sütunlarda verilmiş seçki subyektlərinin siyahısını tamamilə örtsün. Qeydiyyatçı seçiciyə xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülleteninin üzərindəki sınaq dairəsini rəngləməyi göstərir.



*Xüsusi çərçivə-zərfdəki seçki bülleteninin üst hissəsinə yerləşdirilmiş sınaq dairəsi*

Seçki bülletenində sınaq dairəsini rənglədikdən sonra, qeydiyyatçı seçiciyə xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülletenini verir və izah edir ki, xüsusi çərçivə-zərf vasitəsilə seçki bülletenini səslərin sayılması üçün xüsusi elektron aparata elə yerləşdirsin ki, seçki bülleteninin üzərindəki sınaq dairəsi alt tərəfə düşsün. Bundan sonra, qeydiyyatçı seçiciyə gizli səsvermə kabinəsinə keçməyi bildirir.

**III. Seçki bülletenini və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə-zərfi aldıqdan sonra, seçici gizli səsvermə kabinəsinə daxil olur.**

Seçici xüsusi markerdən istifadə edərək seçki bülletenini doldurur və onu xüsusi çərçivə-zərfə yerləşdirir.

Gizli səsvermə kabinəsində, seçki bülleteninin doldurulması zamanı, digər şəxslərin iştirak etməsi və foto/video çəkilişi qadağandır.

Seçici, özü seçki bülletenini doldura bilmədiyi halda, gizli səsvermə kabinəsinə kömək üçün seçki məntəqəsində olan hər hansı bir şəxsi dəvət edə bilər, aşağıdakılar istisna olmaqla:
a) Seçki komissiyasının üzvü;
b) Namizəd;
c) Seçki subyektinin nümayəndəsi;
ç) Nəzarətçi;
d) Kütləvi informasiya vasitələri və mətbuat nümayəndəsi.

Əgər seçicinin seçki bülleteni və ya xüsusi çərçivə-zərfi xarab olarsa, bunu komissiyanın sədrinə bildirməlidir. Komissiyanın sədrinin tapşırığı ilə qeydiyyatçı seçicinin xarab olmuş seçki bülletenini/xüsusi çərçivə-zərfini yenisi ilə əvəz etməlidir.

Komissiya sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, qatlanmış seçki bülletenini metal klips ilə bərkidir, küncünü kəsir, üzərinə "Korlanmış" sözünü yazır və imza atır. Komissiya sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

**IV. Xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülleteni ilə seçici əsas seçki qutusuna yaxınlaşır**

Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi olan komissiya üzvü seçiciyə seçki bülleteninin aparata yerləşdirilməsi qaydasını izah edir.

*"Seçki bülletenini xüsusi çərçivə-zərf vasitəsilə aparata elə yerləşdirin ki, sınaq dairəsinin yerləşdiyi tərəf aşağıya düşsün.*
*Çərçivə-zərfi yüngülcə tutun ki, aparat seçki bülletenini asanlıqla qəbul edə bilsin.*
*Aparatın ekranında "Səsiniz qəbul edildi" bildirişi görünənə qədər gözləyin və yalnız bundan sonra səsvermə məntəqəsini tərk edin".*

Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi əlində fərqli növdə xüsusi çərçivə-zərfi tutan seçicidən tələb etməlidir ki, seçki bülleteninin açıq sütununda/sütunlarında hər hansı bir seçim edib-etmədiyini göstərsin — lakin elə şəkildə ki, çərçivə-zərf ilə örtülmüş sütundakı seçimin gizliliyi pozulmasın.

Əgər seçki bülleteninin açıq sütunu/sütunları rənglənmiş və ya işarələnmiş olarsa, bu halda seçki bülleten korlanmış hesab olunur. Bu hal barədə komissiya sədrinə məlumat verilir və onun tapşırığı ilə qeydiyyatçı seçiciyə yeni seçki bülletenini təqdim etməlidir.

Komissiya sədri seçicinin iştirakı ilə korlanmış bülletenin üzərindəki seçki subyektlərinin görünməsi mümkün olmayacaq şəkildə onu qatlayır, qatlanmış bülleteni metal klips ilə bağlayır, onun küncünü kəsir, üzərinə "Korlanmış" sözünü yazır və imza atır. Komissiya sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

Seçici seçki bülletenini xüsusi çərçivə-zərf vasitəsilə əsas seçki qutusuna quraşdırılmış aparata yerləşdirir. Əgər seçici xüsusi çərçivə-zərf vasitəsilə bülleteni aparata yerləşdirə bilmirsə, ona seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi olan komissiya üzvü kömək edə bilər.




*Səslərin sayılması üçün xüsusi elektron aparata seçki bülleteninin yerləşdirilməsi*




*Seçki bülleteninin əsas seçki qutusuna yerləşdirilməsini təsdiqləyən işarə*

Əgər səslərin sayılması üçün xüsusi elektron aparat seçki bülletenini qəbul etməz və geri qaytararsa, həmin bülleteni eyni və ya başqa elektron aparata yenidən yerləşdirmək olar. Seçki bülleteni yenidən geri qaytarıldığı halda, komissiya sədri müəyyən olunmuş qaydada seçicinin iştirakı ilə bülleteni korlayır. Komissiya sədrinin göstərişi ilə qeydiyyatçı seçiciyə korlanmış seçki bülleteninin əvəzinə yenisini təqdim etməlidir.

Seçki bülleteninin əsas seçki qutusuna yerləşdirilməsindən sonra seçici xüsusi çərçivə-zərfi bunun üçün nəzərdə tutulmuş masaya qoyur və seçki məntəqəsini tərk edir. Xüsusi çərçivə-zərflər seçicilərin qeydiyyatını aparan komissiya üzvlərinə təhvil verilir.

## Səyyar seçki qutusu ilə səsvermə prosesi

Səyyar seçki qutusu vasitəsilə səsvermə proseduru səsvermə günü saat 09:00-da başlayır və saat 19:00-da başa çatır. Səyyar seçki qutusu vasitəsilə səsvermə proseduru başa çatdıqdan dərhal sonra seçki bülletenlərinin qutuya atıldığı yarıq möhürlənir. Səyyar seçki qutusu seçki məntəqəsinə ən geci saat 20:00-a qədər geri qaytarılmalıdır.

Səsvermə binasında olmaq hüququ olan şəxslərin, istəklərinə uyğun olaraq, səyyar seçki qutusu vasitəsilə səsvermə prosedurunu müşahidə etmək hüquqları vardır. Səyyar seçki qutusu vasitəsilə səsvermə zamanı avtomobildən istifadə olunduğu halda, məntəqə seçki komissiyası səsvermə binasında olma hüququna malik şəxslər arasından püşkatma yolu ilə müəyyən edilmiş 2 müşahidəçi üçün avtomobildə yer ayırmalıdır.

Komissiya sədri səyyar seçki qutusunu aparacaq komissiya üzvlərinə (xüsusi qrup üzvləri varsa – onlara da) aşağıdakıları təqdim edir:

- ☐ Möhürlənmiş səyyar seçki qutusunu;
- ☐ Səyyar seçki qutusu siyahısının komissiya üçün nəzərdə tutulmuş nüsxəsini;
- ☐ Lazımi sayda seçki bülletenlərini;
- ☐ Seçki bülletenlərinin doldurulması üçün xüsusi markerləri;
- ☐ Lazımi sayda xüsusi çərçivə-zərfləri (əgər səyyar seçki qutusu siyahısında bütün növ seçkidə iştirak edə bilməyən seçici qeyd olunubsa, bu halda komissiyanın səyyar qrup üzvlərinə əlavə olaraq fərqli növdə xüsusi çərçivə-zərflər də verilir);
- ☐ Metal klipslər (seçici bülleteni xüsusi çərçivə-zərfə yerləşdirdikdən sonra, zərf metal birləşdirici ilə bərkidilir və səyyar seçki qutusuna atılır);
- ☐ Metal bağlayıcı (səsvermə zamanı bülleten korlandığı halda, səsvermənin gizliliyini təmin etmək məqsədilə istifadə olunur);
- ☐ Markerin yoxlanması üçün ultrabənövşəyi fənər;
- ☐ Markerləmə mayesi;
- ☐ Qələm (səyyar seçki qutusu siyahısında seçicinin imzasının qeyd olunması üçün);
- ☐ Səyyar seçki qutusunun yarığı üçün möhür.

Komissiyanın katibi qeydlər kitabçasının 4-cü səhifəsində səyyar seçki qutusunu müşayiət edən komissiya üzvlərinə / xüsusi qrup üzvlərinə verilmiş seçki bülletenlərinin və xüsusi çərçivə-zərflərin sayını, həmçinin səyyar seçki qutusunun seçki məntəqəsindən çıxarıldığı vaxtı qeyd edir.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

გადასატანი საარჩევნო ყუთის თანმხლები კომისიისა და სპეცჯგუფის წევრთათვის
გადაცემული საარჩევნო დოკუმენტაციის აღრიცხვა

| | დასახელება | რაოდენობა | | |
|---|---|---|---|---|
| | | I ყუთი | II ყუთი | III ყუთი |
| 1 | ამომრჩეველთა რაოდენობა გადასატანი საარჩევნო ყუთის სიაში | 35 | 15 | |
| 2 | გადაცემული ბიულეტენების რაოდენობა | 34 | 14 | |
| 3 | გადაცემული სპეციალური ჩარჩო-კონვერტების რაოდენობა | 35 | 15 | |
| 4 | გამოუყენებელი ბიულეტენების რაოდენობა | | | |
| 5 | *გადასატანი საარჩევნო ყუთის სიაში ხელმოწერების რაოდენობა* | | | |
| 6 | უბნიდან წაღების დრო | 09 სთ. 30 წთ. | 09 სთ. 30 წთ. | ___ სთ. ___ წთ. |
| | უბანში დაბრუნების დრო | ___ სთ. ___ წთ. | ___ სთ. ___ წთ. | ___ სთ. ___ წთ. |

Səyyar seçki qutusu ilə səsvermə prosesi müəyyən olunmuş ardıcıllığa riayət etməklə həyata keçirilir.

**I. Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçicinin səsvermədə iştirak etmə əsaslarını yoxlayır.**

Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü:

- ✔ Seçicidən şəxsiyyətini təsdiq edən sənədi (Gürcüstan vətəndaşının elektron şəxsiyyət vəsiqəsi, Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu) təqdim etməsini tələb edir;
- ✔ Şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətini yoxlayır;
- ✔ Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsi təqdim edildikdə sənədin verilmə tarixini yoxlayır;
- ✔ Ultrabənövşəyi fənərlə seçicinin əlinin işarələnib-işarələnmədiyini yoxlayır.

Yoxlama nəticələrinə əsasən:

- ✔ Əgər markalamanı yoxlayan xüsusi cihaz aşkar edərsə ki, seçici artıq markalanıb, ona səsvermədə iştirak etmək qadağan edilir. Səyyar seçki qutusunu daşıyan komissiya üzvü və ya xüsusi qrupun üzvü seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edir. Bu faktla bağlı komissiya üzvü və ya xüsusi qrupun üzvü izahat yazmalıdır (səyyar seçki qutusu siyahısında seçicinin sıra nömrəsini, ad və soyadını qeyd etməklə). Sənədi səyyar seçki qutusunu aparan komissiya üzvləri və ya xüsusi qrupun üzvləri, eləcə də müşayiət edən şəxslər (əgər varsa) imzalayırlar.
- ✔ Əgər seçici etibarsız şəxsiyyət vəsiqəsi və ya qüvvədən düşmüş Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edərsə (2011-ci ilin 27 iyuluna qədər verilmiş qeyri-elektron şəxsiyyət vəsiqəsi qüvvədən düşüb), ona səsvermədə iiştirak etmək qadağan edilir. Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçiciyə səsverməyə qatılmaqdan imtina etməyin səbəbini izah edir və bildirir ki, yalnız etibarlı şəxsiyyət vəsiqəsi təqdim edildikdə, səsvermədə iştirak etməyə icazə veriləcəkdir.
- ✔ Əgər seçici müəyyən edilmiş tələblərə cavab verirsə, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçicinin qeydiyyatını və seçki bülleteninin verilməsi proseduruna davam edir.

**II. Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçiciyə qeydiyyat və sonra seçki bülleteninin verilməsi xidmətini göstərir.**

Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçicinin təqdim etdiyi sənəddəki qeydiyyat məlumatlarının və səyyar seçki qutusu siyahısında mövcud olan məlumatların uyğunluğunu yoxlayır.

Siyahıdakı məlumatların uyğunluğunu təsdiqlədikdə, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçicini sağ əlinin baş barmağı və ya şəhadət barmağının dırnağında markalayır (əgər bu hərəkət mümkün deyilsə – sağ əlin digər barmaqlarında, əgər bu da mümkün deyilsə, eyni qaydada sol əlin barmaqlarında).

Markalama prosedurunu keçməkdən imtina etdiyi halda, seçicinin səsvermədə iştirak etmək hüququ yoxdur və komissiya üzvü/xüsusi qrup üzvü ona səsverməyə qatılmaqdan imtina etmə səbəbini izah edir. Markalama penitensiar müəssisələrdə, xəstəxanalarda və digər stasionar müalicə müəssisələrində (xəstələrə) istifadə edilmir.

Markalama proseduru tamamlandıqdan sonra, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü səyyar seçki qutusu siyahısının müvafiq sütununa imza atır və seçiciyə məlumat verir ki, seçki bülletenini aldığını imzası ilə təsdiq etsin.

Əgər səsvermə prosesində aşkar edilsə ki, seçici səyyar seçki qutusu siyahısında başqa bir seçicinin soyadı qarşısında imza atıb, bu halda soyadı qarşısında imza olan seçici həmin sütunda öz imzasını atmalıdır.

Bu faktla bağlı komissiya üzvü/xüsusi qrup üzvü izahat yazmalı və seçicinin səyyar seçki qutusu siyahısındakı nömrəsini, adını və soyadını göstərməlidir. Sənədə səyyar seçki qutusunu daşıyan komissiya üzvləri/xüsusi qrup üzvləri ilə birlikdə müşayiət edən şəxslər də imza atır (əgər belə şəxslər varsa).

Seçicinin qeydiyyat proseduru başa çatdıqdan sonra, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçiciyə seçki bülletenini təqdim edir. Bülleten üç sütuna bölünmüşdür:

- ✔ Birinci sütunda — partiyaların adları müəyyən edilmiş ardıcıllıqla göstərilir;
- ✔ İkinci sütunda — merliyə namizədlərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir;
- ✔ Üçüncü sütunda — majoritar dairə üzrə namizədliyi irəli sürülmüş şəxslərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir.

Seçki bülletenilə yanaşı səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçiciyə müvafiq formalı xüsusi çərçivə-zərfi təqdim edir:

- ✔ Əgər seçici munisipalitet merinin (bələdiyyə başçısı), munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional və majoritar üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona seçki bülleteninin hər üç sütununu örtən çərçivəli zərf verilir;
- ✔ Əgər seçici yalnız munisipalitet merinin (bələdiyyə başçısı) və munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona yalnız iki sütunu örtən çərçivəli zərf verilir;

✔ Əgər seçici yalnız munisipalitet sakrebulosunun (bələdiyyə məclisinin) proporsional üsulla keçiriləcək seçkilərində iştirak edirsə, ona yalnız bir sütunu örtən çərçivəli zərf verilir.

Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçiciyə seçki bülleteninin doldurulma və xüsusi çərçivəli zərfdən istifadə qaydasını izah edir.

*Seçici üçün izahat - əgər seçici hər üç növ seçkidə iştirak edirsə (munisipalitet meri, munisipalitet sakrebulosunun proporsional və majoritar üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin hər üç sütununda sizin üçün arzuolunan yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivə-zərfə yerləşdirin”.*

*Seçici üçün izahat – əgər seçici yalnız iki növ seçkidə iştirak edirsə (munisipalitet meri və munisipalitet sakrebulosunun proporsional üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin birinci və ikinci sütunlarında yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivə- zərfə yerləşdirin.*
*Xatırladırıq ki, çərçivə- zərf ilə örtülməmiş seçki bülleteninin üçüncü sütununda seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülleteni korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir”.*

*Seçici üçün izahat – əgər seçici yalnız bir növ seçkidə iştirak edirsə (sakrebulo munisipalitetinin proporsional üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin birinci sütununda yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivə-zərfə yerləşdirin.*
*Xatırladırıq ki, seçki bülleteninin çərçivə- zərf ilə örtülməmiş ikinci və üçüncü sütunlarında, seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülletenləri korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir.”*

Seçki bülleteninin doldurulması və xüsusi çərçivə-zərfin istifadə edilməsi qaydaları izah edildikdən sonra, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrup üzvü seçki bülletenini xüsusi çərçivə-zərfə elə yerləşdirir ki, müvafiq sütunda/sütunlarda verilmiş seçki subyektlərinin siyahısını tamamilə örtsün. Seçiciyə xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülleteninin üzərindəki sınaq dairəsini rəngləməyi göstərir.

Bundan sonra, səyyar seçki qutusunu aparan komissiya üzvü / xüsusi qrupun üzvü seçiciyə, xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülletenini təqdim edir və ona gizlilik prinsipinə riayət etməklə, bülleteni doldurmağı tapşırır.

**III. Seçki bülletenini və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə-zərfi aldıqdan sonra seçici seçki bülletenini gizlilik prinsipinə riayət etməklə doldurur.**

Əgər seçici seçki bülletenini müstəqil şəkildə doldura bilmirsə, ona istənilən şəxsin kömək etməsinə icazə verilir, lakin bu şəxs seçki komissiyasının üzvü, namizəd, seçki subyektinin nümayəndəsi, kütləvi informasiya vasitələrinin nümayəndəsi və ya müşahidəçi ola bilməz.

Əgər seçicinin seçki bülleteni və ya xüsusi çərçivə-zərfi korlanarsa, komissiyanın üzvü/xüsusi qrupun üzvü seçiciyə korlanmış sənədin əvəzinə yenisini təqdim etməlidir.

Səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrupun üzvü seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə şəkildə qatlayır ki, seçki subyektlərinin görünməsi mümkün olmasın, qatlanmış seçki bülletenini metal bağlayıcı ilə birləşdirir, onun küncünü kəsir, üzərinə "Korlanıb" yazır və imza atır. Korlanmış seçki bülletenləri səyyar seçki qutusu seçki məntəqəsinə qaytarıldıqda məntəqə seçki komissiyasının sədrinə təhvil verilir.

**IV. Seçici, xüsusi çərçivə-zərfdə yerləşdirilmiş seçki bülletenini səyyar seçki qutusuna yerləşdirir.**

Seçki bülleteninin xüsusi çərçivə-zərfdən ayrılması riskinin qarşısının alınması məqsədilə, səyyar seçki qutusunu daşıyan komissiya üzvü/xüsusi qrupun üzvü, seçicinin doldurduğu seçki bülletenini xüsusi çərçivə-zərfə yerləşdirdikdən sonra, həmin çərçivə-zərfin metal klipslərlə bərkidilməsini təmin etməlidir (bu formada xüsusi çərçivə-zərf səyyar seçki qutusuna yerləşdirilir).



Səyyar seçki qutusunu aparan komissiya və ya xüsusi qrupun üzvü, fərqli növdə xüsusi çərçivə-zərf istifadə edən seçicidən tələb etməlidir ki, çərçivə-zərflə örtülü sütunun məxfiliyini pozmadan, açıq sütunda/sütunlarda hər hansı seçim edib-etmədiyini göstərsin.

Əgər seçki bülleteninin açıq sütunu/sütunları rənglənmiş və ya işarələnmiş olarsa, bu bülleten korlanmış hesab olunur. Bu halda, səyyar seçki qutusunu aparan komissiya və ya xüsusi qrupun üzvü seçiciyə yeni seçki bülletenini təqdim etməlidir.

Komissiya və ya xüsusi qrupun üzvü seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə şəkildə qatlamalıdır ki, seçki subyektlərinin görünməsi mümkün olmasın, qatlanmış bülleteni metal bərkidici ilə bağlamalı, küncünü kəsməli, üzərinə "Korlanmışdır" sözünü yazmalı və imza atmalıdır. Korlanmış seçki bülletenləri ayrıca saxlanılır və komissiya sədrinə təhvil verilir.

Səyyar seçki qutusunu aparan komissiya üzvü və ya xüsusi qrupun üzvü səyyar seçki qutusunun yarığını açır və seçiciyə göstəriş verir ki, səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülletenini onun içinə atsın.

Əgər səyyar seçki qutusunun möhürünün bütövlüyü pozulubsa, səyyar seçki qutusunu daşıyan komissiya üzvləri/xüsusi qrupun üzvləri dərhal komissiyanın sədri ilə əlaqə saxlamalı, səbəbi göstərməklə izahat tərtib etməli və həmçinin müşayiət edən şəxslərlə birgə imzalamalıdırlar.

Səyyar seçki qutusu komissiyasının üzvləri/qruplarının üzvləri səsvermə otağına qayıtdıqdan sonra, onlar istifadə edilməmiş/korlanmış seçki bülletenlərini, səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə-zərfləri və səyyar seçki qutusu siyahısını məntəqə seçki komissiyasının katibinə təhvil verməlidirlər. Komissiyanın sədri istifadə edilməmiş/korlanmış seçki bülletenlərininküncünü kəsir, “korlanmış” qeydini yazır və imzası ilə təsdiqləyir.

Komissiyanın katibi səyyar seçki qutusu siyahısında olan imzaların və istifadə edilməmiş və ya korlanmış seçki bülletenlərinin sayının düzgünlüyünü yoxlayır. Hər hansı bir uyğunsuzluq aşkar edildikdə, səyyar seçki qutusu ilə bağlı komissiya üzvləri/qrup üzvləri səbəbi göstərərək izahat yazmalıdırlar. İzahatda göstərilən məlumatlar, səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını təyin edən və səsvermə nəticələrini ümumiləşdirən protokolun tərtibində nəzərə alınacaqdır.

Komissiyanın katibi qeydlər kitabının 4-cü səhifəsində səyyar seçki qutusu siyahısında olan seçicilərin imzalarının sayını, istifadə edilməmiş seçki bülletenlərinin sayını və həmçinin səyyar seçki qutusunun seçki məntəqəsinə qaytarılma vaxtını qeyd edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

გადასატანი საარჩევნო ყუთის თანმხლები კომისიისა და სპეცჯგუფის წევრთათვის გადაცემული საარჩევნო დოკუმენტაციის აღრიცხვა

| | დასახელება | რაოდენობა | | |
|---|---|---|---|---|
| | | I ყუთი | II ყუთი | III ყუთი |
| 1 | ამომრჩეველთა რაოდენობა გადასატანი საარჩევნო ყუთის სიაში | 35 | 15 | |
| 2 | გადაცემული ბიულეტენების რაოდენობა | 34 | 14 | |
| 3 | გადაცემული სპეციალური ჩარჩო-კონვერტების რაოდენობა | 35 | 15 | |
| 4 | გამოუყენებელი ბიულეტენების რაოდენობა | 2 | 2 | |
| 5 | *გადასატანი საარჩევნო ყუთის სიაში ხელმოწერების რაოდენობა* | 35 | 15 | |
| 6 | უბნიდან **წაღების** დრო | 09 სთ. 30 წთ. | 09 სთ. 30 წთ. | __ სთ. __ წთ. |
| | უბანში **დაბრუნების** დრო | 14 სთ. 45 წთ. | 16 სთ. 40 წთ. | __ სთ. __ წთ. |

## Fiziki vəziyyətinə görə seçicinin səsvermə proseduru

Fiziki vəziyyətinə görə, xüsusilə yuxarı ətrafların olmaması səbəbindən səsvermə prosedurlarını müstəqil yerinə yetirə bilməyən seçici, səsverməyə aşağıdakı prosedurlar nəzərə alınmaqla qatılır:

- Seçici, markalama yoxlanışı və markalama prosedurlarından keçmir.
- Seçiciyə seçki bülleteninin verilməsindən əvvəl, seçicilərin verifikasiyasını təsdiq edən qəbzdə / səyyar səsvermə qutusu siyahısında, seçicinin imzası yerində “Fiziki vəziyyət” qeydi edilir və bu da seçicilərin qeydiyyatçısı / səyyar səsvermə qutusu daşıyan komissiya üzvü / xüsusi qrup üzvü tərəfindən imzalanır.
- Seçicinin, seçki bülletenini doldurarkən kömək üçün istənilən hər hansı bir şəxsi çağırmaq hüququ vardır, amma seçki komissiyasının üzvünün, namizədin, seçki subyektinin nümayəndəsinin, mətbuat və kütləvi informasiya vasitələrinin nümayəndəsinin və müşahidəçinin kömək etməsi qadağandır.
- Seçicinin əvəzinə, lakin onun iştirakı ilə, səsvermə bülleteninin doldurulmasında kömək edən şəxs doldurulmuş seçki bülletenini xüsusi çərçivəli zərfə yerləşdirir və daha sonra onu səsin sayılması üçün nəzərdə tutulmuş xüsusi elektron aparata və ya səyyar seçki qutusuna yerləşdirir.

## Seçicilərin fərdi məlumatlarının mühafizəsinin təminatı

Səsvermə binasında olmağa icazəsi olan şəxslərə seçicinin şəxsiyyətini təsdiq edən sənədinin, seçicilərin verifikasiyası aparatında göstərilən seçici məlumatlarının, verifikasiya aparatından çap olunmuş seçicinin verifikasiyasını təsdiq edən qəbzin və seçici tərəfindən seçki bülletenində edilən seçimin foto, video çəkilişinin və ya digər şəkildə emalının (o cümlədən toplanması, yazılması, saxlanması), istifadəsinin, açıqlanmasının, ötürülməsinin və ya yayımlandırılmasının həyata keçirilməsi qadağandır. Bu qadağa dairə seçki komissiyasının üzvlərinə də şamil edilir, istisna o hallardır ki, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin həyata keçirilməsi Gürcüstanın "Seçki Məcəlləsi" Orqan Qanunu və Mərkəzi Seçki Komissiyasının hüquqi aktları ilə müəyyən edilmiş dairə seçki komissiyasının səlahiyyətlərinin icrası üçün zəruridir.

## Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin siyahıya alınması

Səsverməyə/seçkiyə qatılan seçicilərin sayını (seçici fəallığı) müəyyənləşdirmək məqsədilə, məntəqə seçki komissiyasının sədri tərəfindən göstəriş verildikdə, qeydiyyatçılardan biri seçicilərin verifikasiya aparatından 10:00, 12:00, 15:00 və 17:00 saatlarında seçici fəallığını göstərən qəbz/hesabat çap edir.

Səsvermə prosesi başa çatdıqdan sonra səsverməyə/seçkiyə qatılan ümumi seçicilərin sayını göstərən yekun hesabat çap olunur.

Səsvermə prosesi saat 20:00-da başa çatır, həmin vaxtda səsvermədə iştirak etmək üçün növbədə seçicilərin dayandığı hal istisna olmaqla. Növbədə duran və qeydiyyata alınmış sonuncu seçici səs verdikdən sonra səsvermə başa çatmış elan olunur və komissiya sədrinin göstərişi ilə qeydiyyatçılardan biri verifikasiya aparatından səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin ümumi sayını əks etdirən yekun qəbzi/hesabatı çap edir.

Məntəqə seçki komissiyasının sədr müavini, seçicilərin sayını göstərən hesabatların çapı prosesinə paralel olaraq, müvafiq qeydləri elektron vasitələrlə keçirilən seçki auditinin təsdiqlənməsi formasında da aparır.

Məntəqə seçki komissiyasının sədri, müvafiq vaxtlarda (10:00, 12:00, 15:00, 17:00, 20:00 saatlarında) çap edilmiş hesabatda/qəbzdə qeyd olunan seçkiyə qatılan seçicilərin sayına səyyar seçki qutusunun siyahısında (əgər varsa) qeyd olunan seçicilərin imzalarının cəmini əlavə edir (bu məlumatla proporsional qaydada keçirilən Sakrebulo seçkilərində iştirak edən ümumi seçicilərin sayı müəyyən edilir). Komissiyanın sədri, müəyyən edilmiş saatlarda planşet vasitəsilə, seçkiyə qatılan seçicilər haqqında məlumatı Mərkəzi Seçki Komissiyasına ötürür.

Məntəqə seçki komissiyasının katibi, 12:00 və 17:00 saatlarına görə seçicilərin ümumi sayını, həmçinin seçki prosesi başa çatdıqdan sonra müəyyən edilmiş seçicilərin yekun sayını seçki nəticələrinin nümunəvi protokollarında və qeydlər kitabında göstərir.

Komissiyanın katibi, seçki nəticələrinin nümunəvi protokollarına və qeydlər kitabında seçkiyə qatılan seçicilərin ümumi sayını qeyd edərkən aşağıdakıları nəzərə almalıdır:

Mer seçkilərində səsvermədə iştirak etmiş seçicilərin sayının müəyyən edilməsi məqsədilə, proporsional sistemlə keçirilmiş sakrebulo seçkilərində iştirak etmiş seçicilərin ümumi sayından, xüsusi

siyahı üzrə səsvermədə iştirak etmiş və mer seçkilərində iştirak hüququ olmayan seçicilərin qeydiyyatçıları tərəfindən qeydə alınmış ümumi sayı çıxılmalıdır. Mer seçkilərində iştirak hüququ olmayan və xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş seçicilərin ümumi sayı qeydlər kitabçasına daxil edilir. Bu göstəricilər qeydiyyatçılar tərəfindən xüsusi siyahıya daxil edilmiş seçicilərin qeydiyyat formalarında qeyd olunub.
Majoritar sistemlə keçirilən sakrebulo seçkiləri üçün səsvermədə iştirak edən seçicilərin sayının müəyyən edilməsi məqsədilə, proporsional sistemlə keçirilən seçkilərdə iştirak edən seçicilərin ümumi sayından, xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş və majoritar sistemlə keçirilmiş seçkilərdə iştirak hüququ olmayan seçicilərin qeydiyyatçısı tərəfindən qeydə alınmış ümumi sayı çıxılmalıdır. Majoritar sistemlə keçirilmiş seçkilərdə iştirak hüququ olmayan və xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş seçicilərin ümumi sayı qeydlər kitabçasına daxil edilir. Bu göstəricilər qeydiyyatçılar tərəfindən xüsusi siyahıya daxil edilmiş seçicilərin qeydiyyat formalarında qeyd olunub.

*Sxem N4. Seçicilərin sayı (fəallığı) barədə məlumat verən qəbzin/hesabatın çap prosesinin ilüstrasiyası*



{I}

*Seçicilərin aktivliyinin çap edilməsi menyusuna keçmək üçün qeydiyyatçı ekranın yuxarı sağ küncündə olan menyu düyməsini sıxır*



{II}

*Menyuda qeydiyyatçı "Seçicilərin aktivliyi" düyməsini sıxır*

**ამომრჩეველთა აქტივობა**




{III}

*Qeydiyyatçı "Fəallıq qəbzini çap et" düyməsini sıxır və nəticədə seçicilərin fəallığını əks etdirən qəbz çap olunur.*

*Sxem N5. Seçicilərin sayı (aktivliyi) barədə məlumatın Mərkəzi Seçki Komissiyasına göndərilməsi prosesinin illüstrasiyası*




{I}

*Komissiya sədri planşetə yüklənmiş proqramı aktivləşdirdikdən sonra proqramın menyusuna daxil olur.*




{II}

*Proqramın menyusunda komissiya sədri "Fəallıq" düyməsini seçir.*




{III}

*Komissiya sədri "Fəal" sətrini seçir.*




{IV}

*Komissiya sədri müvafiq xanaya seçicilərin sayını daxil edir və "Göndər" düyməsini sıxmaqla məlumatları göndərir.*




{V}

*Göndərilmiş məlumat müvafiq dövrə aid fəallıq qrafasında əks olunur.*

## Səsvermə günü səsvermə binasında və onun ətraf ərazisində asayişin qorunması

Seçicilərin səsvermə prosesində maneəsiz iştirakını dəstəkləmək və səsvermənin gizliliyini təmin etmək məqsədilə, səsvermə günü səsvermə binasında asayişə nəzarətə dair məsuliyyət məntəqə seçki komissiyasının sədrinin üzərinə düşür.

Komissiya sədri tərəfindən qəbul edilən qərarların icrası seçki komissiyasının üzvləri, səsvermə binasında olma hüququna malik bütün şəxslər və seçicilər üçün məcburidir.

Əgər komissiyanın işinə müdaxilə edilərsə və ya asayiş pozularsa, bu halda məntəqə seçki komissiyası pozuntuya yol verən şəxsin komissiyanın yerləşdiyi binadan çıxarılması barədə qərar qəbul etmək səlahiyyətinə malikdir. Pozuntuya yol verən şəxs binadan çıxarıldıqda, müvafiq akt tərtib olunur və ona komissiya sədri və üzvləri imza atırlar. Əgər pozuntuya yol verən şəxs məntəqə seçki komissiyasının qərarını könüllü olaraq yerinə yetirməzsə, komissiya sədrinin tələbi ilə polis əməkdaşları çağırıla bilər. Polis qəbul olunmuş qərarı dərhal icra etməlidir. Hadisə ilə bağlı müvafiq qeydlər qeydlər kitabçasına daxil edilir.

Səsvermə binasına silahlı şəxslərin girişi qadağandır.

Əgər səsvermə binasında və ya onun ətraf ərazisində ictimai asayişə, səsvermənin keçirilməsinə və ya seçki sənədlərinin təhlükəsiz daşınmasına təhlükə yaranarsa, məntəqə seçki komissiyasının sədrinin tələbi ilə polis əməkdaşları çağırıla bilər. İctimai asayişin pozulmasının qarşısı alındıqdan sonra və məntəqə seçki komissiyasının sədrinin razılığı ilə polis əməkdaşları səsvermə binasını və onun ətraf ərazisini tərk edirlər.

İstisna hallarda, səsvermə binasının ətraf ərazisində, lakin səsvermə binasının özündə deyil, polis əməkdaşları məntəqə seçki komissiyasının sədrinin tələbi və razılığı olmadan da yerləşə bilərlər – əgər bu, ictimai asayişin pozulmasının qarşısının alınması və ya onun qorunması üçün tam zəruridirsə. Belə zərurət aradan qaldırıldıqdan dərhal sonra polis əməkdaşları səsvermə binasının yaxınlığındakı ərazini tərk edirlər.

## Səsvermə prosesinin müvəqqəti dayandırılması

Səsvermə zamanı səsvermə binasının bağlanması, səsvermənin saxlanması və ya dayandırılması qadağandır. Əgər hər hansı bir vəziyyət səsvermə prosesinin həyata keçirilməsini əngəlləyirsə, məntəqə seçki komissiyasının sədrinin bunu dərhal dairə seçki komissiyasına bildirməsi və müvafiq göstərişləri gözləməsi tələb olunur.

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Seçki komissiyasının hansı üzvü seçicilərin markalanmasını yoxlayır?
2. Seçki komissiyasının hansı üzvü seçicinin markalanmasını həyata keçirir?
3. Əgər seçici Gürcüstan vətəndaşının qeyri-elektron şəxsiyyət vəsiqəsini təqdim edərsə, hansı halda ona səsvermə məntəqəsinə daxil olmağa və səsvermədə iştirak etməyə icazə verilmir?
4. Əgər verifikasiya aparatından verifikasiyanı təsdiq edən qəbz çap olunmazsa və ya texniki qüsurla çap olunarsa, nə baş verir?
5. Verifikasiya aparatı səs vermək üçün səsvermə binasına gəlmiş seçicinin aşağıdakı siyahılardan birinə daxil olduğunu müəyyən etdikdə, nə baş verir:
   - ✔ Səyyar seçki qutusunun siyahısındadır
   - ✔ Başqa seçki məntəqəsinin xüsusi siyahısındadır
6. Qeydiyyatçı aşağıdakı seçki növlərində səs verən seçiciləri hansı qaydada qeydiyyata alır:
   - ✔ Yalnız proporsional sistemlə keçirilən mer və munisipalitetin sakrebulo seçkilərində səs verən seçicilər?
   - ✔ Yalnız proporsional sistemlə keçirilən munisipalitetin sakrebulo seçkilərində səs verən seçicilər?
7. Qeydiyyatçı seçiciyə seçki bülletenini doldurmaq üçün hansı təlimatları verir?
8. Əgər seçici yalnız proporsional sistemlə keçirilən mer və sakrebulo seçkilərində iştirak edirsə, qeydiyyatçı hansı növ çərçivə-zərf verir?
   - ✔ Yalnız proporsional sistemlə keçirilən sakrebulo seçkilərində iştirak edirsə?
9. Əgər seçici müstəqil şəkildə seçki bülletenini doldura bilmirsə, gizli səsvermə kabinəsində yardım almaq üçün kimi çağıra bilər?
10. Fiziki vəziyyətinə görə (xüsusilə yuxarı ətrafların qüsuru səbəbindən) səsvermə prosedurlarını müstəqil yerinə yetirə bilməyən seçici necə səs verir?
11. Seçki komissiyası, zəif görən və gözü görməyən seçicilərə hansı xidmətləri təklif edir?
12. Əgər seçicinin seçki bülleteni korlanarsa, ona yeni seçki bülleteni hansı prosedur ilə verilir?
13. Seçicinin seçdiyi seçimin gizliliyini qorumaq məqsədilə, səsvermə qutusu və səs sayan xüsusi elektron aparatın nəzarətçisi seçiciyə hansı təlimatları verir?
14. Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi olan komissiya üzvü müəyyən edərsə ki, fərqli çərçivə-zərf almış seçici seçki bülleteninin açıq sütununda seçim etmişdir – bu halda nə baş verir?
15. Seçicinin şəxsi məlumatlarının qorunması məqsədilə, məntəqə seçki komissiyası üzvlərinə və səsvermə binasında olmaq hüququ olan şəxslərə nə qadağandır?
16. Əgər səslərin sayılması üçün xüsusi elektron aparat seçki bülletenini geri qaytararsa, bu halda nə baş verir?
17. Səyyar seçki qutusu ilə səsvermə prosesi nə zaman başlayır və nə zaman bitir?
18. Səyyar seçki qutusunu avtomobillə aparan komissiya üzvləri hərəkət etdikdə, avtomobildə neçə müşahidəçi üçün yer ayrılmalıdır və bu müşahidəçilərin şəxsiyyəti necə müəyyən edilir?
19. Səyyar seçki qutusu vasitəsilə səsvermə prosesi seçicinin markalanması prosedurunu nəzərdə tuturmu?
20. Seçici seçki bülletenini doldurduqdan sonra, seçki bülleteninin səyyar seçki qutusuna hansı formada yerləşdirilməsi tələb olunur?
21. Seçkilərdə/səsvermədə iştirak etmiş seçicilərin sayının müəyyən edilməsi hansı tezliklə həyata keçirilir və hansı qaydada aparılır?
22. Hansı hallarda məntəqə seçki komissiyası səsvermə binasında olmaq hüququ olan şəxsin uzaqlaşdırılması barədə qərar qəbul edir və bu tədbirin həyata keçirilməsi üçün hansı prosedur nəzərdə tutulmuşdur?
23. Hansı hallarda polis əməkdaşlarının səsvermə binasına daxil olması mümkündür?

# 05
# Səsvermə nəticələrinin məntəqə seçki komissiyası tərəfindən yekunlaşdırılması prosesi necə həyata keçirilir

Məntəqə seçki komissiyasının sədrinin rəhbərliyi ilə, məntəqə seçki komissiyasının bütün üzvləri məsuliyyət daşıyırlar ki:

- Səsvermə nəticələrinin yekunlaşdırılması prosesi mütəşəkkil və şəffaf şəkildə həyata keçirilsin
- Səsvermə binasında olmaq hüququ olan şəxslər üçün səsvermənin yekunlaşdırılması prosesində maneəsiz müşahidə aparmaq şəraiti yaradılsın
- Elektron cihazlarla hesablanmış ilkin səsvermə nəticələrinin operativ şəkildə yuxarı seçki komissiyasına təqdim olunması və seçki məntəqəsində bu məlumatın açıqlanması təmin edilsin
- Seçki bülletenlərinin əl ilə sayılması prosesində funksiyalar vicdanla yerinə yetirilsin və məlumatların dəqiqliyinə əməl edilsin
- Səsvermənin yekun nəticələrinin yekun protokolu ilə təsdiqlənməsi, protokolun vaxtında yuxarı seçki komissiyasına təqdim edilməsi və seçki məntəqəsində protokolun ictimailəşdirilməsi təmin edilsin.

## Seçki məntəqəsinin bağlanması

Səsvermə prosesi saat 20:00-da başa çatır və səsvermə binası bağlanır. Həmin vaxta qədər növbədə dayanan seçicilərin səs vermək hüququ var. Komissiya sədrinin tapşırığı ilə komissiya üzvlərindən biri növbədə olan seçicilərin ad və soyadlarını qeydə alır, onların sayını komissiya sədrinə bildirir, komissiyanın katibi isə bu say barədə məlumatı qeydlər kitabçasına daxil edir. Sonuncu seçici səsini verdikdən sonra səsvermə başa çatmış elan edilir. Komissiya sədrinin göstərişi ilə qeydiyyatçılar seçicilərin verifikasiyasını təsdiqləyən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş şəffaf olmayan qutuların yarıqlarını möhürləyirlər.

Səsvermə başa çatan kimi, komissiyanın katibi qeydlər kitabçasının 26-cı və 27-ci səhifələrində səslərin sayılması zamanı səsvermə binasında olan komissiya üzvlərinin adını, soyadını (seçən/təyin edən subyektin və əlaqə telefon nömrəsinin göstərilməsi ilə), eləcə də səsvermə binasında olma hüququ olan digər şəxslərin adını, soyadını (təmsil etdiyi təşkilatın və ya seçki subyektinin və əlaqə telefon nömrəsinin göstərilməsi ilə) qeyd edir. Bu şəxslər qeydlər kitabında qeydiyyatı imza ilə təsdiqləyirlər.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

ხმების დათვლის დროს კენჭისყრის შენობაში
მყოფ პირთა მონაცემები

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის დასახელება | ტელეფონი | ხელმოწერა |
|---|---|---|---|---|---|
| 1 | ნინო ნინოშვილი | თავმჯდომარე | საოლქო საარჩევნო კომისია | 551526936 | ნ. ნინოშვილი |
| 2 | გიორგი გიორგაძე | მოადგილე | საოლქო საარჩევნო კომისია | 558956321 | გ. გიორგაძე |
| 3 | დავით დავითულია | მდივანი | საოლქო საარჩევნო კომისია | 599896523 | დ. დავითულია |
| 4 | სალომე სოლომონიძე | კომისიის წევრი | პოლიტიკური პარტია 111 | 598784631 | ს. სოლომონიძე |
| 5 | გიორგი ბერიძე | ადგილ. დამკვირვებელი | ააიპ „მომავლის იმედი" | 599814523 | გ. ბერიძე |
| 6 | ნუცა ყორცაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 119 | 571120595 | ნ. ყორცაძე |

Səsvermə binası bağlandıqdan sonra, səsvermə binasında yerləşmək hüququ olan şəxslərin istənilən vaxt binaya daxil olmaq və binanı tərk etmək hüququ var.

Səsvermə başa çatan kimi, məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermə nəticələrini yekunlaşdırmağa hazırlaşırlar. Bu məqsədlə onlar aşağıdakı prosedurları ardıcıllıqla həyata keçirirlər:



*Verifikasiya aparatlarında verifikasiya (yoxlama) prosesinin başa çatdırılması*

*Səslərin sayılması üçün elektron aparatlar vasitəsilə səyyar seçki qutusundakı seçki bülletenlərinin əsas seçki qutusuna yerləşdirilməsi*

*Səslərin sayılması üçün elektron aparatlar vasitəsilə səsvermənin ilkin nəticələrinin əldə edilməsi*



*Səslərin sayılması proseduru üçün seçki məntəqəsinin hazırlanması, sayıcıların müəyyən edilməsi*

*Əsas seçki qutusu açılmadan əvvəl seçki sənədlərinin möhürlənməsi*

*Əsas seçki qutusunun açılması, seçki bülletenlərinin sayılması/möhürlənməsi*



*əsvermə nəticələrinin yekun protokolunun tərtib olunması və ictimaiyyətə açıqlanması*

*Qeydiyyat jurnalının bağlanması*
*Qeydlər kitabının bağlanması/möhürlənməsi*
*Komissiyanın xüsusi möhürünün möhürlənməsi*

*Seçki sənədlərinin, elektron avadanlıqların və digər inventarın dairə seçki komissiyasına təhvil verilməsi*

## Verifikasiya aparatlarında verifikasiya (yoxlama) prosesinin başa çatdırılması

Səsvermə prosesi başa çatdıqdan sonra məntəqə seçki komissiyasının sədri:

- ✔ Fərdi kod/paroldan istifadə etməklə aparatlarda verifikasiya (yoxlama) prosesini bağlayır. Verifikasiya prosesi bağlandıqdan dərhal sonra aparatlarda avtomatik rejimdə seçkilərdə/səsvermədə iştirak etmiş seçicilərin ümumi sayını göstərən yekun qəbzlər/hesabatlar çap olunur;
- ✔ Komissiyanın katibi ilə birlikdə seçicilərin ümumi sayını əks etdirən yekun qəbzi/hesabatı imzalayır və onu saxlanılması üçün komissiyanın katibinə təhvil verir.

Məntəqə seçki komissiyasının sədr müavini isə bu prosesə paralel olaraq, elektron vasitələrlə aparılmış səsvermənin auditinin təsdiq formasında müvafiq qeydləri aparır.

*Sxem N6. Aparatlarda verifikasiya prosesinin başa çatdırılma mərhələlərinin illüstrasiyası*




{I}

*Verifikasiya prosesini başa çatdırmaq üçün komissiya sədri “Menyuya qayıt” düyməsini sıxır.*

**მენიუში დაბრუნება**




{II}

*Menyuda sədr “Verifikasiyanın bağlanması” düyməsini sıxır.*

**ვერიფიკაციის დახურვა**




{III}

*Sədr “Verifikasiyanın bağlanması” düyməsini sıxır.*

**ვერიფიკაციის დახურვა**




{IV}

*Verifikasiya prosesinin bağlanması məqsədilə komissiya sədri fərdi kod/parol daxil edir.*




{V}

*Verifikasiya prosesi bağlanan kimi, aparatlarda yekun hesabatlar avtomatik rejimdə çap olunur.*




{VI}

*Komissiya sədri "Cihazı söndür" düyməsini sıxmaqla aparatları söndürür.*

**გამორთეთ მოწყობილობა**

Məntəqə seçki komissiyasının katibi, seçkilərin növlərinə uyğun olaraq müəyyən edilmiş səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin ümumi sayını nümunəvi protokollara və səsvermə gününün qeydlər kitabına daxil edir (səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin ümumi sayının müəyyən edilməsi qaydasının izahı bu təlimatın 46-cı və 47-ci səhifələrində verilmişdir).

## Səyyar seçki qutusunun açılması

Seçki məntəqəsi bağlandıqdan sonra ilk olaraq səyyar seçki qutusu açılır. Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olma hüququna malik şəxslərin iştirakı ilə səyyar seçki qutusunun möhürünün bütövlüyünü yoxlayır.

Seçki məntəqəsində birdən çox səyyar seçki qutusundan istifadə edildiyi halda, hər bir qutunun möhürünün bütövlüyü yoxlanılır.

Səyyar seçki qutusunun möhürünün bütövlüyü pozulduğu halda, komissiya isə bunun qanunun tələblərinin pozulmasına səbəb olmadığını müəyyənləşdirərsə, komissiyanın qərarı ilə səsvermə nəticələrinin yekunlaşdırılması prosesi davam etdirilir (bu hal dərhal dairə seçki komissiyasına bildirilir). Əks halda, səyyar seçki qutusu möhürlənir və komissiyanın qərarı ilə birlikdə dərhal dairə seçki komissiyasına təhvil verilir.

Prosesə paralel olaraq, komissiyanın sədri səsvermə binasında olma hüququna malik şəxslərə izah edir ki, səslərin sayılması üçün xüsusi elektron aparatlarda səsvermə prosesinin bağlanması və səsvermənin ilkin nəticələri haqqında məlumatın əldə olunması məqsədilə, komissiya səyyar seçki qutusunda olan seçki bülletenlərinin səslərin sayılması üçün xüsusi elektron aparata yerləşdirilməsi prosesinə başlayır. Komissiyanın sədri və ya onun tərəfindən müəyyən edilmiş komissiya üzvü səyyar seçki qutusundakı bülletenlərinin çərçivə-zərflərindən metal klipsləri açır və seçki bülletenlərini müəyyən olunmuş qaydaya uyğun olaraq səslərin sayılması üçün xüsusi elektron aparata yerləşdirir — elə şəkildə ki, seçicinin seçiminin görünməsi mümkün olmasın.

Aşağıdakı hallarda, əgər:

- ✔ Səyyar seçki qutusundan çıxarılan çərçivə-zərfdə müəyyən edilmiş saydan artıq seçki bülletenləri aşkar olunarsa, bu cür seçki bülletenləri ayrıca saxlanılır, onların üzərinə etibarsızlıq səbəbi olaraq "artıq bülleten" qeyd olunur və əsas seçki qutusunda aşkarlanmış etibarsız bülletenlərin sayına əlavə olunur.
- ✔ Səslərin sayılması üçün xüsusi elektron aparat səyyar seçki qutusundan çıxarılmış seçki bülletenini geri qaytararsa, həmin bülleten eyni və ya başqa elektron aparata yenidən daxil edilə bilər. Əgər seçki bülleteninin yenidən qaytarılması halı təkrar olarsa, seçicinin seçiminin görünmədiyi şəkildə ayrıca saxlanılır və sonra əsas seçki qutusundan sayılma məqsədilə çıxarılan digər bülletenlərlə qarışdırılır.

Yuxarıda qeyd olunan halların baş verdiyi təqdirdə, komissiyanın katibi bu faktlarla bağlı akt tərtib edir, həmin aktı komissiyanın sədri ilə birlikdə komissiyanın bütün üzvləri və olduğu halda, xüsusi qrupun üzvləri imzalayır. Komissiyanın katibi bu aktı məntəqə seçki komissiyasının qeydlər kitabında saxlayır.

Əgər səyyar seçki qutusunda başqa seçki məntəqəsi üçün nəzərdə tutulmuş və ya mənşəyi müəyyən edilməmiş seçki bülletenləri aşkar edilərsə, komissiya sədri və ya məntəqə seçki komissiyasının üzvü bu cür bülletenləri ayrıca saxlayır. Başqa məntəqə üçün nəzərdə tutulmuş seçki bülletenləri etibarsız sayılır, ayrıca paketə yığılır, onların sayı səsvermə nəticələrinin yekun protokolunda göstərilmir və yalnız qeydlər kitabında qeyd olunur.

## Səsvermənin ilkin nəticələri haqqında məlumat

Səyyar seçki qutusunda olan seçki bülletenlərinin əsas seçki qutusuna yerləşdirilməsi proseduru başa çatdıqdan sonra, komissiyanın sədri ardıcıl olaraq aşağıdakıları həyata keçirir:

- ✔ Səslərin sayılması üçün xüsusi elektron aparatlarda səsvermə prosesinin bağlanması;
- ✔ Aparatlarda səsvermənin ilkin nəticələrinin sinxronlaşdırılması;
- ✔ İlkin nəticələrin konsolidasiyası bir aparatda həyata keçirilir və bu proses başa çatdıqdan dərhal sonra həmin aparatdan səsvermənin ilkin nəticələrini əks etdirən iki nüsxə çap olunur.

Səsvermənin ilkin nəticələrinin çıxarışı çap edildikdən sonra, komissiya sədri həmin çıxarışın çap edildiyi xüsusi elektron səs sayma aparatına yaddaş kartını yerləşdirir, konsolidasiya olunmuş məlumatları köçürən kimi dərhal həmin xüsusi elektron səs sayma aparatını (digər aparat/aparatlarla birlikdə) söndürür.

Aparatlarda səsvermə prosesinin bağlanması, nəticələrin sinxronlaşdırılması və konsolidasiyası mərhələlərinin illüstrasiyası 7 nömrəli sxemdə təqdim olunmuşdur.

Xüsusi elektron aparatdan çap olunmuş ilkin nəticələr barədə konsolidasiya olunmuş çıxarışlar komissiya sədri tərəfindən komissiyanın katibi ilə birlikdə imzalanır və komissiyanın möhürü ilə təsdiqlənir. Çıxarışın bir nüsxəsi komissiyanın katibində saxlanılır, ikinci nüsxə isə ictimaiyyətə tanışlıq məqsədilə görünən yerdə asılır. Bununla yanaşı, ilkin nəticələrə dair çıxarışla birlikdə görünən yerdə, məntəqə seçki komissiyası tərəfindən tərtib olunmuş həmin aktın təsdiqlənmiş surəti də (əgər belə akt mövcuddursa) asılmalıdır. Bu akt, səyyar seçki qutusundan çıxarılmış seçki bülletenlərinin əsas seçki qutusuna yerləşdirilməsi prosesi zamanı ortaya çıxan hallarla bağlı tərtib edilir (aparat səyyar seçki qutusundan

çıxarılmış seçki bülletenini geri qaytardısa; səyyar seçki qutusundan çıxarılmış xüsusi çərçivə-zərfdə müəyyən olunmuş saydan artıq seçki bülleteninin aşkar edilməsi halı baş veribsə).

Məntəqə seçki komissiyasının sədr müavini isə paralel olaraq, elektron vasitələrlə həyata keçirilən səsvermənin auditinin təsdiq formasında müvafiq qeydlər aparır.

Əgər səslərin sayılması üçün xüsusi elektron aparatdan səsvermənin ilkin nəticələrinə dair çıxarış çap olunmazsa və ya texniki qüsurlu çıxarış çap olunarsa, bu halda komissiyanın sədri çap prosesində texniki xidmətin təmin olunması məqsədilə elektron avadanlıqlar üzrə texniki mütəxəssisə müraciət etməlidir. Bundan sonra səslərin sayılması və səsvermənin nəticələrinə dair yekun protokolun tərtib olunması prosedurları davam etdirilir.

*Sxem N7. Səsvermə prosesinin bağlanması, nəticələrin sinxronlaşdırılması və konsolidasiyası mərhələlərinin illüstrasiyası*



{I}

*Aparatın korpusunda yerləşən yarığa xüsusi açarı yerləşdirməklə, komissiya sədri proqramın idarəetmə panelinə daxil olur.*





{II}

*Aparatlarda idarəetmə panelinin yüklənməsi başlayır və bu, bir neçə saniyə davam edir.*



{III}

*Komissiya sədri səsvermə prosesini bağlamaq məqsədilə aparatın ekranında "Sədr" düyməsini seçir.*






{IV}

*Komissiya sədri aparatlara fərdi kod/parol daxil edir.*




{V}

*Komissiya sədri aparatların ekranında “Səsvermə prosesinin bağlanması” seçimini edir və bağlanmanı təsdiqləmək üçün fərdi kodu/parolu təkrar daxil edir.*

**კენჭისყრის პროცესის დახურვა**




{VI}

Səsvermə prosesinin bağlanmasının tamamlandığını komissiya sədri “Tamamlandı” düyməsini sıxmaqla təsdiqləyir.

**დასრულდა**




{VII}

*Məlumatların ümumiləşdirilməsi (sinxronlaşdırılması) məqsədilə aparatlar arasında məlumat mübadiləsi aparmaq üçün komissiya sədri “Nəticələrin sinxronlaşdırılması” düyməsini seçir.*

**შედეგების სინქრონიზაცია**



{VIII}

*Komissiya sədri aparatlara fərdi kodu/parolu daxil edir.*



{IX}

*Aparatlar avtomatik rejimdə sinxronizasiya prosesini həyata keçirirlər (məlumatların mübadiləsini).*




{X}

*Sinxronizasiya prosesi başa çatdıqdan sonra komissiyanın sədri nəticələrin konsolidasiyasını həyata keçirir.*

**შედეგების კონსოლიდაცია**




{XI}

*Ekranda neçə aparatın məlumatlarının konsolidasiya edildiyi barədə bildiriş görünəcək. Sonra, avtomatik rejimdə, iki nüsxədə, seçkilərin ilkin nəticələri barədə çıxarış çap olunacaq.*



{XII}

*İlkin nəticələr barədə çıxarışın çap edilməsindən sonra, komissiyanın sədri, səsvermənin nəticələrinin konsolidasiyasını həyata keçirən aparatın müvafiq bölməsinə avtomatik rejimdə nəticələrin konsolidasiya edilmiş məlumatları yazılan xarici yaddaş kartını qoşur.*




{XIII}

*Komissiyanın sədri nəticələri xarici yaddaş kartına köçürdükdən sonra "Söndür" düyməsinə basır.*

**გამორთვა**




{XIV}

*Komissiyanın sədri "bəli" düyməsini sıxmaqla aparatları söndürür.*

**დიახ**

Məntəqə seçki komissiyasının sədri planşet vasitəsilə seçkilərin ilkin nəticələri barədə məlumatları Mərkəzi Seçki Komissiyasına göndərir. Bu məqsədlə, o, seçkilərin ilkin nəticələri barədə konsolidasiya edilmiş məlumatların saxlanıldığı yaddaş kartını planşetə qoşur.

Əgər seçki məntəqəsində mobil rabitə və internetə fasiləsiz çıxış yoxdursa, bu halda komissiya sədri planşetə yüklənmiş aplikasiya vasitəsilə seçkilərin ilkin nəticələri barədə məlumatları seçki binasının xarici perimetrindən Mərkəzi Seçki Komissiyasına göndərə bilər.

Əgər planşetdə texniki nasazlıq (məsələn, ilkin nəticələrin ötürülməsi üçün nəzərdə tutulmuş aplikasiya ilə bağlı problem və ya başqa nasazlıq) baş verərsə və bu nasazlığı aradan qaldırmaq mümkün olmazsa, bu halda, ilkin nəticələrə dair konsolidasiya olunmuş çıxarışın fotosu komissiya sədrinin müəyyən etdiyi şəxsin əlində olan digər texniki vasitə (məsələn: smartfon) ilə dairə seçki komissiyası tərəfindən əvvəlcədən müəyyən olunmuş şəxsə və ya Mərkəzi Seçki Komissiyasının müvafiq səlahiyyətli şəxsinə göndərilir.

*Sxem N8. Səsvermənin ilkin nəticələri haqqında məlumatların MSK-ya göndərilmə prosesinin illüstrasiyası*



{I}

*Düyməni basmaqla komissiya sədri planşetdə yüklənmiş proqramı aktivləşdirir.*






{II}

*Planşetdə proqramın yüklənməsi başlayır və bir neçə saniyə davam edir.*




{III}

*Komissiya sədri xüsusi, fərdi kod/parol daxil edir və bununla prosesi başladığını təsdiqləyir.*




{IV}

*Komissiya sədri "Göndərməyə başla" düyməsini sıxır.*

**გადაცემის დაწყება**



{V}

*Komissiya sədri yaddaş kartını planşetə qoşur və "Göndər" düyməsini basmaqla məlumatları ötürməyə başlayır.*

**გადაცემა**




{VI}

*Əvvəlcədən konsolidasiya olunmuş nəticələrin ötürülməsi prosesi bir neçə saniyə davam edir.*




{VII}

*Komissiya sədri „Bitir“ düyməsini sıxmaqla planşetdə nəticələrin ötürülməsi prosesini yekunlaşdırır.*




## Səslərin sayılma proseduru üçün seçki məntəqəsinin hazırlanması

Seçki komissiyasının sədri səsvermə otağını səslərin hesablanması proseduru üçün hazırlayır. Seçki binasında olma hüququna malik şəxslərin iştirakı ilə, seçki komissiyasının sədri komissiya üzvlərindən püşkatma yolu ilə ən azı dörd sayıcı seçir.

Komissiya üzvləri arasında vəzifələrin püşkatma yolu ilə paylanması proseduru:

- ✔ Komissiyanın sədri püşkatmaya qatılacaq komissiya üzvlərinin sayını nəzərə alaraq bərabər ölçülü kağızları hazırlar. Bu kağızlardan müvafiq sayda olanlarında eyni yazı vasitəsilə paylanacaq vəzifənin adı qeyd edilir: „Birinci sayıcı “, „İkinci sayıcı “, „Üçüncü sayıcı “, „Dördüncü sayıcı”.
- ✔ Komissiya sədri imzası və komissiyanın xüsusi möhürü ilə püşkatma kağızlarını yoxlayır, onları elə qatlayır ki, mətnin oxunması mümkün olmasın və masaya qoyur.
- ✔ Püşkatmada iştirak edən komissiya üzvləri tək-tək püşkatma kağızlarını götürürlər.

Komissiya katibi, komissiya üzvləri arasında funksiyaların bölünmə nəticələrini qeydlər kitabçasının 3-cü səhifəsinə yazır.

Komissiyanın sədri, seçki məntəqəsində olan seçki subyektlərinin nümayəndələrindən püşkatma yolu ilə ən çoxu 2 nümayəndə seçir, onlar seçki komissiyasının üzvləri ilə birlikdə düzgün və/və ya etibarsız seçki bülletenlərinin hesablanmasında iştirak edirlər. Püşkatmada, komissiya üzvləri tərəfindən təyin olunan nümayəndələri olan seçki subyektlərinin nümayəndələri iştirak etmirlər.

Müşahidəçilər öz sıralarından qarşılıqlı razılaşma yolu ilə ən çoxu iki müşahidəçi seçirlər. Əgər müşahidəçilər razılığa gələ bilmirlərsə, bu halda komissiyanın sədri püşkatma yolu ilə iki müşahidəçini təyin edir.

Komissiya katibi qeydlər kitabçasının 3-cü səhifəsində düzgün və ya etibarsız seçki bülletenlərinin hesablanmasında iştirak edən nümayəndələrin və müşahidəçilərin məlumatlarını da qeyd edir.

*Qeydlər kitabının müvafiq səhifəsinin nümunəsi*

ხმების დათვლის პროცედურისთვის საუბნო საარჩევნო კომისიის წევრთა შორის წილისყრით ფუნქციათა განაწილების შედეგები

| № | კომისიის წევრის ფუნქცია | კომისიის წევრის სახელი, გვარი | კომისიის წევრის ხელმოწერა |
|---|---|---|---|
| 1. | I მთვლელი | ინა ინაშვილი | ი. ინაშვილი |
| 2. | II მთვლელი | ლალი ლალიაშვილი | ლ. ლალიაშვილი |
| 3. | III მთვლელი | დავით დავითაძე | დ. დავითაძე |
| 4. | IV მთვლელი | ნიკოლოზ ნიკვაშვილი | ნ. ნიკვაშვილი |

| ფუნქცია | სახელი, გვარი |
|---|---|
| ნამდვილი ან/და ბათილი საარჩევნო ბიულეტენების დათვლის პროცესში მონაწილე **2 წარმომადგენელი** | კარლო კახანაძე |
| | დავით დევდარიანი |
| **2 მეთვალყურე**, რომელიც აკვირდება დათვლის მთელ პროცედურას | გიორგი ბერიძე |
| | ნიკოლოზ ელიაშვილი |

Sayıcılar səsvermə üçün ayrılmış masada elə yer tuturlar ki, qarşı tərəfdə, iki metr məsafədə seçki komissiyasının üzvləri və seçki binasında olma hüququna malik şəxslər yerləşsin (onlar seçki bülletenlərinin çeşidlənməsi və hesablanması prosesini görmək qabiliyyətinə malik olmalıdırlar).

Sayıcılardan sonra müşahidəçilər və seçki subyektlərinin nümayəndələrindən seçilən şəxslər dayanır. Komissiyanın sədri elə bir yer tutur ki, bütün sayıcılara nəzarət edə bilsin.

Komissiya sədri sayıcıların masasının yanına aşağıdakıları aparmalıdır:

- ✔ Səyyar seçki qutusu siyahısını (əgər belə siyahı varsa);
- ✔ Korlanmış seçki bülletenlərini;
- ✔ Qeydiyyatçılarda olan istifadə olunmamış seçki bülletenlərini;
- ✔ Əsas seçki qutularını.

Əsas seçki qutusu açılmamışdan əvvəl komissiyanın katibi aşağıdakı sənədləri ayrıca paketlərə yerləşdirir və möhürləyir:

- ✔ Səyyar seçki qutusu siyahısını (əgər belə siyahı varsa);
- ✔ Korlanmış seçki bülletenlərini;
- ✔ Qeydiyyatçılarda olan istifadə olunmamış seçki bülletenləri (paketə yerləşdirilməzdən əvvəl komissiyanın katibi bu bülletenlərin küncünü kəsir).

Komissiyanın katibi hər bir paket üzərində dairənin və məntəqənin adı və nömrəsini, seçki sənədinin növünü qeyd edir. Möhürlənmiş paketlərin möhür zolağında sayıcılar və komissiya sədri imza atırlar.

Səyyar seçki qutusu siyahısı və istifadə olunmamış/korlanmış seçki bülletenləri möhürləndikdən sonra komissiyanın katibi aşağıdakı halların sayını qeydə alır: seçicinin üzünün təqdim olunan sənəddə və/və ya seçici siyahısında olan fotoşəklə uyğun gəlməməsi hallarının sayı, eləcə də qeydlər kitabına əlavə olunmuş sənədlərin sayı (bu məlumatlar qeydlər kitabına daxil edilir).

Komissiyanın katibi bu sənədləri möhürləyir, möhürlənmiş paket üzərində seçki məntəqəsinin adı, nömrəsi və sənədlərin növü göstərilir və katib paketi imzalayır.

## Əsas seçki qutularının açılması, seçki bülletenlərinin sayılması/möhürlənməsi

Məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququna malik şəxslərin iştirakı ilə əsas seçki qutularının möhürlərinin bütövlüyünü yoxlayır və əsas seçki qutularını açır.

Əgər seçki qutusunun möhürünün bütövlüyü pozulmuş olarsa, lakin komissiya hesab edərsə ki, bu hal qanunvericiliyin tələblərinin pozulmasına səbəb olmayıb, komissiyanın qərarı ilə səsvermə nəticələrinin cəmləşdirilməsi proseduru davam etdirilir (bu fakt dərhal dairə seçki komissiyasına bildirilir). Əks halda, seçki qutusu möhürlənir və komissiyanın qərarı ilə birlikdə dərhal dairə seçki komissiyasına təhvil verilir.

Sayıcılar əsas seçki qutularından çıxarılan seçki bülletenlərini bir-birinə qarışdırırlar və seçki bülletenlərini çeşidlərə ayırır və saymağa başlayırlar.

Sayıcılar əvvəlcə proporsional seçki sistemi əsasında keçirilən seçkilərin nəticələrini çeşidləyir və sayırlar, sonra mer (bələdiyyə başçısı) seçkilərinin nəticələrini, sonda isə majoritar seçki sistemi əsasında keçirilən seçki nəticələrini sayırlar.

Seçki bülletenlərinin çeşidlənməsi və sayılması məqsədilə, birinci sayıcı seçki bülletenini götürür, səslərin kimə verildiyini elan edir və bülletenləri seçki subyektləri üzrə ikinci və üçüncü sayıcıya ötürür, etibarsız bülletenləri isə (əgər varsa) dördüncü sayıcıya verir.

Sayıcılar etibarlı və ya etibarsız seçki bülletenlərini qanunvericiliklə müəyyən edilmiş əsaslara uyğun olaraq çeşidləyirlər. Bu əsaslara görə:

- ✔ Müvafiq növ seçkilər üçün yalnız nümunəyə uyğun olaraq, müvafiq sütunda xüsusi markerlə yalnız bir seçki subyektinin adının qarşısındakı dairənin (dairənin iç hissəsi) rəngləndiyi və ya işarələndiyi seçki bülletenləri etibarlı hesab olunur, seçki bülletenində başqa cür qeyd və ya yazının olmasına baxmayaraq;
- ✔ Müvafiq növ seçkilər üçün nümunəyə uyğun olan seçki bülletəni etibarsız hesab olunur, əgər:
  – müvafiq sütunda bir neçə subyektin qarşısındakı dairə (dairənin iç hissəsi) rənglənib və ya işarələnibsə;
  – müvafiq sütunda heç bir subyektin qarşısındakı dairə (dairənin iç hissəsi) boyanmayıb və ya işarələnməyibsə.

Yuxarıda qeyd olunan ardıcıllığa uyğun olaraq, sayıcılar, ilk növbədə, proporsional seçki sistemi əsasında keçirilmiş seçkilərin nəticələrini çeşidləyirlər. Seçki bülletenləri çeşidləndikdən sonra, komissiya sədri sayıcılara göstəriş verir ki, seçki subyektlərinə (partiyalara) aid olan bülletenləri/səsləri və etibarsız seçki bülletenlərini (əgər varsa) saysınlar. Komissiya sədri hər bir seçki subyekti (partiya) tərəfindən toplanmış səslərin sayını elan edir. Komissiyanın katibi hesablanmış məlumatları munisipalitetin proporsional seçki sistemi əsasında keçirilmiş seçkilərinin səsvermə nəticələrinin nümunəvi protokoluna və qeydlər kitabına daxil edir.

Nümunəvi protokola və qeydlər kitabına məlumatlar daxil edilməzdən əvvəl, komissiya sədri komissiyanın katibi ilə birlikdə hesablanmış məlumatların düzgünlüyünü yoxlayır.

Əgər seçki subyektlərinin topladığı səslərin və etibarsız seçki bülletenlərinin ümumi sayı səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin sayından çox olarsa, komissiya sədri səs sayanlara məlumatların yenidən hesablanması barədə göstəriş verir.

Proporsional seçki sistemi ilə keçirilmiş seçkilərin nəticələri hesablandıqdan sonra, eyni prinsipə əsaslanaraq, sayıcılar əvvəlcə mer seçkilərinin, daha sonra isə majoritar sistemlə keçirilmiş seçkilərin nəticələrini çeşidləyir və sayırlar. Komissiya sədri merliyə namizədlərin və sakrebulo üzvlüyünə majoritar namizədlərin topladıqları səslərin sayını elan edir. Komissiya sədri komissiyanın katibi ilə birlikdə hesablanmış məlumatların düzgünlüyünü yoxlayır. Komissiyanın katibi mer seçkiləri və ya majoritar seçki sistemi ilə keçirilmiş sakrebulo seçkilərinin səsvermə nəticələrinin məlumatlarını nümunəvi protokola və qeydlər kitabına daxil edir.

Nümunəvi protokola və qeydlər kitabına məlumatlar daxil edilməzdən əvvəl aşağıdakı nəticə nəzərə alınmalıdır:

Merin (bələdiyyə başçısı) seçkiləri üçün etibarsız seçki bülletenlərinin sayının müəyyən edilməsi məqsədilə, komissiya sədri sayıcılar tərəfindən müvafiq seçki üçün etibarsız hesab edilərək ayrılmış seçki bülletenlərinin ümumi sayından səsvermə günü qeyd kitabında qeyd olunmuş, xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş, lakin mer seçkilərində iştirak hüququ olmayan seçicilərin ümumi sayını çıxmalıdır.

Majoritar seçki sistemi əsasında keçirilən sakrebulo seçkiləri üçün etibarsız seçki bülletenlərinin sayının müəyyən edilməsi məqsədilə, komissiya sədri sayıcılar tərəfindən müvafiq seçki üzrə etibarsız hesab edilərək ayrılmış seçki bülletenlərinin ümumi sayından səsvermə günü qeydlər kitabında qeyd olunmuş, xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş, lakin majoritar seçki sistemi əsasında keçirilən sakrebulo seçkilərində iştirak hüququ olmayan seçicilərin ümumi sayını çıxmalıdır.

Seçki bülletenlərinin sayılması proseduru tamamlandıqdan sonra, səs sayanlar bütün seçki bülletenlərini bir yerdə qablaşdırmalı və möhürləməlidir. Paket üzərində dairə/seçki məntəqəsinin adı və nömrəsi, möhürlənmiş zənbildə olan seçki bülletenlərinin sayı qeyd edilməlidir. Möhürlənmiş paketi səs sayanlar və komissiya sədri imzalayır. Prosedurun icrasına görə məsuliyyət seçki məntəqəsinin sədri daşıyır.

## Səsvermə nəticələrinin ümumiləşdirilmiş protokolunun tərtibi

Seçki məntəqəsinin səsvermə nəticələri yalnız Seçki Məcəlləsi ilə müəyyən edilmiş qaydalara uyğun olaraq tərtib edilmiş məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolları ilə təsdiqlənir.

Məntəqə seçki komissiyası üç növ yekun protokolunu müəyyən edir:

- ✔ Proporsional sistem əsasında keçirilmiş sakrebulo seçkilərinin səsvermə nəticələrinin yekun protokolu;
- ✔ Majoritar seçki sistemi ilə keçirilmiş sakrebulo seçkilərinin səsvermə nəticələrinin yekun protokolu;
- ✔ Mer seçkilərinin səsvermə nəticələrinin yekun protokolu.

Məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolları qoruyucu işarələrə malik kağızda çap olunur və protokola fərdi nömrə verilir. Məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokollarında çap şəklində aşağıdakı məlumatlar göstərilir:

- ✔ Seçkilərin adı və səsvermə tarixi;
- ✔ Seçki dairəsinin nömrəsi və adı;
- ✔ Seçki məntəqəsinin nömrəsi;
- ✔ №1 sütunda – ümumi seçici sayı;
- ✔ №2 sütunda – alınan seçki bülletenlərinin sayı;
- ✔ Seçki subyektlərinin adı (nömrələmə ilə);
- ✔ Protokolun tərtib olunduğu ay və il.

Səsvermə prosesinin tamamlanmasından sonra, komissiyanın katibi komissiyanın sədri ilə razılaşdırmaqla, səsvermə nəticələrinin yekun protokolunu doldurur və aşağıdakı məlumatları daxil edir:

- ✔ №3 sütunda – xüsusi siyahıda olan seçicilərin sayı;
- ✔ №4 sütunda – səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı saat 12:00 və 17:00-da;
- ✔ №5 sütunda – səsvermədə/seçkilərdə iştirak edən seçicilərin ümumi sayı (majoritar seçki sistemi ilə keçirilmiş sakrebulo seçkiləri/mer seçkiləri üzrə tərtib edilmiş səsvermə nəticələrinin yekun protokollarına seçkilərdə iştirak edən seçicilərin ümumi sayına xüsusi siyahı ilə iştirak etmiş və seçkilərə qatılmaq hüququ olmayan seçicilərin sayı daxil edilmir);
- ✔ №6 sütunda – etibarsız sayılan seçki bülletenlərinin sayı (majoritar seçki sistemi ilə keçirilmiş sakrebulo seçkiləri/mer seçkiləri üzrə tərtib edilmiş səsvermə nəticələrinin yekun protokollarına etibarsız bülletenlərin sayına xüsusi siyahı ilə iştirak etmiş və seçkilərə qatılmaq hüququ olmayan seçicilərin sayı daxil edilmir);
- ✔ Seçki subyektlərinə verilən səslərin sayı.
- ✔ Komissiyanın xüsusi möhürünün nömrəsi.

№3, №4, №5, №6 sütunlarına, eləcə də subyektlərə verilən səslərin sayı sütunlarında verilən dörd bölməli xanalara, katib sonuncu (dördüncü) xanaya təkliklər mərtəbəsinin rəqəmini, üçüncü xanaya onluqlar mərtəbəsənin rəqəmini, ikinci xanaya yüzlüyü və birinci xanaya minlik rəqəmini daxil etməlidir;

Əgər müvafiq məlumatların sütununda boş xana/xanalar qalarsa, komissiyanın katibi mütləq boş xanaya/xanalara "X" simvolunu daxil etməlidir.

*Səsvermə nəticələrinin ümumiləşdirilmiş protokolunun doldurulma nümunəsi*

| | | | | | |
|---|---|---|---|---|---|
| 5 | არჩევნებში მონაწილე ამომრჩეველთა საერთო რაოდენობა | 1 | 2 | 3 | 6 |

ერთეულების თანრიგის ციფრი
ათეულების თანრიგის ციფრი
ასეულების თანრიგის ციფრი
ათასეულების თანრიგის ციფრი

| | | | | | |
|---|---|---|---|---|---|
| 6 | ბათილად მიჩნეული საარჩევნო ბიულეტენების რაოდენობა<br>(სხვა უბნისთვის განკუთვნილი ბათილი საარჩევნო ბიულეტენების რაოდენობა არ ემატება) | X | X | X | 4 |

შეაქვს სიმბოლო „X"

Məntəqə seçki komissiyasının bütün üzvləri səsvermə nəticələrinin yekun protokollarına imza atmalıdırlar. Bu, onların seçki məntəqəsində iştirakını təsdiqləyir. Əgər məntəqə seçki komissiyasının üzvü məntəqə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolunda/protokollarında daxil edilmiş məlumatlarla razılaşmırsa, bu halda protokola/protokollara yazılı şəkildə fərqli rəy əlavə etmək hüququna malikdir (səsvermə nəticələrinin yekun protokolunda/protokollarında xüsusi ayrılmış sütunda komissiya üzvünün razılaşmadığı məlumat qeyd olunur və imza ilə təsdiqlənir). Fərqli rəy bildirildikdə belə, komissiya üzvü səsvermə nəticələrinin yekun protokoluna/protokollarına imza atmalıdır, bu, komissiya üzvü üçün nəzərdə tutulmuş müvafiq sütunda olur.

> Məntəqə seçki komissiyası tərəfindən tərtib edilmiş və məntəqə seçki komissiyasının üzvlərinin əksəriyyəti tərəfindən imza atılan səsvermə nəticələrinin yekun protokolu hüquqi qüvvəyə malikdir.

Səsvermə nəticələrinin yekun protokollarında onların tərtib edildiyi tarix və vaxt (saat və dəqiqə) da qeyd olunmalıdır.




Səsvermə nəticələrinin yekun protokolları məntəqə seçki komissiyasının xüsusi möhürü ilə təsdiqlənir. Komissiyanın katibi səsvermə nəticələrinin yekun protokollarını qeydiyyata alır, qeydiyyat jurnalında çıxmış sənədlər hissəsinə daxil edir.

> Səsvermə nəticələrinin yekun protokoluna/protokollarına daxil edilmiş məlumatların üzərində düzəliş etmək qadağandır.

Əgər səsvermə nəticələrinin yekun protokolunda/protokollarında №3, №4, №5, №6 sütunlarında, həmçinin namizədlər üçün verilən səslərin sayında məlumatların daxil edilməsi zamanı səhv buraxılıbsa, səhvin düzəldilməsi üçün səsvermə nəticələrinin yekun protokolunda/protokollarında müvafiq məlumatın qarşısında "Düzəliş edilib" qeydi edilir və düzəliş protokolu/protokolları tərtib olunur.

Komissiyanın katibi düzəliş protokollarını komissiyanın sədri ilə razılaşdıraraq tərtib edir, burada aşağıdakı məlumatlar daxil edilir:

- ✔ Seçki dairəsinin nömrəsi və adı;
- ✔ Seçki məntəqəsinin nömrəsi;
- ✔ Düzəlişin daxil edildiyi səsvermənin nəticələrinin yekun protokolunun müvafiq sütunun nömrəsi; həmin sütunda düzəldiləcək rəqəm və onun əvəzinə yazılmalı olan rəqəm;
- ✔ Məlumatlarında düzəliş edilən seçki subyektinin adı;
- ✔ Həmin qrafada düzəldiləcək rəqəm və onun əvəzinə yazılmalı olan rəqəm.

*Səsvermə nəticələrinin yekun protokolu və düzəliş protokolunun nümunəsi*


1 ერთიან სიაში ამომრჩეველთა რაოდენობა 2700
2 მიღებული საარჩევნო ბიულეტენების რაოდენობა 2700
111 კანდიდატი
112 კანდიდატი
113 კანდიდატი
114 კანდიდატი
115 კანდიდატი
116 კანდიდატი


შესწორების ოქმი

Məntəqə seçki komissiyasının bütün iştirakçı üzvləri düzəliş protokoluna/protokollarına imza atmalıdılar. Düzəliş protokolu/protokolları seçki komissiyasının xüsusi möhürü ilə təsdiqlənəcək. Komissiyanın katibi düzəliş protokollarını qeydiyyata alır, qeydiyyat jurnalında əvvəlki sənədlər hissəsinə daxil edir və səsvermə günü qeydlər kitabçasına əlavə edir. Düzəliş protokolu müvafiq səsvermə nəticələrinin yekun protokoluna əlavə olunur.

> Məntəqə seçki komissiyasının xüsusi möhürü möhürləndikdən və üzvlərin hər biri tərəfindən imzalandıqdan sonra səsvermə nəticələrinin yekun protokolunun düzəliş protokolunu tərtib etmək qadağandır.

Əgər səsvermə nəticələrinin yekun protokolunun/protokollarının doldurulması zamanı komissiyanın xüsusi möhürünün nömrəsi, səsvermə nəticələrinin yekun protokolunun tərtibatı tarixi/saatı ilə bağlı səhv buraxılıbsa, ya da səsvermə nəticələrinin yekun protokolu komissiyanın xüsusi möhürü ilə təsdiqlənməyibsə və bu formada fotosurət verilibsə, komissiyanın katibi izahat yazmalıdır.

## Səsvermə nəticələrinin yekun protokollarının ictimailəşdirilməsi

Məntəqə seçki komissiyası səsvermə nəticələrinin yekun protokollarının foto surətini dərhal, protokollar doldurulduqdan sonra, əlindəki texniki vasitə (planşet) ilə Mərkəzi Seçki Komissiyasına göndərməlidir. Bu məqsədlə, Seçki Komissiyasının sədri planşetə yüklənmiş aplikasiya vasitəsilə fotosurətləri çəkib, Mərkəzi Seçki Komissiyasına göndərir.

> Əgər planşetdə texniki nasazlıq (MSK-nın dairə seçki komissiyasının səsvermə nəticələrinin yekun protokolunun göndərilməsi üçün istifadə etdiyi aplikasiyada problem) baş verərsə və nasazlığın aradan qaldırılması mümkün olmazsa, səsvermənin nəticələrinin yekun protokolları digər seçki sənədləri ilə birlikdə məntəqə seçki komissiyasının səlahiyyətli şəxsləri tərəfindən dairə seçki komissiyasına təhvil verilir və dairə seçki komissiyası həmin protokolların elektron idarəetmə sisteminə yüklənməsini təmin edir.
>
> Əgər seçki məntəqəsində mobil rabitə və internetlə fasiləsiz bağlantı yoxdursa, bu halda səsvermənin nəticələrinə dair yekun protokolların surətləri MSK-ya səsvermə binasının xarici perimetrindən təqdim oluna bilər və ya səsvermənin nəticələrinə dair yekun protokollar məntəqə seçki komissiyasının səlahiyyətli şəxsləri tərəfindən digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına təqdim olunur və dairə seçki komissiyası onların elektron idarəetmə sisteminə yüklənməsini təmin edir.

Eləcə də planşet vasitəsilə MSK-ya düzəliş protokolunun/protokollarının (əgər varsa) fotosurəti, komissiya üzvlərinin fərqli rəyinə dair sənədin (əgər varsa) fotosurəti, yekun protokolla/protokollarla bağlı komissiya üzvünün/komissiya katibinin izahatının (əgər varsa) fotosurəti, eləcə də səyyar seçki qutusundan bülletenlərin əsas seçki qutusuna yerləşdirilməsi zamanı aşkar edilmiş hallar əsasında komissiya tərəfindən tərtib edilmiş aktın (əgər varsa) fotosurəti göndərilir.

*Sxem N9. MSK-ya göndərilməsi üçün yekun protokolların fotosurətlərinin göndərilməsi prosesinin mərhələlərinin illüstrasiyası – proporsional seçki sistemi əsasında keçirilmiş seçkilərin səsvermə nəticələrinə dair yekun protokolun surətinin göndərilməsi nümunəsi*




{I}

*Komissiya sədri proqram aktivləşdirildikdən sonra, proqramın menyusuna daxil olur.*




{II}

*Komissiya sədri "protokol" düyməsinə basır.*




{III}

*Komissiya sədri "Proporsional" düyməsini sıxır.*



{IV}

*Komissiya sədri fotoaparat işarəsi olan düyməni sıxır.*




{V}

*Komissiya sədri “Şəkil çək” düyməsini sıxır və aparat vasitəsilə protokolun fotosurətini çəkir.*




{VI}

*Komissiya sədri protokolun fotosurətini göndərmək məqsədilə “Göndər” düyməsini sıxır.*

Komissiya səsvermə nəticələrinin yekun protokollarının fotosurətlərini ictimaiyyətə tanıtdırmaq üçün asmalıdır. Məntəqə seçki komissiyası səsvermə nəticələrinin yekun protokollarının və (mövcud olduğu halda) düzəliş protokolunun/protokollarının, eləcə də (mövcud olduğu halda) komissiya üzvlərinin əlavə edilmiş yazılı fərqli rəylərinin fotosurətlərini, tələb edildikdə, səsvermə binasında olma hüququna malik olan bütün şəxslərə dərhal təqdim etməlidir.

Səsvermənin nəticələrinə dair yekun protokolların və düzəliş protokol(lar)ının (əgər varsa) fotosurətləri komissiyanın xüsusi möhürü ilə təsdiq olunmalı, komissiyanın sədrinin və katibinin imzaları ilə rəsmiləşdirilməlidir. Fotosurətləri qəbul edən şəxs səsvermə günü qeydlər kitabçasında və qeydiyyat jurnalında imza atmaqla sənədləri qəbul etdiyini təsdiq edir.

Səsvermə nəticələrinə dair yekun protokolun və müəyyən olunmuş qaydada təsdiqlənmiş onun fotosurətinin eyni hüquqi qüvvəsi vardır.

Səsvermə nəticələrinin yekun protokolları və düzəliş protokolu/protokolları ilə bağlı komissiya üzvlərinin izahatları (əgər varsa), tələb əsasında, dairə seçki komissiyası tərəfindən tələbdən 2 gün müddətində təqdim edilir.

Komissiyanın katibi, yekun protokolların surətləri təqdim edildikdən sonra qeydiyyat jurnalını və qeydlər kitabçasını bağlayır. Bu məqsədlə, qeydiyyat jurnalında və qeydlər kitabçasında sonuncu qeyddən sonra komissiyanın katibi “Bağlandı” qeydi aparır, tarixi və dəqiq vaxtı göstərir, bu qeydi komissiya sədrilə birlikdə imzalayır və komissiyanın xüsusi möhürü ilə təsdiqləyir.

*Qeydlər kitabının bağlanma nümunəsi*

№ 112 საარჩევნო ოლქი №112.07 საარჩევნო უბანი

შემაჯამებელი ოქმის ფოტოასლის მიღების დადასტურება

| № | სახელი, გვარი | სტატუსი | წარმდგენის (ორგანიზაციის) დასახელება | ხელმოწერა |
|---|---|---|---|---|
| 1 | ნიკა გელაშვილი | ადგილ. დამკვირვებელი | ააიპ „დემოკრატია ქნია" | ნ. გელაშვილი |
| 2 | ნუცა ყოლცაძე | მედია | ტელევიზია „ნათელი მზერა" | ნ. ყოლცაძე |
| 3 | კარლო კაპანაძე | სუბიექტის წარმომადგენელი | პოლიტიკური პარტია 199 | კ. კაპანაძე |
| | | | | |
| | | | ნ. ნინოშვილი | |
| | | | დ. დავითულიანი | |
| | | | დახურულია 26.10.2024 22:00 სთ | |

## Seçki sənədlərinin, elektron aparatların və digər inventarın dairə seçki komissiyasına təhvil verilməsi

Dairə seçki komissiyasına seçki sənədlərinin, elektron aparatların və digər inventarın təhvil verilməsi məqsədilə məntəqə seçki komissiyası möhürləyir:

- ✔ Qeydlər kitabçasını və onunla birlikdə olan ərizə/şikayətləri (əgər varsa);
- ✔ Məntəqə seçki komissiyasının xüsusi möhürünü.

> Səsvermə nəticələrinə dair yekun protokollar və qeydiyyat jurnalı möhürlənmir.

Qeydlər kitabçasının möhürlənmiş paketi dairə seçki komissiyasının sədri və komissiyanın katibi tərəfindən imzalanır. Komissiyanın xüsusi möhürü ilə bağlanmış paketi isə iclasda iştirak edən bütün komissiya üzvləri imzalayır.

Möhürləmə proseduru başa çatdıqdan sonra, məntəqə seçki komissiyasının sədri/sədr müavini və ya komissiyanın katibi dairə seçki komissiyasına aşağıdakıları təqdim edir:

- ✔ Səsvermə nəticələrinə dair yekun protokolları, düzəliş protokolunu/protokollarını (mövcuddursa) və fərqli rəy sənədini (mövcuddursa);
- ✔ Qeydiyyat jurnalını və onunla birlikdə:
    - Məntəqə komissiyası üzvlərinin/komissiya katibinin yazılı izahatlarını (mövcuddursa);
    - Seçicilərin verifikasiya aparatlarından çap olunmuş ilkin hesabatları və aparatdan çap edilmiş yekun hesabatı;
    - Səslərin sayılması üçün xüsusi elektron aparatlardan çap olunmuş “sıfır çıxarışları” və həmin aparatlardan əldə edilmiş ilkin nəticələrə dair konsolidasiya olunmuş çıxarışı;
    - Qeydiyyatçılar tərəfindən doldurulmuş, seçicilərin xüsusi siyahısında olan şəxslərin sayını göstərən uçot formalarını.
- ✔ Qeydlər kitabçasının möhürlənmiş paketini;
- ✔ Elektron vasitələrlə keçirilmiş səsvermə auditinin təsdiqinə dair doldurulmuş formanı.

Hər bir növ seçki sənədinin təhvil verilməsi zamanı müvafiq təhvil-təslim aktı/aktları tərtib olunur və həmin akt/aktlar səlahiyyətli şəxslər tərəfindən imzalanır.

Məntəqə seçki komissiyasının sədri/sədr müavini və elektron avadanlıqlar üzrə texniki mütəxəssis, digər möhürlənmiş sənədlərlə birlikdə, təhvil-təslim aktı əsasında, aşağıdakıları dairə seçki komissiyasının anbarında dairə seçki komissiyasının səlahiyyətli şəxsinə təhvil verməlidir:

- ✔ Seçicilərin verifikasiya aparatlarını, səslərin sayılması üçün xüsusi elektron cihazları, planşeti;
- ✔ Verifikasiya aparat(lar)ından çap edilmiş seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş möhürlənmiş qutuları.

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Əgər səsvermənin bitdiyi vaxt (20:00-da) növbədə dayanan seçicilər varsa, məntəqə seçki komissiyası necə hərəkət edir?
2. Seçicilərin verifikasiya aparatında verifikasiya prosesinin başa çatdırılması hansı prosedura əsasən baş verir və kim cavabdehdir?
3. Səyyar seçki qutusu hansı məqsədlə və hansı prosedura əsasən açılır?
4. Əgər səyyar seçki qutusundan çıxarılan xüsusi çərçivə-zərfdə birdən çox seçki bülleteni aşkarlanarsa, nə baş verir?
5. Əgər səslərin sayılması üçün xüsusi elektron aparat səyyar seçki qutusundan çıxarılan seçki bülletenini geri qaytararsa, nə baş verir?
6. Səslərin sayılması üçün xüsusi elektron aparatlarda səsvermə prosesinin başa çatdırılması hansı prosedura əsasən baş verir və kim cavabdehdir?
7. Konsolidasiya olunmuş çıxarış nədir və orada göstərilən məlumatlar Mərkəzi Seçki Komissiyasına necə göndərilir?
8. Məntəqə seçki komissiyasının sədri sayıcıları necə müəyyən edir?
9. Məntəqə seçki komissiyasının sədri seçki bülletenlərinin sayılmasında iştirak hüququ olan seçki subyektlərinin nümayəndələrini necə müəyyən edir?
10. Qeydiyyatçılarda olan istifadə olunmamış seçki bülletenləri hansı prosedura əsasən möhürlənir?
11. Aşağıdakı hallarda nə baş verir:
    - Səyyar seçki qutusunun möhürünün bütövlüyü pozularsa?
    - Əsas seçki qutusunun möhürünün bütövlüyü pozularsa?
12. Nümunəyə uyğun seçki bülleteni hansı halda etibarsız hesab olunur?
13. Mer seçkiləri və majoritar seçki sistemi əsasında keçirilən sakrebulo seçkiləri üçün etibarsız bülletenlərin sayı hansı qayda əsasında müəyyən edilir?
14. Seçki sənədləri/inventarının möhürlənməsi zamanı kim imza atır:
    - Səyyar seçki qutusu siyahısının möhürlənmiş paketinin zolağına?
    - Seçki bülletenlərinin möhürlənmiş paketinin zolağına?
    - Komissiyanın xüsusi möhürünün möhürlənmiş paketinin zolağına?
    - Qeydlər kitabçasının möhürlənmiş paketinin zolağına?
15. Səsvermə nəticələrinə dair yekun protokolları kim imzalayır?
16. Səsvermənin yekun protokolu hansı halda hüquqi qüvvəyə malik hesab olunur?
17. Əgər yekun protokolun doldurulması zamanı namizədlərə verilmiş səslərin sayı sütununda səhv edilərsə, nə baş verir?
18. Əgər yekun protokolun tərtib olunma tarixi/vaxtı ilə bağlı səhv edilərsə, nə baş verir?
19. Məntəqə seçki komissiyası səsvermənin yekun protokollarının ictimaiyyətə açıqlığını necə təmin edir?
20. Məntəqə seçki komissiyası səsvermə binasında olmaq hüququ olan şəxslərə protokolların surətini hansı qayda əsasında verir?
21. Məntəqə seçki komissiyasından kim dairə seçki komissiyasına möhürlənmiş seçki sənədləri/inventarın təhvilinə cavabdehdir?

# 06
# Məntəqə seçki komissiyası səsvermə günü daxil olan müraciət və şikayətlərə necə reaksiya verir

Məntəqə seçki komissiyası seçki qanunvericiliyinin dəqiq və ardıcıl şəkildə icrası ilə seçki mübahisələrinin qarşısının alınmasını və ya onlara reaksiyanı təmin edir. Məntəqə seçki komissiyası, sədrin rəhbərliyi ilə səsvermə günü verilən müraciət və şikayətlərlə bağlı aşağıdakıları təmin edir:

- prosesin şəffaf və qərəzsiz aparılmasını;
- maraqlı şəxslər üçün ərizələrin/şikayətlərin təqdim edilməsi və qeydiyyat prosedurunun izah edilməsini;
- ərizələri/şikayətləri təqdim edən şəxslərlə etik ünsiyyətin qurulmasını;
- ərizə və şikayətlərlə bağlı faktların və halların araşdırılmasını və müvafiq reaksiyanın verilməsini.

## Səsvermə günü müraciətlərin/şikayətlərin təqdim edilməsi və qeydiyyatı

Səsvermə və səslərin sayılması prosedurlarının pozulması ilə bağlı məntəqə seçki komissiyasına müraciət etmək hüququna malik şəxslərdir: seçki subyektinin nümayəndəsi, yerli müşahidə təşkilatının müşahidəçisi.

Səsvermə günü saat 06:45-dən əsas seçki qutusunun açılmasına qədər olan müddətdə, səsvermə prosedurunun pozulması ilə bağlı ərizə/şikayət səlahiyyətli şəxs tərəfindən pozuntu aşkar edildiyi andan etibarən tərtib olunmalıdır. Səslərin sayılması və səsvermə nəticələrinin yekunlaşdırılması prosedurları zamanı baş vermiş pozuntu ilə bağlı ərizə/şikayət (səsvermənin nəticələrinin yenidən nəzərdən keçirilməsi və ya etibarsız sayılması tələbi ilə) isə əsas seçki qutusunun açılmasından səsvermənin nəticələrinin yekun protokollarının tərtibinə qədər olan müddətdə tərtib olunmalıdır.

Seçki subyektinin nümayəndəsinin və yerli müşahidəçi təşkilatın müşahidəçisinin səsvermə günü məntəqə seçki komissiyasının sədrinə, sədr müavininə və ya komissiyanın katibinə ərizə/şikayət təqdim etmək hüququ vardır. Komissiyanın katibi qeydiyyat jurnalında və qeydlər kitabında qeydiyyata alır, ərizəçiyə/şikayətçiyə isə müvafiq ərizənin/şikayətin komissiya tərəfindən qəbul edildiyi tarix, saat və qeydiyyat nömrəsi göstərilən (öz imzası ilə təsdiq etdiyi) arayışı təqdim edir.

Səsvermə binasında olmaq hüququna malik şəxslər şikayətin qeydiyyatı zamanı hər hansı bir pozuntu qeydə aldıqları halda, həmin şikayətin qeydiyyatı ilə bağlı qərarı məntəqə seçki komissiyası qəbul edir.

Seçki subyektinin nümayəndəsinin və ya müşahidəçinin səsvermə günü seçki prosedurlarına dair irad, şikayət və qeydlərini səsvermə gününün qeydlər kitabının 10-cu və sonrakı səhifələrində yazmaq hüququ vardır. Bu halda, həmin şəxs qeydlər kitabçasında soyadını, adını və ünvanını (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsinə əsasən) göstərməlidir.

Səsvermə binasında olma hüququna malik şəxsin səsvermə günü qeydlər kitabında şikayət, irad və ya etiraz qeyd etməsinə mane olmağa heç kimin hüququ yoxdur.

## Səsvermə günü təqdim edilmiş ərizə və ya şikayətlərdə qüsurların müəyyən olunması qaydası

Əgər ərizədə/şikayətdə aşağıdakılar yoxdursa, bu halda, məntəqə seçki komissiyasının katibi, komissiyanın sədri və ya komissiya sədrinin müavini nöqsan barədə ərizəçiyə məlumat verir və onun doldurulması üçün ağlabatan vaxt təyin edir:

- ✔ Ərizənin/şikayətin verilmə tarixi və vaxtı;
- ✔ Ərizəçinin/şikayətçinin adı, soyadı və qeydiyyat yeri;
- ✔ Seçki məntəqəsinin nömrəsi;
- ✔ Şahid olduqda – onun adı, soyadı və qeydiyyat yeri.

Ərizəçi/şikayətçi müəyyən edilmiş müddət ərzində eyni ərizəni/şikayəti təqdim etməklə nöqsanı tamamlayır və ya yeni ərizə təqdim etməklə (həmin nöqsanların göstərildiyi məlumatlardan ibarət olan) aradan qaldıra bilər. Komissiyanın katibi qeydiyyat jurnalında "nöqsan" qeydi aparır. Bu qeydin qarşısında ərizə/şikayəti təqdim edən şəxs və komissiyanın müvafiq rəhbər şəxsi imza atır.

Nöqsanın aradan qaldırılması müddəti tərəflərin razılığı əsasında müəyyən edilir. Tərəflər razılığa gəlmədikdə, müddəti birtərəfli qaydada ərizəni/şikayəti qəbul edən şəxs müəyyən edir.

Nöqsanın tamamlandığı halda komissiyanın katibi, komissiya sədri və ya komissiya sədrinin müavini qeydiyyat jurnalında "tamamlanıb" qeydi aparır və nöqsanın aradan qaldırıldığı dəqiq tarix və saatı göstərir. Qeydin qarşısında ərizə/şikayəti təqdim edən şəxs və komissiyanın müvafiq rəhbər şəxsi imza atır.

Nöqsan müəyyən edilmiş müddət ərzində doldurulmadıqda, ərizəyə/şikayətə baxılmır.

## Səsvermə günü ərizələrə/şikayətlərə baxılması

Məntəqə seçki komissiyasının sədri/komissiya ərizəyə/şikayətə dərhal münasibət bildirməli və mövcud pozuntunu aradan qaldırmalıdır. Ərizə/şikayətdə göstərilən pozuntu aradan qaldırıldıqda, səsvermə gününün qeydlər kitabında komissiyanın katibi "pozuntu aradan qaldırılıb" yazır və dəqiq vaxtı göstərir.

*Qeydlər kitabçasının müvafiq səhifəsinin nümunəsi*

კენჭისყრის პროცედურების დარღვევის შესახებ
განცხადების/საჩივრის რეგისტრაცია

| რეგის-ტრაცი-ის № | განცხადების/საჩივრის არსი | განცხადებაზე/საჩივარზე რეაგირება ზუსტი დროის მითითებით (დარღვევა აღმოფხვრილია) |
|---|---|---|
| 2 | [illegible] | [illegible] 17:00 საათი. |

Əgər məntəqə seçki komissiyasının sədri və ya komissiya pozuntunu aradan qaldırmaz və ya ərizəyə/şikayətə başqa formada reaksiya verməkdən imtina edərsə, müşahidəçiyə, seçki subyektinin nümayəndəsinə və ya həmin nəzarət təşkilatının digər müşahidəçisinə, seçki subyektinin digər nümayəndəsinə hüquq verilir ki, seçki məntəqəsi açılandan (06:45-dən) əsas seçki qutusu açılana qədər aşkarlanan pozuntuları dərhal müvafiq dairə seçki komissiyasına şikayət etsin (dairə seçki komissiyası pozuntunu aradan qaldırmaq üçün müvafiq tədbirlər görməlidir).

Əgər məntəqə seçki komissiyasının sədri/komissiyası qanun pozuntusunu aradan qaldırmazsa və ya digər formada səsvermənin və səslərin sayılmasının nəticələrinin yekunlaşdırılması prosedurlarında baş vermiş pozuntularla bağlı verilmiş ərizəyə/şikayətə cavab verməkdən imtina edərsə, müşahidəçi/seçki subyektinin nümayəndəsi və ya həmin müşahidə təşkilatının digər müşahidəçisi/seçki subyektinin digər nümayəndəsi məntəqə seçki komissiyasının/ məntəqə seçki komissiyasının sədrinin hərəkətlərini 3 təqvim günü ərzində müvafiq dairə seçki komissiyasına şikayətləndirə bilər (dairə seçki komissiyası ərizəyə/şikayətə təqdim edildiyi gündən etibarən 4 təqvim günü ərzində baxır).

Məntəqə seçki komissiyası təqdim olunmuş ərizəni/şikayəti aşağıdakı hallarda baxılmamış hesab edir və ərizənin/şikayətin baxılmadan saxlanılması haqqında qərar çıxarır:

- ✔ Ərizə/şikayət səlahiyyətsiz şəxs tərəfindən tərtib edildikdə;
- ✔ Ərizə/şikayətdə pozuntunun mahiyyəti və törədilmə vaxtı göstərilmədikdə;
- ✔ Ərizə/şikayət qanunla müəyyən olunmuş müddətdə və qaydanın pozulması ilə təqdim edildikdə;
- ✔ Təyin olunmuş müddət ərzində təqdim olunmuş ərizədəki/şikayətdəki nöqsanlar aradan qaldırılmadıqda.

## Biliyin qiymətləndirilməsi üçün suallar

1. Səsvermə günü ərizə/şikayətlə məntəqə seçki komissiyasına kim müraciət edə bilər?
2. Məntəqə seçki komissiyasından kim və hansı halda ərizə/şikayətdə nöqsan müəyyən edir?
3. Hansı halda məntəqə seçki komissiyası səsvermə günü ərizə/şikayəti baxılmamış saxlayır?

# Əlavə N1

## Elektron aparatların quraşdırılması haqqında informasiya sənədi

### Seçicilərin verifikasiya aparatlarının quraşdırılması

Verifikasiya aparatının düzgün işləməsi üçün uyğun bölməyə termal kağız düzgün istiqamətdə yerləşdirilməlidir.





İstənilən bərk əşya və ya dırnaqla termal kağızın səthində cızıq çəkməklə termal kağızın düzgün yerləşdirilməsini yoxlamaq olar (səthdə iz qalmalıdır).

Hər bir verifikasiya aparatını elektrik şəbəkəsinə qoşmaq üçün cihazın arxa tərəfində yerləşən porta qida bloku və adapter kabeli birləşdirilməlidir.

Adapterin kabeli isə elektrik mənbəyinə qoşulmalıdır (elektrik mənbəyinə çatdırmaq üçün, lazım gəldikdə, elektrik uzadıcıdan istifadə olunur).


Verifikasiya aparatı


Qida bloku


Adapter kabeli


Elektrik uzadıcı

Elektrik mənbəyinə qoşulduqdan sonra verifikasiya aparatı enerji yığmağa başlayır.



Aparatın sağ tərəfində yerləşən işıqların yanıb-sönməsi cihazın enerji yığdığını göstərir.
İşıqların üstündə yerləşən kiçik düyməni barmaqla basmaqla aparatın enerji yığma səviyyəsi haqqında məlumat almaq olar.

Aparatları bir-biri ilə birləşdirmək (sinxronizasiya etmək) üçün hər bir şəbəkə kabelinin bir ucu hər aparatın yan tərəfində yerləşən müvafiq porta qoşulmalıdır, digər ucu isə hab-a birləşdirilməlidir (hab aparatların bir-biri ilə əlaqəsini/sinxronizasiyasını təmin edir).



Şəbəkə kabeli



Hab



Şəbəkə kabeli

Habı elektrik şəbəkəsinə qoşmaq üçün:

- ✔ Habın qida bloku haba birləşdirilməlidir;
- ✔ Habın qida bloku fasiləsiz enerji mənbəyinə (UPS) qoşulmalıdır;
- ✔ Fasiləsiz enerji mənbəyi (UPS) isə elektrik mənbəyinə qoşulmalıdır (elektrik mənbəyinə çatdırmaq üçün, lazım gəldikdə, elektrik uzadıcıdan istifadə olunur).



Habın qida bloku



Fasiləsiz enerji mənbəyi (UPS)

Aparatlar elə yerləşdirilməlidir ki, kabellərlə mexaniki təmas onların düzgün işləməsinə problem yaratmasın.

## Səslərin sayılmasının xüsusi aparatlarının quraşdırılması

Səslərin sayılması aparatının düzgün işləməsi üçün uyğun bölməyə termal kağız düzgün istiqamətdə yerləşdirilməlidir.



İstənilən bərk əşya və ya dırnaqla termal kağızın səthində cızıq çəkməklə Termal kağızın düzgün yerləşdirilməsini yoxlamaq olar (səthdə iz qal malıdır).

Hər bir səs sayma aparatını elektrik şəbəkəsinə qoşmaq üçün:

- ✔ Aparatın arxa tərəfində yerləşən porta qida bloku və adapter kabeli qoşulmalıdır;
- ✔ Adapter kabeli fasiləsiz enerji mənbəyinə (UPS) qoşulmalıdır;
- ✔ Fasiləsiz enerji mənbəyi (UPS) isə elektrik mənbəyinə qoşulmalıdır (elektrik mənbəyinə çatdırmaq üçün, lazım gəldikdə, elektrik uzadıcıdan istifadə olunur).

   

Səs sayma aparatı  Qida bloku  Adapter kabeli  Fasiləsiz enerji mənbəyi (UPS)

Elektrik mənbəyinə qoşulduqdan sonra səs sayma aparatının arxa tərəfində işıq yanır.



Elektrik mənbəyinə düzgün qoşulma, aparatın arxa tərəfindəki işığın yanması ilə göstərilir.

Aparatları bir-biri ilə birləşdirmək (sinxronizasiya etmək) üçün şəbəkə kabelinin bir ucu bir aparatın yan tərəfindəki müvafiq porta qoşulmalıdır, digər ucu isə ikinci aparatın yan tərəfindəki müvafiq porta qoşulmalıdır (şəbəkə kabeli aparatları bir-biri ilə əlaqələndirir və məlumatların sinxronizasiyasını təmin edir).

  

Şəbəkə kabeli

Üç səs sayma aparatı yerləşdiriləcək seçki məntəqələrində aparatları bir-biri ilə birləşdirmək (sinxronizasiya etmək) üçün, hər üç aparatın şəbəkə kabelinin bir ucu aparatların yan tərəfindəki müvafiq porta qoşulmalıdır, digər ucu isə habda (Router) yerləşən porta qoşulmalıdır (hab aparatları bir-biri ilə əlaqələndirir və məlumatların sinxronizasiyasını təmin edir).

    

Şəbəkə kabeli  Hab

Aparatlar elə yerləşdirilməlidir ki, kabellərlə mexaniki təmas onların düzgün işləməsinə mane olmasın.

# Əlavə N2

## Xüsusi seçici siyahısına daxil edilmiş seçicilərin sayının uçot forması

[არჩევნების დასახელება] [კენჭისყრის თარიღი]

ფორმა №5-3.28.01, გან. №60/2025

N_______________ საარჩევნო ოლქის

**ა ქ ტ ი**

N_______________ საარჩევნო უბანი

რეგისტრატორი N ________

| ამომრჩეველი არ მონაწილეობს: | |
|---|---|
| მერის არჩევნებში (მონიშნეთ "X"-ით) | მაჟორიტარულ არჩევნებში (მონიშნეთ "X"-ით) |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |
| | |

| | ამომრჩეველი არ მონაწილეობს: | |
|---|---|---|
| | მერის არჩევნებში (მონიშნეთ "X"-ით) | მაჟორიტარულ არჩევნებში (მონიშნეთ "X"-ით) |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| | | |
| ჯამი: | | |

✍ პუნქტში "მერის არჩევნებში" მონიშნული „X" სიმბოლოები ჯამდება. მერის არჩევნების შემაჯამებელი ოქმისთვის:

- არჩევნებში მონაწილეთა საერთო რაოდენობის გამოსაანგარიშებლად, „X" სიმბოლოების ჯამი უნდა გამოაკლდეს პროპორციული არჩევნებისთვის დადგენილ არჩევნებში მონაწილეთა საერთო რაოდენობას;
- ბათილი ბიულეტენების რაოდენობის გამოსაანგარიშებლად, „X" სიმბოლოების ჯამი უნდა გამოაკლდეს მერის არჩევნებისთვის მთვლელების მიერ ბათილად გადადებული ბიულეტენების რაოდენობას.

✍ პუნქტში "მაჟორიტარულ არჩევნებში" მონიშნული „X" სიმბოლოები ჯამდება. მაჟორიტარული არჩევნების შემაჯამებელი ოქმისთვის:

- არჩევნებში მონაწილეთა საერთო რაოდენობის გამოსაანგარიშებლად, „X" სიმბოლოების ჯამი უნდა გამოაკლდეს პროპორციული არჩევნებისთვის დადგენილ არჩევნებში მონაწილეთა საერთო რაოდენობას;
- ბათილი ბიულეტენების რაოდენობის გამოსაანგარიშებლად, „X" სიმბოლოების ჯამი უნდა გამოაკლდეს მაჟორიტარული არჩევნებისთვის მთვლელების მიერ ბათილად გადადებული ბიულეტენების რაოდენობას.

# Əlavə N3

## Elektron vasitələrdən istifadə olunmadan səsvermə prosesinin davam etdirilməsi

Bu əlavədə seçki məntəqəsi komissiyasının aşağıdakı hallarda nəzərə almalı olduğu prosedur fərqlilikləri və müvafiq qaydalar əks olunmuşdur:

- Səsvermə prosesi seçicilərin verifikasiyası cihazları olmadan davam etdirildikdə;
- Səsvermə prosesi xüsusi elektron səs sayma cihazı olmadan davam etdirildikdə.

**Elektron vasitələrdən istifadə olunmadan səsvermə prosesinin davam etdirilməsi barədə qərar qəbul etməzdən əvvəl nəzərə alınmalı məsələlər**

Səsvermə prosesinin gedişində seçicilərin verifikasiyası və səslərin sayılması üçün xüsusi elektron aparatlarda texniki nasazlıq aşkar edildikdə, məntəqə seçki komissiyasının sədri səsvermə prosesinin müvəqqəti dayandırılması barədə qərar qəbul edir və bu barədə dərhal dairə seçki komissiyasına məlumat verməlidir. Texniki nasazlıq aradan qaldırıldıqdan dərhal sonra səsvermə aparat/aparatlar vasitəsilə davam etdirilir.

> Əgər səsvermə prosesi seçicilərin verifikasiyası və səslərin sayılması üçün bir neçə xüsusi elektron aparatın köməyi ilə həyata keçirilirdisə və texniki nasazlıq səbəbindən yalnız onların bir hissəsinin fəaliyyəti dayandırılıbsa, belə halda səsvermə prosesi qalan işlək vəziyyətdə olan seçicilərin verifikasiyası və səslərin sayılması üçün xüsusi elektron aparat/aparatlar vasitəsilə davam etdirilir.

Əgər seçicilərin verifikasiyası/səslərin sayılması üçün xüsusi elektron aparatlarla səsvermənin davam etdirilməsi mümkün olmazsa, məntəqə seçki komissiyasının katibi müvafiq aparatdan/aparatlardan istifadə edilmədən səsvermənin davam etdirilməsi barədə akt tərtib edir və bu barədə müvafiq qeyd qeydlər kitabının 32-ci səhifəsinə daxil edilir.

*Qeydlər kitabçasının  müvafiq səhifəsinin nümunəsi*

კომისიის თავმჯდომარის გადაწყვეტილება კენჭისყრის შეჩერებისა და ხმის ელექტრონული მთვლელი აპარატის/აპარატების გამოყენების გარეშე კენჭისყრის გაგრძელების თაობაზე

| შეჩერების მიზეზი | დრო | ხელმოწერა |
|---|---|---|
| | : | |

კომისიის თავმჯდომარის გადაწყვეტილება კენჭისყრის შეჩერებისა და ამომრჩეველთა ელექტრონული რეგისტრაციის აპარატის/აპარატების გამოყენების გარეშე კენჭისყრის გაგრძელების თაობაზე

| შეჩერების მიზეზი | დრო | ხელმოწერა |
|---|---|---|
| | : | |

Verifikasiya aparatlarından istifadə olunmadan seçicilərin səsvermə prosesinin davam etdirilməsi

## Səsvermə prosesi

Verifikasiya aparatları olmadan seçicilərə səsvermədə iştirak xidmətinin göstərilməsi məqsədilə, məntəqə seçki komissiyasının sədri səsvermə binasında iş mühitinin uyğunlaşdırılmasını təmin edir. Bu məqsədlə komissiya sədri:

- ☐ Verifikasiya aparatından həmin vaxta qədər səsvermədə iştirak etmiş seçicilərin sayını/aktivliyini əks etdirən qəbzi/hesabatı çap edir (əgər hər hansı aparat texniki baxımdan buna imkan verirsə) və saxlanılması üçün onu komissiyanın katibinə təhvil verir.
- ☐ Dairə seçki komissiyasının nümayəndəsinə göstəriş verir ki, qeydiyyatçıların masalarından verifikasiya aparatlarını yığışdırsın və aparatlara aid qutularda müəyyən olunmuş qaydada saxlasın.
- ☐ Seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş şəffaf olmayan qutuların yarığını möhürləyir və onları ayrıca saxlayır.
- ☐ Lazım gəldikdə, qeydiyyatçıların sayının artırılması barədə qərar qəbul edir və bu funksiyanın icrasını komissiya üzvünə/üzvlərinə həvalə edir.
- ☐ Qeydiyyatçılara seçki komissiyası üçün nəzərdə tutulmuş seçicilər siyahılarını (masaüstü siyahılar fotoşəkillərlə) və qeydiyyatçı xətkeşlərini təqdim edir. Xüsusi seçici siyahısı da qeydiyyatçılardan birinə verilir (belə biri varsa).
- ☐ Qeydiyyatçılara göstəriş verilir ki, qeydiyyat masalarının üzərinə onlara təqdim olunmuş siyahılara uyğun olaraq seçicilərin sıra nömrələri və soyadlarının əlifba ardıcıllığında yerləşdirilməsini əks etdirən məlumatları yapışdırsınlar.

**I. Səsvermə otağına daxil olarkən seçici axına nəzarət edən şəxsin yanında markalamanın yoxlanılması prosedurundan keçir.**



Axının tənzimləyicisi olan komissiya üzvü:

- ✔ Səsvermə binasına daxil olan seçicilərin axınını tənzimləyir;
- ✔ Seçicidən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməsini xahiş edir (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsinin elektron forması, elektron olmayan şəxsiyyət vəsiqəsi və ya Gürcüstan vətəndaşının pasportu);
- ✔ Ultrabənövşəyi fənərlə seçicinin əlində markalanmanın olub-olmadığını yoxlayır.

Yoxlama nəticələrinə əsasən:

- ✔ Əgər markalamanı yoxlayan xüsusi alət müəyyən edərsə ki, seçicinin əlində artıq markalanma var, bu zaman onun səsvermədə iştirakı qadağan edilir. Axının tənzimləyicisi seçiciyə səsvermə otağına buraxılmamaqla bağlı imtinanın səbəbini izah edir və seçici ilə bağlı məlumatı qeydlər kitabına daxil etməsi üçün komissiyanın katibinə ötürür.
- ✔ Əgər seçici səsvermədə iştirak üçün müəyyən edilmiş tələblərə cavab verirsə, axının tənzimləyicisi ona seçicilər siyahısında soyadının ilk hərfinə uyğun olan qeydiyyat masasının yanına yaxınlaşmağı tapşırır və yalnız o halda səsvermə otağına buraxır ki, həmin masa yanında seçici üçün nəzərdə tutulmuş qeydiyyat yerində ikidən artıq seçici olmasın.

**Seçicinin qeydiyyat prosedurunun təsviri.** Qeydiyyatçı seçicidən şəxsiyyətini təsdiq edən sənədi təqdim etməyi xahiş edir. Qeydiyyatçı şəxsiyyət vəsiqəsinin etibarlılıq müddətini yoxlayır, Gürcüstan vətəndaşının elektron olmayan şəxsiyyət vəsiqəsi təqdim edildikdə isə sənədin verilmə tarixini yoxlayır.

Əgər seçici etibarlılıq müddəti bitmiş şəxsiyyət vəsiqəsini və ya qüvvəsini itirmiş Gürcüstan vətəndaşının elektron olmayan şəxsiyyət vəsiqəsini təqdim edərsə (2011-ci il 27 iyul tarixinədək daxil olmaqla verilmiş elektron olmayan vəsiqələr qüvvəsini itirmiş hesab olunur), onun səsvermədə iştirakı qadağandır. Qeydiyyatçı seçiciyə səsvermədə iştirakdan imtinanın səbəbini izah edir və bildirir ki, ona səsvermədə iştirak hüququ yalnız etibarlı şəxsiyyət vəsiqəsini təqdim etdikdə veriləcəkdir.

Sənədin etibarlılıq müddəti yoxlanıldıqdan sonra, qeydiyyatçı seçicinin təqdim etdiyi sənəddəki qeydiyyat məlumatları ilə seçicilər siyahısında olan məlumatların uyğunluğunu yoxlayır. Seçici yalnız o halda səsvermədə iştirak edə bilər ki, seçicilər siyahısında onun Gürcüstan vətəndaşının şəxsi nömrəsi, cinsi və fotosu ilə birlikdə aşağıda sadalanan məlumatlardan ən azı 3-ü tam şəkildə uyğun gəlsin:

- Adı;
- Soyadı;
- Doğum tarixi (gün, ay, il);
- Ünvan (Gürcüstan vətəndaşının şəxsiyyət vəsiqəsində göstərilən və ya Agentliyin məlumat bazasında olan, o cümlədən xaricdə qeydiyyat ünvanı).



Qeydiyyatçı təqdim olunmuş sənəddəki və seçicilər siyahısındakı fotosu ilə seçicinin üzünün uyğunluğunu yoxlayır. Əgər qeydiyyatçı uyğunluqla bağlı şübhə edərsə, bu halda o, cari təlimat kitabçasının 32-ci səhifəsində göstərilmiş qaydalara uyğun hərəkət etməlidir.

Qeydiyyatçı təqdim olunmuş sənəddəki və seçicilər siyahısındakı fotosu ilə seçicinin üzünün uyğunluğunu yoxlayır. Əgər qeydiyyatçı hesab edərsə ki, uyğunluq yoxdur, bu halda o, cari təlimat kitabçasının 32-ci səhifəsində göstərilən qaydalara uyğun hərəkət etməlidir.

Seçicilər siyahısında seçici haqqında məlumatların uyğunluğu təsdiqləndikdə, qeydiyyatçı seçicinin sağ əlindəki baş barmaq və ya şəhadət barmağının dırnağında markalanma aparır (əgər bu əməliyyatı yerinə yetirmək mümkün deyilsə – sağ əlin digər barmaqlarında, bu da mümkün olmadıqda, eyni qayda ilə sol əldə).

Əgər seçici markalanma prosedurundan keçməkdən imtina edərsə, onun səsvermədə iştirak etmək hüququ yoxdur və qeydiyyatçı ona səsvermə binasını tərk etməsini izah edir.



Markalanma proseduru yerinə yetirildikdən sonra, seçicilərin qeydiyyatçısı olan komissiya üzvü vahid seçici siyahısında müvafiq qrafada imza atır və seçiciyə siyahıda imzası ilə seçki bülleteninin qəbulunu təsdiqləməyi tapşırır.

Əgər səsvermə prosesi zamanı müəyyən edilərsə ki, seçici seçici siyahısında başqa bir seçicinin soyadı qarşısındakı xanaya imza atıbsa, bu halda həmin imzanın qarşısında soyadı qeyd olunan seçici eyni xanada imza atmalıdır. Bu barədə qeydiyyatçı izahat yazmalıdır (vahid seçici siyahısında seçicinin sıra nömrəsini, adını və soyadını göstərməklə).

**Seçiciyə seçki bülleteninin verilməsi prosesi.** Seçicinin qeydiyyat proseduru başa çatdıqdan sonra, qeydiyyatçı seçiciyə seçki bülletenini təqdim edir. Bülleten üç sütuna bölünmüşdür:

- ✔ Birinci sütunda — partiyaların adları müəyyən edilmiş ardıcıllıqla göstərilir;
- ✔ İkinci sütunda — merliyə namizədlərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir;
- ✔ Üçüncü sütunda — majoritar dairə üzrə namizədliyi irəli sürülmüş şəxslərin sıra nömrəsi, adı, soyadı və onları irəli sürən subyekt göstərilir.

Seçki bülletenilə yanaşı qeydiyyatçı seçiciyə müvafiq formalı xüsusi çərçivə-zərf təqdim edir:

- ✔ Əgər seçici mer (bələdiyyə başçısı), proporsional və majoritar üsulla keçiriləcək sakrebulo seçkilərində iştirak edirsə, ona seçki bülleteninin hər üç sütununu örtən çərçivə-zərf verilir;
- ✔ Əgər seçici yalnız mer və proporsional üsulla keçiriləcək sakrebulo seçkilərində iştirak edirsə, ona yalnız iki sütunu örtən çərçivə-zərf verilir;
- ✔ Əgər seçici yalnız proporsional üsulla keçiriləcək sakrebulo seçkilərində iştirak edirsə, ona yalnız bir sütunu örtən çərçivə-zərf verilir.

Qeydiyyatçı seçiciyə seçki bülleteninin doldurulma və xüsusi çərçivə-zərfdən istifadə qaydasını izah edir.

*Seçici üçün izahat - əgər seçici hər üç növ seçkidə iştirak edirsə (munisipalitet meri, munisipalitet sakrebulosunun proporsional və majoritar üsulla keçirilən seçkiləri):*



*"Səs vermək üçün seçki bülleteninin hər üç sütununda sizin üçün arzuolunan yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivəli zərfə yerləşdirin".*

*Seçici üçün izahat – əgər seçici yalnız iki növ seçkidə iştirak edirsə (munisipalitet meri və munisipalitet sakrebulosunun proporsional üsulla keçirilən seçkiləri):*



*"Səs vermək üçün seçki bülleteninin birinci və ikinci sütunlarında yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivə-zərfə yerləşdirin.*
*Xatırladırıq ki, çərçivə-zərf ilə örtülməmiş seçki bülleteninin üçüncü sütununda seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülleteni korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir".*

*Seçici üçün izahat – əgər seçici yalnız bir növ seçkidə iştirak edirsə (sakrebulo munisipalitetinin proporsional üsulla keçirilən seçkiləri):*

*“Səs vermək üçün seçki bülleteninin birinci sütununda yalnız bir subyektin qarşısındakı dairəni (dairənin içini) tam şəkildə rəngləyin.*
*Seçki bülletenini qatlamayın və gizli səsvermə prinsipinə uyğun olaraq doldurulmuş bülleteni xüsusi çərçivə-zərfə yerləşdirin.*
*Xatırladırıq ki, seçki bülleteninin çərçivə-zərf ilə örtülməmiş ikinci və üçüncü sütunlarında, seçimi qeyd etmək hüququnuz yoxdur. Belə seçki bülletenləri korlanmış hesab olunacaq və sizə yeni seçki bülleteni veriləcəkdir.”*

Seçki bülleteninin doldurulması və xüsusi çərçivə-zərfin istifadə edilməsi qaydaları izah edildikdən sonra, qeydiyyatçı seçki bülletenini xüsusi çərçivə-zərfə elə yerləşdirir ki, müvafiq sütunda/sütunlarda verilmiş seçki subyektlərinin siyahısı tamamilə örtülsün. Qeydiyyatçı seçiciyə xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülleteninin üzərindəki sınaq dairəsini rəngləməyi göstərir.



*Xüsusi çərçivə-zərfdə yerləşdirilmiş seçki bülleteninin üst hissəsində yerləşdirilmiş test dairəsi*

Seçki bülletenində test dairəsi rəngləndikdən sonra, qeydiyyatçı seçiciyə xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülletenini verir və izah edir ki, seçki bülletenini, xüsusi çərçivə-zərf vasitəsilə, səs sayma üçün xüsusi elektron aparata elə yerləşdirməlidir ki, seçki bülleteninin üzərindəki test dairəsi alt tərəfə düşsün. Bundan sonra, qeydiyyatçı seçiciyə göstəriş verir ki, gizli səsvermə kabinəsinə keçsin.

**III. Seçki bülletenini və səsvermə üçün nəzərdə tutulmuş xüsusi çərçivə-zərfi aldıqdan sonra, seçici gizli səsvermə kabinəsinə daxil olur.**

Seçici xüsusi marker istifadə edərək seçki bülletenini doldurur və onu xüsusi çərçivə-zərfə yerləşdirir.

Gizli səsvermə kabinəsində, seçki bülleteninin doldurulması zamanı, digər şəxslərin iştirak etməsi və foto/video çəkilişi qadağandır.

Seçici, özü seçki bülletenini doldura bilmədiyi halda, gizli səsvermə kabinəsinə kömək üçün seçki məntəqəsində olan hər hansı bir şəxsi dəvət edə bilər, aşağıdakılar istisna olmaqla:
a) Seçki komissiyasının üzvü;
b) Namizəd;
c) Seçki subyektinin nümayəndəsi;
ç) Nəzarətçi;
d) Kütləvi informasiya vasitələri və mətbuat nümayəndəsi.

Əgər seçicinin seçki bülleteni və ya xüsusi çərçivə-zərfi korlanarsa, bunu komissiyanın sədrinə bildirməlidir. Komissiyanın sədrinin tapşırığı ilə, qeydiyyatçı seçicinin korlanmış seçki bülletenini/xüsusi çərçivə-zərfini yenisi ilə əvəz etməlidir.

Komissiya sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə qatlayır ki, seçki subyektlərini görmək mümkün olmasın, qatlanmış seçki bülletenini metal bağlayıcı ilə birləşdirir, küncünü kəsir, üzərinə “korlanıb” sözünü yazır və imza atır. Komissiya sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

**IV. Seçici xüsusi çərçivə-zərfə yerləşdirilmiş seçki bülleteni ilə əsas seçki qutusuna yaxınlaşır**

Seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi olan komissiya üzvü seçiciyə seçki bülleteninin aparata yerləşdirilməsi qaydasını izah edir.

*“Seçki bülletenini xüsusi çərçivə-zərf vasitəsilə aparata elə yerləşdirin ki, sınaq dairəsinin yerləşdiyi tərəf aşağıya düşsün.*
*Çərçivə-zərfi yüngülcə saxlayın ki, aparat seçki bülletenini asanlıqla qəbul edə bilsin.*
*Aparatın ekranında ”Səsiniz qəbul edildi” bildirişi görünənə qədər gözləyin və yalnız bundan sonra səsvermə məntəqəsini tərk edin.*

Səsvermə qutusu və səslərin sayılması üçün xüsusi elektron cihazın nəzarətçisi, fərqli növdə xüsusi çərçivə-zərf tutan seçicidən tələb etməlidir ki, seçki bülleteninin açıq sütununda/sütunlarında seçim edilib-edilmədiyini göstərsin – elə şəkildə ki, çərçivə-zərflə örtülü sütunda seçici tərəfindən edilmiş seçimin məxfiliyi pozulmasın.

Əgər seçki bülleteninin açıq sütunu/sütunları rənglənmiş və ya işarələnmiş olarsa, seçki bülleteninə korlanmış kimi baxılacaq. Bu hal komissiya sədrinə bildirilməli və onun göstərişi ilə qeydiyyatçı seçiciyə korlanmış seçki bülleteninin əvəzinə yenisini verməlidir.

Komissiya sədri seçicinin iştirakı ilə korlanmış seçki bülletenini elə şəkildə qatlayır ki, seçki subyektləri görünməsin, qatlanmış seçki bülletenini metal bağlayıcı ilə birləşdirir, küncünü kəsir, üzərinə “korlanmışdır” yazır və imza atır. Komissiya sədri korlanmış seçki bülletenini ayrıca saxlayır.

Seçici seçki bülletenini xüsusi çərçivə-zərf vasitəsilə əsas seçki qutusuna quraşdırılmış aparata yerləşdirir. Əgər seçici xüsusi çərçivə-zərf vasitəsilə bülleteni aparata yerləşdirə bilmirsə, ona seçki qutusu və səslərin sayılması üçün xüsusi elektron aparatın nəzarətçisi olan komissiya üzvü kömək edə bilər.




*Səslərin sayılması üçün xüsusi elektron aparata seçki bülleteninin yerləşdirilməsi*




*Seçki bülleteninin əsas seçki qutusuna yerləşdirilməsini təsdiqləyən işarə*

Əgər səslərin sayılması üçün xüsusi elektron aparat seçki bülletenini qəbul etməz və geri qaytararsa, həmin bülletenin eyni və ya başqa elektron aparata yenidən yerləşdirilməsi mümkündür. Seçki bülleteninin yenidən geri qaytarılması halında, komissiya sədri seçicinin iştirakı ilə müəyyən olunmuş qaydada bülleteni korlayır. Komissiya sədrinin göstərişi ilə qeydiyyatçı seçiciyə korlanmış seçki bülleteninin əvəzinə yenisini təqdim etməlidir.

Seçki bülleteninin əsas seçki qutusuna yerləşdirilməsindən sonra seçici xüsusi çərçivə-zərfi bunun üçün nəzərdə tutulmuş masaya qoyur və seçki məntəqəsini tərk edir. Xüsusi çərçivə-zərflər seçicilərin qeydiyyatını aparan komissiya üzvlərinə təhvil verilir.

## Seçicilərin fərdi məlumatlarının mühafizəsi üzrə təminat

Səsvermə binasında olmaq hüququna malik şəxslərə seçicilərin masaüstü siyahısında yer alan şəxsi məlumatların, seçicinin şəxsiyyətini təsdiq edən sənədin, həmçinin seçicinin seçki bülletenində etdiyi seçimin foto/video çəkilişi və ya digər formada emalı (o cümlədən toplanması, qeydə alınması, saxlanması), istifadəsi, açıqlanması, ötürülməsi və/və ya yayılması qadağandır. Bu qadağa həmçinin məntəqə seçki komissiyasının üzvlərinə də şamil edilir, istisna yalnız o hallardır ki, seçicinin şəxsi məlumatları ilə bağlı hərəkətlərin həyata keçirilməsi Gürcüstanın orqanik qanunu "Gürcüstanın Seçki Məcəlləsi" və Mərkəzi Seçki Komissiyasının hüquqi aktları ilə nəzərdə tutulmuş məntəqə seçki komissiyasının səlahiyyətlərinin icrası üçün zəruridir.

## Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin uçotu

Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayı (seçici fəallığı) saat 10:00-da, 12:00-da, 15:00-da və 17:00-da müəyyən edilir. Səsvermədə/seçkilərdə iştirak edən seçicilərin yekun sayı səsvermə prosesi başa çatdıqdan sonra müəyyən olunur.

Səsvermə prosesi saat 20:00-da başa çatır, istisna yalnız o haldır ki, bu vaxtadək səsvermədə iştirak etmək üçün növbədə seçicilər dayanır. Növbədə duran son qeydə alınmış seçici səs verdikdən dərhal sonra səsvermə başa çatmış elan edilir.

Seçicilərin verifikasiyası aparatlarından istifadə olunmadan səsvermə prosesi davam etdirildikdə, səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayını müəyyən etmək məqsədilə, verifikasiya aparatları qutulara yerləşdirilməzdən əvvəl, məntəqə seçki komissiyasının sədri həmin anda olan seçici sayı/fəallığını əks etdirən qəbzi/hesabatı verifikasiya aparatından çap edir. Əgər heç bir verifikasiya aparatından qəbzi/hesabatı çap etmək mümkün olmazsa, komissiya sədri seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin yerləşdirilməsi üçün nəzərdə tutulmuş şəffaf olmayan möhürlənmiş qutuları, seçici sayının qeydiyyatı üçün nəzərdə tutulmuş müvafiq vaxtda bir dəfəlik açır və içərisindəki qəbzlərin sayını hesablayır. Komissiyanın katibi bu məlumatı qeydə alır. Bundan sonra komissiya sədri qəbzləri yenidən şəffaf olmayan qutulara yerləşdirir, möhürləyir və ayrıca saxlayır.

Növbəti mərhələdə, səsvermə/seçkilərdə iştirak edən seçicilərin sayı məntəqə seçki komissiyası üçün nəzərdə tutulmuş seçici siyahılarında, o cümlədən səyyar seçki qutusu siyahısında olan imzaların sayına əsasən müəyyən edilir; bu say qeydiyyatçılar tərəfindən, komissiya sədrinin göstərişi ilə və səsvermə prosesinə mane olmadan hesablanır. Seçici siyahılarında hesablanmış imzaların sayına seçicilərin verifikasiyasını təsdiq edən qəbzlərin sayılması nəticəsində əldə olunmuş məlumat əlavə edilir.



Qeydiyyatçılar dəqiqliyin yoxlanması məqsədilə komissiya sədrinə yalnız seçici siyahılarındakı imzaların sayını deyil, həm də onların verdiyi seçki bülletenlərinin sayını (komissiya sədrinə qaytarılmış korlanmış seçki bülletenlərinin sayı da daxil olmaqla) bildirməlidirlər.

Verilmiş seçki bülletenlərinin sayını komissiya sədrindən alınmış seçki bülletenlərinin sayı ilə qeydiyyatçılarda qalan seçki bülletenlərinin sayının müqayisəsi əsasında müəyyən etmək olar.

Komissiyanın sədri məlumatların dəqiqliyini yoxlayır:

Verilmiş seçki bülletenlərinin sayı − Korlanmış seçki bülletenlərinin sayı = Seçicilərin imzalarının sayı

Əgər məlumatlar arasında fərq aşkar edilsə, seçicilərin qeydiyyatçısı dərhal izahat yazmalıdır (izahatda əks olunan məlumatlar səsvermədə/seçkilərdə iştirak edən seçicilərin sayının müəyyən edilməsi və səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi məqsədləri üçün nəzərə alınacaqdır).

Yuxarıda təsvir olunan qaydada proporsional sistem üzrə keçirilmiş sakrebulo seçkilərində səsvermədə iştirak etmiş seçicilərin ümumi sayı müəyyən edilir və yoxlanılır.

Komissiyanın katibi, seçki nəticələrinin nümunəvi protokollarına və qeydlər kitabında seçkiyə qatılan seçicilərin ümumi sayını qeyd edərkən aşağıdakıları nəzərə almalıdır:

Mer seçkilərində səsvermədə iştirak etmiş seçicilərin sayının müəyyən edilməsi məqsədilə, proporsional sistemlə keçirilmiş sakrebulo seçkilərində iştirak etmiş seçicilərin ümumi sayından, xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş və mer seçkilərində iştirak hüququ olmayan seçicilərin qeydiyyatçıları tərəfindən qeydə alınmış ümumi sayı çıxılmalıdır. Mer seçkilərində iştirak hüququ olmayan və xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş seçicilərin ümumi sayı qeydlər kitabçasına daxil edilir. Bu göstəricilər qeydiyyatçılar tərəfindən xüsusi siyahıya daxil edilmiş seçicilərin qeydiyyat formalarında qeyd olunub.

Majoritar sistemlə keçirilən sakrebulo seçkiləri üçün səsvermədə iştirak edən seçicilərin sayının müəyyən edilməsi məqsədilə, proporsional sistemlə keçirilən seçkilərdə iştirak edən seçicilərin ümumi sayından, xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş və majoritar sistemlə keçirilmiş seçkilərdə iştirak hüququ olmayan seçicilərin qeydiyyatçısı tərəfindən qeydə alınmış ümumi sayı çıxılmalıdır. Majoritar sistemlə keçirilmiş seçkilərdə iştirak hüququ olmayan və xüsusi siyahı üzrə səsvermədə iştirak etmiş seçicilərin ümumi sayı qeydlər kitabçasına daxil edilir. Bu göstəricilər qeydiyyatçılar tərəfindən xüsusi siyahıya daxil edilmiş seçicilərin qeydiyyat formalarında qeyd olunub.

Məntəqə seçki komissiyasının sədri seçicilərin sayının uçotu üçün nəzərdə tutulmuş müvafiq vaxtda səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin sayını planşet vasitəsilə MSK-ya ötürür (bax səhifə 48, sxem №5 – seçicilərin sayına (aktivliyinə) dair məlumatın MSK-ya ötürülməsi prosesinin illüstrasiyası). Məntəqə seçki komissiyasının katibi səsvermədə/seçkilərdə iştirak etmiş seçicilərin ümumi sayını saat 12:00 və 17:00-a olan vəziyyətə görə, həmçinin səsvermə prosesinin başa çatmasından sonra müəyyən edilmiş yekun seçici sayını səsvermə nəticələrinin nümunəvi protokollarında və qeydlər kitabında göstərir.

## Səsvermə prosesinin bitməsi

Səsvermə prosesi saat 20:00-da başa çatır və səsvermə binası bağlanır.

Saat 20:00-a olan vəziyyətə görə növbədə dayanan seçicilərin, səslərin sayılması zamanı səsvermə binasında olan komissiya üzvlərinin, eləcə də səsvermə binasında olma hüququna malik digər şəxslərin qeydiyyatı qaydasına dair məlumatı bu təlimat kitabçasının 52-ci səhifəsində tapa bilərsiniz.

Verifikasiya aparatları olmadan səsvermə keçirildiyi halda, səsvermə başa çatdıqdan dərhal sonra məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermənin nəticələrinin yekunlaşdırılmasına hazırlaşmağa başlayırlar. Bu məqsədlə onlar ardıcıl olaraq aşağıdakı prosedurları həyata keçirirlər:

| | |
|---|---|
| ☐ Səyyar seçki qutusundan seçki bülletenlərinin əsas seçki qutusuna yerləşdirilməsi səsvermənin elektron hesablanması aparatları vasitəsilə həyata keçirilir. | Səh. 49-50 |
| ☐ Səsvermənin ilkin nəticələrinin əldə edilməsi səsvermənin elektron hesablanması aparatları vasitəsilə həyata keçirilir. | Səh. 50-55 |
| ☐ Seçki məntəqəsinin səslərin sayılması proseduru üçün hazırlanması və sayıcıların müəyyən edilməsi. | Səh. 55-56 |
| ☐ Əsas seçki qutusunun açılmasından əvvəl seçki sənədlərinin möhürlənməsi həyata keçirilir.<br>Qeyd: Bu təlimat kitabçasının 63-cü səhifəsində göstərilən möhürlənəcək sənədlərdən əlavə olaraq, komissiyanın katibi aşağıdakı sənədləri ayrıca paketlərə yerləşdirir:<br>✔ Seçicilərin vahid siyahısı;<br>✔ Seçicilərin xüsusi siyahısı (əgər varsa).<br>Komissiyanın katibi hər bir paketin üzərində seçki dairəsinin adı və nömrəsini, seçki məntəqəsinin adı və nömrəsini, seçki sənədinin növünü yazır.<br>Möhürlənmiş paketlərin möhürləmə lentinin üzərinə sayıcılar və məntəqə seçki komissiyasının sədri imza atırlar. | Səh. 57 |
| ☐ Əsas seçki qutusunun açılması, seçki bülletenlərinin sayılması/möhürlənməsi. | Səh. 57-58 |
| ☐ Səsvermə nəticələrinin yekun protokolunun tərtib edilməsi və ictimailəşdirilməsi. | Səh. 59-63 |
| ☐ Qeydiyyat jurnalının bağlanması, qeydlər kitabçasının bağlanması/möhürlənməsi, komissiyanın xüsusi möhürünün möhürlənməsi.<br>Qeyd: Bu təlimatın 71-ci səhifəsində verilmiş və verifikasiya aparatından çıxarılmış yekun hesabatın digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına təhvil verilməsini nəzərdə tutan qayda səsvermə prosesinin verifikasiya aparatları olmadan davam etdirildiyi halda tətbiq olunmur. | Səh. 64 |
| ☐ Seçki sənədlərinin, elektron aparatların və digər inventarın dairə seçki komissiyasına təhvil verilməsi. | Səh. 64-65 |

Xüsusi səs sayma elektron aparatlarından istifadə olunmadan səsvermə prosesinin davam etdirilməsi.

## Səsvermə prosesi

Səslərin sayılması üçün xüsusi elektron cihazlar olmadan seçicilərə səsvermədə iştirak xidmətinin göstərilməsi məqsədilə, məntəqə seçki komissiyasının sədri komissiya üzvlərinin və səsvermə binasında olmaq hüququna malik şəxslərin iştirakı ilə əsas seçki qutularından cihazları çıxarır.

Komissiya sədri dairə seçki komissiyasının nümayəndəsinə bildirir ki, səs sayma üçün xüsusi elektron aparatları, müəyyən olunmuş qaydada, aparatlara aid qutularda saxlasın.



*Seçki bülleteninin yerləşdirilməsi üçün yarıq*

Seçicinin isə səsvermə bülletenini, xüsusi zərf/çərçivə-zərf olmadan, birbaşa əsas seçki qutusuna, bülletenin yerləşdirilməsi üçün nəzərdə tutulmuş xüsusi yarıq vasitəsilə yerləşdirmək imkanı olur.

Səslərin sayılması üçün xüsusi elektron cihazlar olmadan keçirilən səsvermə prosesində seçici üçün yalnız əsas seçki qutusuna seçki bülleteninin yerləşdirilməsi proseduru dəyişir. Belə ki, gizli səsvermə kabinəsindən çıxan seçici seçki bülletenini əsas seçki qutusuna qatlanmış vəziyyətdə (xüsusi zərf/çərçivə-zərf olmadan) yerləşdirməlidir.

Seçicinin səsvermə binasına buraxılma qaydası və qeydiyyatçının seçiciyə göstərməli olduğu xidmət (verifikasiya aparatlarından istifadə etməklə qeydiyyat, seçki bülleteninin doldurulma qaydasının izahı) bu təlimatın 30–37-ci səhifələrində təqdim olunub.

Əsas seçki qutusunun yanında duran səlahiyyətli komissiya üzvü seçiciyə əsas seçki qutusuna seçki bülleteninin yerləşdirilməsi qaydasını izah edir:

*„Seçki bülleteni gizlilik prinsipi qorunmaqla, qatlanmış vəziyyətdə əsas seçki qutusuna yerləşdirilməlidir".*

## Səsvermə prosesinin bitməsi

Səslərin sayılması üçün xüsusi elektron cihazlar olmadan səsvermə keçirildiyi halda, səsvermə başa çatan kimi (saat 20:00-da və ya həmin vaxtadək növbədə duran və qeydiyyata alınmış sonuncu seçici səs verdikdən dərhal sonra), məntəqə seçki komissiyasının sədri və üzvləri səsvermənin nəticələrinin yekunlaşdırılmasına hazırlığa başlayırlar. Bu məqsədlə, onlar aşağıdakı prosedurları ardıcıllıqla həyata keçirirlər:

| | |
|---|---|
| ☐ Verifikasiya aparatlarında verifikasiya prosesinin başa çatdırılması. | Səh. 48-49 |
| ☐ Səyyar seçki qutusundan seçki bülletenlərinin əsas seçki qutusuna xüsusi yarıq vasitəsilə yerləşdirilməsi və dərhal sonra əsas seçki qutusunun yarıqlarının möhürlənməsi.<br><br>Qeyd: Səyyar seçki qutusunun açılması zamanı möhürlərin bütövlüyünün yoxlanılması proseduru, xüsusi çərçivə-zərfdə bir neçə seçki bülleteninin aşkar edilməsi halında görüləcək tədbirlər dəyişməz olaraq, bu təlimat kitabçasının müvafiq səhifələrində göstərilən qaydalara uyğun olaraq həyata keçirilir. | Səh. 49-50 |
| ☐ Seçki məntəqəsinin səslərin sayılması proseduru üçün hazırlanması və sayım aparacaq şəxslərin (sayçılar) müəyyən edilməsi. | Səh. 55-56 |
| ☐ Əsas seçki qutusunun açılmasından əvvəl seçki sənədlərinin möhürlənməsi. | Səh. 57 |
| ☐ Əsas seçki qutusunun açılması, seçki bülletenlərinin hesablanması/möhürlənməsi:<br>Qeyd:<br>✔ Bu təlimat kitabçasının 64-cü səhifəsində göstərilən seçki bülletenlərinin etibarsız sayılması əsaslarından əlavə, təyin olunmuş nümunənin seçki bülleteni başqa seçki məntəqəsi üçün nəzərdə tutulduğu halda etibarsız hesab olunur (belə bülletenlər ayrıca paketlənir və möhürlənir, onların sayı səsvermənin nəticələrinə dair yekun protokolda göstərilmir və yalnız səsvermə günü qeydlər kitabında qeyd olunur).<br>✔ Əgər seçki qutusunda təyin olunmamış nümunəyə uyğun bülleten aşkar olunarsa, belə bülleten ayrıca kənara qoyulur. | Səh. 57-58 |
| ☐ Səsvermə nəticələrinin ümumiləşdirici protokolunun tərtib edilməsi və ictimailəşdirilməsi. | Səh. 58-63 |
| ☐ Qeydiyyat jurnalının bağlanması, qeydlər kitabçasının bağlanması/möhürlənməsi, komissiyanın xüsusi möhürünün möhürlənməsi<br>Qeyd: Bu təlimatın 71-ci səhifəsində göstərilən qayda – yəni elektron say aparatından alınmış ilkin səsvermə nəticələrinə dair konsolidasiya olunmuş çıxarışın digər seçki sənədləri ilə birlikdə dairə seçki komissiyasına təhvil verilməsi – etibarsızdır, əgər səsvermə prosesi bu aparatların istifadəsi olmadan davam etdirilmişdirsə. | Səh. 64 |
| ☐ Seçki sənədlərinin, elektron aparatların və digər inventarın dairə seçki komissiyasına təhvil verilməsi | Səh. 64-65 |

# Əlavə N4

## Məntəqə seçki komissiyası tərəfindən həyata keçiriləcək əsas tədbirlərin təqvimi

| Sentyabr | | | | | | |
|---|---|---|---|---|---|---|
| Bazar ertəsi | Çərş.ax. | Çərşənbə | Cümə axş. | Cümə | Şənbə | Bazar |
| | | | | | | 1 |
| 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 |
| 16 | 17 | 18 | 19 | 20 | 21 | 22 |
| 23 | 24 | 25 | 26 | 27 | 28 | 29 |
| 30 | | | | | | |

### 4 sentyabr (səsvermə gününə 30 gün qalmış):

- Yeni yaradılmış məntəqə seçki komissiyası fəaliyyətə başlayır.
- Mərkəzi Seçki Komissiyası tərəfindən təsdiqlənmiş vahid seçici siyahısının ictimai məlumat üçün nəzərdə tutulmuş variantı məntəqə seçki komissiyasına təqdim olunur.
- Məntəqə seçki komissiyası vahid seçici siyahısının ictimai məlumat üçün nəzərdə tutulmuş variantını (divar siyahısı – fotoşəkillərsiz) məntəqə seçki komissiyasının binasında görünən bir yerə asır.
- Məntəqə seçki komissiyası seçici kartlarını paylamağa başlayır (başlanğıc müddət).
- Müşahidəçilərin, seçki subyekti nümayəndələrinin və seçicilərin hüququ var ki, seçici siyahısında uyğunsuzluq aşkar etdikləri halda, məntəqə seçki komissiyasına müraciət edərək seçicilərlə bağlı məlumatlarda və ya vahid seçici siyahısında dəyişiklik edilməsini tələb etsinlər (başlanğıc müddət). Məntəqə seçki komissiyası daxil olmuş ərizələri (əgər varsa, əlavə olunmuş sənədlərlə birlikdə) dərhal dairə seçki komissiyasına çatdırır.
- Sağlamlıq vəziyyətinə görə səsvermə binasına gələ bilməyən və ya seçki məntəqəsinin ərazisində yerləşsə də, çətinliklə çatılan yerdə olan seçicinin hüququ var ki, məntəqə seçki komissiyasına müraciət edərək səyyar seçki qutusu vasitəsilə səsvermə xidmətindən istifadəni tələb etsin (başlanğıc müddət). Məntəqə seçki komissiyası səyyar seçki qutusu siyahısına daxil ediləcək seçicilərlə bağlı məlumatı dərhal səsvermə binasında görünən bir yerdə yerləşdirir.
- Seçicinin hüququ var ki, məntəqə seçki komissiyasına müraciət edərək uyğunlaşdırılmış seçki məntəqələrinin seçici siyahısına daxil edilməsini tələb etsin (başlanğıc müddət).

### 14 sentyabr (səsvermə gününə 20 gün qalmış):

- Məntəqə seçki komissiyası seçici kartlarının paylanmasını başa çatdırır (son müddət).

### 16 sentyabr (səsvermə gününə 18 gün qalmış):

- Müşahidəçilərin, seçki subyekti nümayəndələrinin və seçicilərin hüququ var ki, seçici siyahısında uyğunsuzluq aşkar etdikləri halda, məntəqə seçki komissiyasına ərizə ilə müraciət edərək seçicilərlə bağlı məlumatlarda və ya vahid seçici siyahısında dəyişiklik edilməsini tələb etsinlər (son müddət). Məntəqə seçki komissiyası daxil olmuş ərizələri (əgər varsa, əlavə olunmuş sənədlərlə birlikdə) dərhal dairə seçki komissiyasına təqdim edir.

## 23 sentyabr (səsvermə gününə 11 gün qalmış):

- ☐ Əlil arabasından istifadə edən seçicinin hüququ var ki, məntəqə seçki komissiyasına müraciət edərək uyğunlaşdırılmış seçki məntəqələrinin seçici siyahısına daxil edilməsini tələb etsin (son müddət).
- ☐ Əlil arabasından istifadə edən seçici məntəqə seçki komissiyasına müraciət etdikdə, məntəqə seçki komissiyası bu seçici barədə məlumatı yuxarı dairə seçki komissiyasına təqdim etməlidir.
- ☐ Sağlamlıq vəziyyətinə görə səsvermə binasına gələ bilməyən və ya seçki məntəqəsinin ərazisində yerləşsə də, çətinliklə çatılan yerdə olan seçicinin hüququ var ki, məntəqə seçki komissiyasına müraciət edərək səyyar seçki qutusu vasitəsilə səsvermə xidmətindən istifadəni tələb etsin (son müddət). Məntəqə seçki komissiyası səyyar seçki qutusu siyahısına daxil ediləcək seçicilərlə bağlı məlumatı dərhal səsvermə binasında görünən bir yerdə yerləşdirir.

## 24 sentyabr (səsvermə gününə 10 gün qalmış):

- ☐ Dairə seçki komissiyası uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısını tərtib edir və sərəncamla təsdiq edərək müvafiq məntəqə seçki komissiyasına təqdim edir.
- ☐ Məntəqə seçki komissiyası uyğunlaşdırılmış seçki məntəqələrinin seçicilərinin xüsusi siyahısının ictimai məlumat üçün nəzərdə tutulmuş variantını (divar siyahısı) dərhal məntəqə seçki komissiyasının binasında görünən bir yerdə yerləşdirir.
- ☐ Məntəqə seçki komissiyasının üzvlərinin, seçki subyekti nümayəndələrinin və müşahidəçilərin hüququ var ki, səyyar seçki qutusu vasitəsilə səsvermə tələbinin əsaslılığını yoxlasınlar və həmin seçicilərin səyyar seçki qutusu siyahısına daxil edilməsinin məqsədəuyğunluğu məsələsini məntəqə seçki komissiyası qarşısında qaldırsınlar (son müddət). Bu məsələ ilə bağlı qərarı məntəqə seçki komissiyası qəbul edir.

## 27 sentyabr (səsvermə gününə 7 gün qalmış):

- ☐ Məntəqə seçki komissiyasının sədri, komissiya üzvləri arasında funksiyaların bölüşdürülməsi məqsədilə püşkatma keçirir (son müddət).

| Oktyabr | | | | | | |
|---|---|---|---|---|---|---|
| **Bazar ertəsi** | **Çərş.ax.** | **Çərşənbə** | **Cümə axş.** | **Cümə** | **Şənbə** | **Bazar** |
| | 1 | 2 | 3 | 4 Səsvermə günü | 5 | 6 |
| 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 |
| 14 | 15 | 16 | 17 | 18 | 19 | 20 |
| 21 | 22 | 23 | 24 | 25 | 26 | 27 |
| 28 | 29 | 30 | 31 | | | |

### 1 oktyabr (səsvermə gününə 3 gün qalmış):

- ☐ Məntəqə seçki komissiyası, seçki məntəqəsinin ərazisində qeydiyyatda olan və vahid seçici siyahısına daxil edilmiş seçicilərə seçici kartlarını təqdim edir (son müddət).

### 2 oktyabr (səsvermə gününə 2 gün qalmış):

- ☐ Məntəqə seçki komissiyasına yekunlaşdırılmış, dəqiqləşdirilmiş siyahıların ictimai məlumat üçün nəzərdə tutulmuş variantları (divar siyahısı fotoşəkillərsiz) təqdim olunur. Əvvəlki divar siyahısı çıxarılır və komissiya həmin yerə dəqiqləşdirilmiş variantı yapışdırır.

### 3 oktyabr (səsvermədən öncəki gün):

- ☐ Məntəqə seçki komissiyasına bütün zəruri inventar, seçki elektron avadanlıqları, sənədlər və seçki materialları təqdim olunur (son müddət).
- ☐ Məntəqə seçki komissiyası səsvermə binasını təşkil edir (hazırlayır).

### 4 oktyabr (səsvermə günü):

- ☐ 06:45 saat - seçki məntəqəsi açılır.
- ☐ 08:00 saatdan – səsvermə başlayır.
- ☐ 09:00 saatdan – səyyar seçki qutusu ilə səsvermə prosesi başlayır.
- ☐ 10:00 saatdan (12:00, 15:00, 17:00 və 20:00 saatlarda) - seçkilərdə iştirak edən seçicilərin ümumi sayı müəyyən edilir.
- ☐ 19:00 saat - səyyar seçki qutusu ilə səsvermə prosesi həyata keçirilir.
- ☐ 20:00 saat – səsvermə prosesi başa çatır. Seçki məntəqəsi bağlanır.
- ☐ 20:00 saatdan - Seçki nəticələrinin yekunlaşdırılması proseduru başlayır.